

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
akad. Z.M.BÜNYADOV adına ŞƏRQŞÜNASLIQ İNSTİTUTU

SƏRİYYƏ GÜLAĞA qızı GÜNDOĞDU

# MEHMED AKİF ƏRSOY YARADICILIĞINDA İCTİMAİ PROBLEMLƏRİN BƏDİİ TƏCƏSSÜMÜ

BAKI- 2012

Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr olunur.

Elmi redaktorlar:
Gövhər Baxşəliyeva
professor, filologiya elmləri doktoru
Elmira Məmmədova
filologiya elmləri namizədi
Rəyçilər:
Aydın Abiyev
professor, filologiya elmləri doktoru
Əsgər Rəsulov
professor, filologiya elmləri doktoru
Pənah Xəlilov
professor, filologiya elmləri doktoru

Səriyyə Gülağa qızı Gündoğdu. "Mehmed Aki Ərsoyun yaradıcılığında sosial problemlərin bədii təcəssümü".Bakı, "R.M.Kompani", 2012, 228 səh.

Mehmed Akif türk xalqının adət-ənənəsinə, dininə, psixolo-giyasına və yaşadığı sosial problemlərə yaxından bələd olduğu üçün əsərləri də böyük təsir gücünə malik olmuşdur. O bütün Türkiyə gəncliyinə, vətənpərvər və ziyalı kütləsinə öz yaradıcılığı ilə ciddi şəkildə təsir göstərmişdir. Bununla yanaşı, şairin şöhrəti Türkiyə sərhədlərini aşmış və digər türk xalqları arasında da böyük nüfuz qazanmışdır. Monoqrafiya Azərbaycanda Mehmed Akif Ərsoyun sosial mözulu şeirlərinin tədqiqinə həsr olunmuş ilk tədqiqat əsəridir.

ISBN 978-9952-652-38-05

© Səriyyə Gündoğdu, 2012

**MÜNDƏRİCAT**


| | |
|---|---|
| ÖN SÖZ | 4 |
| Azərbaycan türkologiyasına yeni bir töhfə | 7 |
| GİRİŞ | 11 |
| I FƏSİL. ƏDƏBİ-İCTİMAİ MÜHİT VƏ | |
| MEHMED AKİF ƏRSOY | 23 |
| 1.1. Həyatı və ədəbi- ictimai mühiti | 24 |
| 1.2. Yaradıcılığı | 39 |
| II FƏSİL. İCTİMAİ PROBLEMLƏRİN | |
| QOYULUŞU VƏ BƏDİİ HƏLLİ | 52 |
| 2.1. Maarif məsələləri | 53 |
| 2.2.Cəmiyyətdə mənəvi dəyərlər | 80 |
| 2.3. Avropa və Avropa "mədəniyyəti"nə münasibəti | 126 |
| 2.4. Müharibə və milli mübarizənin bədii əksi | 140 |
| 2.5. Dövlətçilik və Dövlət idarəsi | 15 1 |
| III FƏSİL. MEHMED AKİFİN İCTİMAİ-SOSİAL MÖVZULU | |
| ŞEİRLƏRİNİN SƏNƏTKARLIQ XÜSUSİYYƏTLƏRİ | |
| 3.1. Məzmun, forma və janr məsələləri | 158 |
| 3.2. İstifadə etdiyi əruz formaları | 169 |
| 3.3. Dil və üslub xüsusiyyətləri | 175 |
| NƏTİCƏ | 193 |
| SON SÖZ ƏVƏZİ | 202 |
| ƏDƏBİYYAT SİYAHISI | |
| Azərbaycan dilində | 206 |
| Türk dilində | 207 |
| Rus dilində | 214 |
| İngilis dilində | 215 |
| İnternet qaynaqları | 216 |

# ÖN SÖZ

Azərbaycan şərqşünaslığında müxtəlif xalqların ədəbiyyatının öyrənilib araşdırılması sahəsində bir çox elmi-tədqiqat işləri aparılmışdır. Bu yöndə əsasən ərəb, fars və türk xalqlarının ədəbiyyatı ilə bağlı elmi araşdırmalar diqqəti cəlb edir. Müasir dövrdə türk xalqlarının elmi-mədəni əlaqələrində yeni bir dönəm başlamış, onların qarşılıqlı elmi-mədəni inteqrasiyası sahəsində bir çox işlər görülmüş və ayrı-ayrı müəlliflər tərəfindən yeni tədqiqat əsərləri yazılmışdır. Lakin müəyyən sahələrin öyrənilməsi yenə də aktual mövzu kimi Azərbaycan şərqşünaslığının qarşısında dayanır və mühüm əhəmiyyət kəsb edir. Belə mövzulardan biri də uzun müddət ərzində müxtəlif qadağalar, siyasi-ideoloji maneələr Mehmed Akif Ərsoy yaradıcılığını araşdırmağa imkan verməmiş, türkologiyamızı bu zəngin ədəbi-bədii mirasdan bixəbər buraxmışdır. Bu baxımdan, Azərbaycan şərqşünaslığında Mehmed Akif Ərsoy yaradıcılığı tədqiqat obyektinə çevrilməsində Səriyyə Gündoğdunun xidməti qeyd olunmalıdır. Müxtəlif məqalələrdə (müəllifin bu sahədə ölkəmizdə, Türkiyədə, Misirdə, Balkan ölkələrində iyirmiyə yaxın elmi məqaləsi və konfrans materialları nəşr edilmişdir) öz əksini tapan bu xidmətin nəticəsi olaraq elmi məlumatlarla zəngin tədqiqat əsəri meydana çıxmışdır.

Əsrlər boyu türk xalqları dünya mədəniyyətinə çoxlu sayda sənət inciləri, məşhur şəxsiyyətlər vermiş, dünya şöhrətli söz adamları yetişdirmişlər. Mehmed Akif Ərsoy XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayan belə görkəmli sənət adamlarından

biridir. Monoqrafiyada zəngin, forma və məzmunca maraqlı yaradıcılıq yoluna malik Mehmed Akif Ərsoy irsi öyrənilmiş, onun türk ədəbiyyatındakı mövqeyi, ədəbi təsir qaynaqları müəyyənləşdirilmiş, ictimai mövzulu əsərlərinin sənətkarlıq xüsusiyyətləri təhlil edilmişdir.

Monoqrafiyanın strukturu və məzmunu, elmi-nəzəri müddəaları ilə dərindən tanışlıq imkan verir deyək ki, tədqiqat işinin bütün fəsil və bölmələri (giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat) problemin konkret aspektləri ilə bağlı olduğundan mövzu tam açılmışdır. Müəllifin istifadə etdiyi çoxsaylı ədəbiyyatın heç biri deklarativ, məlumatçılıq xarakteri daşımır. İstifadə olunan elmi-nəzəri mənbələrə tədqiqatçı yaradıcı-tənqidi nöqteyi-nəzərdən yanaşmışdır.

Monoqrafiyada diqqətə layiq məqamlardan biri də müəllifin öz araşdırmasında metodoloji konsepsiyaya – sosial-tarixilik prinsipinə və müqayisəli təhlil metoduna istinad etməsidir.

Monoqrafiyanın birinci fəslində tarixilik kontekstində Mehmed Akif Ərsoyun yaşadığı Türkiyə tarixinin ictimai-siyasi baxımdan gərgin olan XX əsrin ilk illəri, eləcə də ədəbi mühit əks olunmuşdur. Burada o dövrün ədəbi mühiti sadəcə əks edilməmiş, eyni zamanda dərin elmi təhlillər aparılmışdır.Yenə bu fəsildə Mehmed Akif Ərsoy yaradıcılığı və təsir dairəsi haqqında aparılan tədqiqlər öz əksini tapır.

Monoqrafiyanın "İctimai problemlərin qoyuluşu və bədii həlli" adlı ikinci fəslində ciddi elmi-nəzəri ümumiləşdirmələr aparılmışdır. Beş yarımfəslə ayrılan bu bölümdə hər zaman aktual olan və Mehmed Akif Ərsoy yaradıcılığında əhəmiyyətli yer

tutan maarif məsələlsi, cəmiyyətdə mənəvi dəyərlər, Avropaya münasibət, milli mübarizə və dövlətçilik məsələlərinin yer aldığı şeirləri elmi yöndən təhlil edilmişdir. Aparılmış təhlillər Mehmed Akif Ərsoyun əsərlərinin əsas mövzusunun cəmiyyətin sağlam təməllər üzərində qurulması üçün maariflənmənin ictimai birliyin və bərabərliyin, eləcə də mənəvi dəyərlərin qorunmasının əsas alındığını göstərir.

Şairin yaradıcılığının sənətkarlıq xüsusiyyətləri, məzmun, forma və janr məsələləri, təsvir və ifadə vasitələri, istifadə etdiyi əruz formaları, dili və üslubu əhatəli şəkildə monoqrafiyanın üçüncü fəslində təhlil edilmişdir. Sənətini bütövlükdə cəmiyyət məsələlərinə həsr edən şair sənətkarlıq baxımından yüksək dəyərə malik əsərlər yazdığı yenə bu fəsildəki təhlillər nəticəsində ortaya çıxır. Müəllifin iddia etdiyi üzrə XX əsrin əvvəllərində Türkiyə poeziyasında hökm sürən romantizm Mehmed Akif Ərsoy tərəfindən qırılaraq ictimai romantizmə yönəldilmşdir.

Alınmış nəticələrin yeniliyi və elmi-təcrübi əhəmiyyəti bir daha işin ciddi bir şəkildə tədqiq olunduğundan xəbər verir. Müəllif elmi-nəzəri ədəbiyyatdan məqsədyönlü və bacarıqla istifadə edərək qarşısına qoyduğu əsas məqsədinə nail olmuş, olduqca aktual, elmi dildə yazılmış, elmi-praktiki əhəmiyyətə malik bir əsər ortaya qoymuşdur.

**Gövhər BAXŞƏLİYEVA**

AMEA akad. Z.M.Bünydov adına

Şərqşünaslıq İnstitutunun direktoru

filologiya elmləri doktoru, professor

# AZƏRBAYCAN TÜRKOLOGİYASINA YENİ BİR TÖHFƏ

Türk ədəbiyyatı anlayışı təkcə Türkiyə ərazisinə sığmadığı kimi onun tədqiqi də geniş əraziləri əhatə edir və uzun illərdir ki, öyrənilməsinə təşəbbüs göstərilir. Azərbaycan ədəbiyyatşünaslığında bu yöndə araşdırmaların məhdudluğunun siyasi vəziyyətlə bağlılığı reallıqdır. Sovet İmperiyasının antitürk siyasətinin qoyduğu qadağaların nəticəsi idi ki, Türkiyə ədəbiyyatı Azərbaycanda xüsusi nəzarəti altında öyrənilirdi.

Sovetlər dönəmində milli, dini ruhda yazan məşhur qələm sahibləri «pantürkist», «panislamist» damğası ilə tənqid hədəfinə çevrilirdilər. 1991-ci ildə ölkəmiz yenidən öz müstəqilliyinə qovuşduqdan sonra, Türkiyəyə və onun ədəbiyyatına maraq gündən-günə artır. XX əsrin əvvəllərində olduğu kimi, yenə də ali və orta məktəblərimizdə Türkiyə ədəbiyyatı, bu ədəbiyyatın bir sıra görkəmli şair və yazıçıları tədris olunur. Siyasi-ideoloji görüşlərindən asılı olmayaraq, tanınmış sənətkarların əsərləri geniş biçimdə çap olunur. Türkiyə ədəbiyyatının ayrı-ayrı problemləri, ünlü yazıçı və şairlərinin həyat və yaradıcılığı araşdırma obyektinə çevrilir.

Sovetlər dönəmində adının çəkilməsi belə qadağa olunan Türk ədəbiyyatının ən görkəmli simalarından biri olan Məhməd Akif Ərsoy yaradıcılığının elmi araşdırmaya cəlb olunması olduqca əhəmiyyətli, aktual və dəyərlidir.

Mehmed Akif Ərsoy Sovet türkşünaslığında «öz dini şeirləri ilə türk xalqına zərərlər vurmuş, Türkiyədə müharibə təbliğ et-

miş, adamları qırğına göndərmiş» bir şair kimi qələmə verilir, «din, cəhalət və faşizm tərəfdarları» tərəfindən müdafiə olunan bir şəxsiyyət olaraq təqdim edilirdi.

Mehmed Akif Ərsoy öz səciyyəsinə və problematikasına, metod və idrak prinsiplərinə, üslub və janr xüsusiyyətlərinə görə rəngarəng, zamanla həmişə təmasda olan Türkiyə ədəbiyyatının özünəməxsus mütəfəkkir şəxsiyyətlərindən biri kimi diqqəti çəkir. Onun əsərlərinin toplandığı yeddi cildlik «Safahat» (Mərhələlər) toplusu olmasaydı belə, o yenə də «İstiqlal marşı»nın müəllifi kimi tarixdə yaşayacaqdı. O, həm də yuxarıda söylədiyimiz kimi çox məhsuldar bir şairdir. Belə bir şairin Azərbaycanda öyrənilməsi, onun gerçək qiymətləndirilməsi öz həllini gözləməkdə idi. Bu baxımdan Gündoğdu Səriyyə Gülağa qızının yazdığı «Mehmed Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü» adlı monoqrafiya önəm daşıyır.

Türkiyə ədəbiyyatının və özəlliklə də poeziyanın məzmun, janr, üslub, biçim, vəzn, ölçü sahəsindəki yüksəlişində böyük xidmətləri olan Mehmed Akif Ərsoy kimi şəxsiyyətin yaradıcılıq yolunu, onun poetik xüsusiyyətlərini, yaradıcılığının sənətkarlıq özəlliklərini tədqiqata cəlb etmək təşəbbüsü özü-özlüyündə təqdirəlayiq bir iş kimi qiymətləndirilməlidir. Böyük ideallarla, müqəddəs arzularla yaşamış, bir-birindən gözəl əsərlər meydana gətirmiş bu şairin ədəbi irsi türk bədii və fəlsəfi təfəkkürünü geniş imkanlarını nümayiş etdirməyə görə hərtərəfli və dərindən öyrənilməyə layiqdir. Monoqrafiyada müəllif şairin «Safahat» cildlərində (kitablarında) toplanmış «Çanaqqala şəhidlərinə»,

«Bülbül», «Haqqın səsləri», «Süleymaniyə kürsüsündə, «Fateh kürsüsündə», «Asim», «Ordunun duası» və s. əsərlərinin özəlliklərini əsas götürməklə araşdırmağa çalışmışdır.

F.ü.f.d. Səriyyə Gündoğdu M.Akifin poetik əsərlərini, vətənində və onun xaricində çoxsaylı araşdırmalarda əksini tapan bilgi və faktları dərindən öyrənmiş və öz mövqeyini gerçəklik baxımından ortaya qoymuşdur.

G.G.Səriyyə Mehmed Akif Ərsoy yaradıcılığının Şərq-türk poetik təcrübəsi ilə əlaqələrinə, vəzn və bədii təsir vasitələrinə diqqət yetirir, elmi, bədii qaynaqlar əsasında işləyərək əldə etdiyi bilgi, fikir və mülahizələrini üç fəsildə (fəsillər həm də bölmələrə ayrılır) şərh etmişdir.

Monoqrafiyada XIX əsrin sonu və XX yüzilliyin əvvəllərində Türkiyə ədəbi mühiti, ayrı-ayrı ədəbi qrup və cərəyanların fəaliyyəti nəzərdən keçirilir. M.A.Ərsoyun həyat yolu, onun yaradıcılığındakı forma, məzmun özəllikləri, poeziyasındakı bədii təsvir, dil və ifadə vasitələri kimi məsələlərə xüsusi ehtiyat və diqqətlə yanaşma, təhlil etmə və ümumiləşdirmə, fikri dəqiq faktlarla, misallarla təsdiq etmə də monoqrafiyanın keyfiyyət baxımından məzmunlu çıxmasına səbəb olmuşdur.

Müəllif Türkiyə ədəbiyyatında Mehmed Akif Ərsoyun rolunu, onun əsərlərinin ictimai-siyasi-fəlsəfi məzmunu və bədii dəyərini müəyyənləşdirərək, Türkiyə ədəbiyyatının və digər türk xalqları ədəbiyyatlarının sonrakı inkişafına öz təsirini göstərmişdir.

Monoqrafiyanın mövzusu – Mehmed Akif Ərsoyun yaşam və yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında və şərqşünas-

lığında geniş və ətraflı tədqiqat obyektinə çevrilmişdir. Şairin ədəbi, ictimai və fəlsəfi mövqeyini işıqlandırmaq zəmanəsinin sosial problemlərinə onun münasibətini aydınlaşdırmaq baxımından aktualdır. Müəllif araşdırmasında M.A.Ərsoyla bağlı Türkiyədə və Türkiyədən kənarda çap olunmuş materiallardan, ədəbiyyatşünas alimlərin nəzəri-estetik əsərlərindən yeri gəldikcə istifadə etsə də, başlıca diqqətini şairin öz əsərlərindən istifadə etməyə yönəldir. Mehmed Akif Ərsoyun fikir və düşüncələrindən bol-bol bəhrələnməyə üstünlük verir.

Monoqrafiyanın məzmunu mövzunu tamlıqla əhatələyir. Əsərin dili aydın, müəllifin apardığı elmi təhlillər, gəldiyi qənaətlər olduqca məntiqlidir.

Gündoğdu Səriyyə Gülağa qızı Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə geniş şəkildə aktual bir məsələnin araşdırılmasına həsr etdiyi «Mehmed Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü» adlı monoqrafiya XX əsr Türkiyə ədəbiyyatının öyrənilməsində, Azərbaycan-Türkiyə ədəbi və mədəni əlaqələrinin inkişafında sanballı elmi qaynaqlardan olacaqdır. Əsərdə irəli sürülən elmi fikirlər və söylənilən dəyərli mülahizələr buna hər cür əsas verir.

**Aydın ABIYEV**

filologiya elmləri doktoru, professor



# GİRİŞ

Zəngin mədəniyyətə malik olan hər bir millətin tarixində bəşəriyyətə şöhrət gətirən görkəmli fikir və sənət adamları olmuşdur. Türkiyə tarixində belə tanınmış şəxsiyyətlər çoxdur. Onlardan biri də 1873-1936-cı illər arasında yaşamış böyük türk şairlərindən olan Mehmed Akif Ərsoydur. O, Türkiyə tarixinin ən böhranlı dövründə yaradıcılığa başlamış, Osmanlı dövlətinin dağıldığı və Türkiyə Cümhuriyyətinin qurulduğu mürəkkəb bir zamanda formalaşmış, milli mücadilə illərinin canlı şahidi və iştirakçısı kimi zəngin yaradıcılıq yolu keçmişdir.

Şairin yaşadığı çağın ən mühüm siyasi, ictimai, sosial və mədəni problemlərini əks etdirən, qarışıq bir dövrə "şahidlik edən" "Safahat" (Mərhələlər) adlı kitabı ədəbiyyat tarixinin mühüm göstəricilərindən biri sayılır. Təsadüfi deyil ki, bəzi ədəbiyyatşünaslar bu əsəri dövrün ictimai-siyasi mənzərəsini bütün dolğunluğu ilə əks etdirən mənzum roman adlandırırlar.

Dövrün ictimai fikrini, milli təfəkkürünü öyrənmək, yenilikçi düşüncəni qiymətləndirmək, tədqiq etmək və bir miras kimi gələcək nəsillərə çatdırmaq baxımından Mehmed Akif Ərsoyun bu əsəri mühüm mənbədir.

Şair xalqının öndə gedən fəal nümayəndəsi olaraq, ölkəsinin və millətinin yaşadığı böhranları, acıları, zülmləri, dağıntıları dərindən hiss edən narahat bir vətəndaş kimi Qurtuluş mübarizəsinə qoşulmuş bir mübariz idi. O öz sənətini millətinin

dərdlərini anlatmaq və ona çarələr göstərmək üçün vasitə olaraq seçmişdi. Cəsarətlə demək olar ki, Türkiyə ədəbiyyatında yaşadığı dövrü onun qədər bütün təfərrüatı ilə görən və göstərən başqa bir şairin olduğunu söyləmək çətindir. Onun sənətkarlıq baxımından ən böyük əsəri sayılan "İstiqlal marşı" türk millətinin birlik və bütövlük qayəsini, milli mübarizənin ruhunu dərindən hiss etdirən qiymətli bir əsər kimi məşhurdur. Mehmed Akif Ərsoy heç bir əsər yazmasaydı belə yalnız "İstiqlal marşı" onu şöhrət zirvəsinə yüksəldərdi.

Şairin "Çanaqqala dastanı", "Bülbül" və s. əsərləri də bu baxımdan diqqət çəkir. Onun şeirlərində millətin duyğu və düşüncələri böyük sənətkarlıqla tərənnüm olunmuşdur. Maraqlı cəhətdir ki, o, millətinin dərdlərini, problemlərini görüb, öz əsərlərində əks etdirməklə kifayətlənməmiş, onun inkişafına, gələcəyinə və yaşantısına mane olan sosial məsələlərin də həllini böyük uzaqgörənliklə göstərməyə çalışmışdır. Şair: "Özümü millətimin hüzurunda gördüyüm gündən bəri sənətdən ziyadə cəmiyyəti düşünməyə başladım"- deyərək həyatını və sənətini bu fikir yolunda mübarizəyə həsr etmişdir.

Bədii əsər müəllifləri ədəbiyyat tarixindən göründüyü kimi, siyasi və sosial qarışıqlığın insanlara ciddi təsir etdiyi zamanlarda susmamış, cəmiyyətin düçar olduğu bəlaları əsərlərinə mövzusu olaraq seçmişdir. Belə hallarda hər millətin ədəbi mühitində olduğu kimi, Türkiyə ədəbi mühitində də müxalif ədəbi istiqamət və anlayışlar meydana gəlmişdir. "Sənət sənət üçündür" anlayışını müdafiə edənlər cəmiyyətdən uzaqlaşmış, fərdi duyğulara qapı-

laraq söz oyunlarına aludə olmuş, cəmiyyətin və millətin mühüm həyat problemlərindən ayrı qalmışlar. Mehmed Akif isə bu cür "şair"lərə qarşı çıxaraq onları tənqid hədəfinə çevirmiş, millətin ictimai-siyasi qovğalara düşdüyü, ağır bəlalarla üzləşib başını itirdiyi bir dönəmdə "güldən, çiçəkdən, eşqdən, məhəbbətdən bəhs etməkdənsə, ona yol göstərmək və yaralarına məlhəm sürtmək lazımdır," - düşüncəsi ilə hərəkət etməyi, fərdi, şəxsi duyğularını bir tərəfə atıb, millətin dərdini qələmə almağı üstün tutmuşdur. Onun fikrincə xəyallara qapılaraq gerçək həyatdan uzaq olan realist sənətkar duyğularını qələmə alarkən düşündüyü şey sözün inandırıcı, həqiqi və gərəkli olmasıdır. Bu baxımdan Mehmed Akif yaşadığı dövrdə duyğu və düşüncələrinin, sosial məsələlərin qabarıq şəkildə ortaya çıxarılmasını və həllini bədii-estetik çərçivədə ifadə edən usta bir şairdir.

Monoqrafiyanın mövzusu Osmanlı dövlətinin süqutu və Türkiyə Cümhuriyyətinin qurulduğu illərdə ortaya çıxan ictimai problemlərin Mehmed Akif Ərsoy yaradıcılığındakı bədii əksi ilə yanaşı, eyni zamanda, o dövrün siyasi və mədəni mühitinin bədii mənzərəsinin şərhi kimi mühüm tarixi və ədəbi əhəmiyyət kəsb edən aktual bir məsələyə həsr olunmuşdur.

Mehmed Akif, Türkiyə ədəbiyyatında böyük şöhrətə malik olmasına baxmayaraq, bu çağa qədər Azərbaycanda onun sənəti, yaradıcılığı, ədəbi şəxsiyyəti və mübarizəsi ilə seçilən bir şair kimi öyrənilməmiş, ədəbi və ictimai mühitdə yetərincə tanıdılmamışdır. O, burada daha çox "İstiqlal marşı" müəllifi və "Safahat"ın yaradıcısı kimi bilinməkdədir. Bunları nəzərə alaraq,

bu tədqiqat işində əsas məqsədlərdən biri Mehmed Akifin ədəbi fəaliyyəti, cəmiyyətin sosial problemlərini həll etməyə çalışan bir insan kimi ictimai xidmətləri haqqında müəyyən qədər geniş elmi təsəvvür yaratmaqdan ibarət olmuşdur.

XIX əsrin sonları XX əsrin əvvəllərində Türkiyənin ədəbi mühitindəki bir sıra sənətkarlardan ciddi şəkildə fərqlənən şair ömrünü millətinə həsr etmişdir. Bir vətəndaş kimi aydın və parlaq xarakteri, milli mövqeyi Mehmed Akifin sənət kredosu ilə üst-üstə düşürdü. Necə düşünür və necə hərəkət edirdisə, o cür də yazır, ağır keçid dönəmində milləti yanlış yollardan çəkindirməyə, doğru yola yönəltməyə çalışırdı. O, Avropanın gündən-günə irəliləməsinin sirlərini, Şərqin bir çox sahələrdəki geriliklərinin səbəblərini şeirlərində açıb xalqına göstərirdi.

Mehmed Akif türk xalqının adət-ənənəsinə, dininə, psixologiyasına və yaşadığı sosial problemlərə yaxından bələd olduğu üçün əsərləri də böyük təsir gücünə malik olmuşdur. O bütün Türkiyə gəncliyinə, vətənpərvər və ziyalı kütləsinə öz yaradıcılığı ilə ciddi şəkildə təsir göstərmişdir. Bununla yanaşı, şairin şöhrəti Türkiyə sərhədlərini aşmış və digər türk xalqları arasında, o cümlədən Misirdə, Suriyada da böyük nüfuz qazanmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, geniş xalq kütlələrinə böyük təsir göstərməkdə Mehmed Akifin "Safahat" adlı əsərinin mühüm rolu olmuşdur. Müəllif bu əsərində yaşadığı dövrdə baş verən hadisələri, problemləri poeziya dili ilə o qədər gözəl və təsirli bir şəkildə ifadə etmişdir ki, sanki bu günün problemlərini, çatışmayan cəhətlərini görüb yazmışdır.

"Safahat" külliyyatında şair xalqın üzləşdiyi yoxsulluq, xəstəlik və əsarət qarşısında duyduğu iztirablardan söhbət açır, bununla yanaşı, insanlara yardım etməyin, yaxşılığın və nikbin olmağın əhəmiyyətini və yollarını göstərir. O, eyni zamanda dini, adət-ənənələri, milli ruhu unudaraq Avropanı təqlidə çalışan ziyalıları, dərk etmədən bütün yeniliklərə qarşı çıxan cahil kütləni öz əsərlərində cəsarətlə tənbeh və tənqid edir. "Süleymaniyə kürsüsündə" adlanan ikinci kitabda müəllif əsas ideya və fikirlərini Süleymaniyyə camisində dini öyüdlər verən vaiz dostu Əbdürrəşid İbrahim Əfəndinin dilindən dövrün, cəmiyyətin gedişatındakı yanlışlıqların davam edəcəyi təqdirdə millətin başına gələcək fəlakətlərdən narahat olduğunu bildirir. "Haqqın səsləri" adlı üçüncü kitabda isə məzlumların halı və buna qarşı laqeydlik hissi "Tükürün, bəlki biraz duygu gəlir arımıza" şəklində tənqid edilir. Dördüncü kitabda – "Fateh kürsüsündə" şair millətin düşdüyü bütün dözülməz halların səbəbinin nadanlıq və tənbəllik olduğunu göstərir. Beşinci kitab olan "Xatirələr"də isə adından da göründüyü kimi, müəllifin xatirələri toplanmışdır. Burada da yenə mühüm sosial problemlərdən geniş bəhs olunur. Şair gəzdiyi ölkələrlə Türkiyəni müqayisə edərək gəldiyi qənaətləri diqqətə çatdırır. Şairin "Asım" deyə adlandırdığı altıncı kitabda Türkiyə gəncliyinin bir nümayəndəsinin timsalında xalqın işıqlı gələcəyi barədə duyğuları tərənnüm olunmuşdur. "Kölgələr" adlı sonuncu kitabda isə cəmiyyətin dərdləri və fəlakətlərinə qarşı müəllifin etiraz nidaları ifadə edilmişdir.

İlk kitabında "Ağlarım, ağlatamam, hiss ederim, söyleye-

mem...” deyə tərənnümə başlayan böyük şair son kitabını, yenə göz yaşları ilə yoğurulmuş vida misraları ilə bitirir:

Bırak, ben ağlayayım, sen çekil də karşımdan.
Bela mı kaldı ki dünya evinde görmediğim?
Bırak şu yaşları, hiç yoksa, görmeden gideyim! (36, 482)

Mehmed Akif Türkiyənin istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda ölüm-dirim savaşında həm qələmi və həm də silahı ilə ön sıralarda olmuşdur. O, arxa və ön cəbhələrdə millətin psixologiyasını yaxından öyrənmiş və buna görə də, üzləşdiyi problemlərin səbəbini aydın görə bilmişdir. Onun əsərləri özgələşməyin qarşısını almaq yollarını göstərən ən dəyərli istinad mənbələrindəndir. Odur ki, şair problemlərin həllini İslami və milli dəyərlərə istinad edərək ifadə etməyə çalışmışdır. Məhz bu səbəbdən də SSRİ məkanında Mehmed Akifin yaradıcılığının tədqiqi qadağan edilmişdir. Əsərlərinin kökündə İslami və milli dəyərlərin olmasına, haqqı həqiqət olduğu üçün çəkinmədən söyləməsinə görə sadəcə SSRİ-nin tərkibində olan dövlətlərdə deyil, öz vətəni Türkiyədə belə, onun haqqında yanlış dəyərləndirmələr aparılmışdır. Bəziləri onu “avam adamı ovundurmaq üçün əsərlər yazan birisi” adlandırıb, ədəbi sənətkar saymamış, bəziləri isə “güclü nəzm ustası, qabiliyyətli bir natiq, mənzum hekayəçi, əxlaqi və hikmətli mənzumələrin sahibi, bir fikir adamı” kimi qiymətləndirmişlər. Bu yönümdə ortaya çıxan yazılarda Mehmed Akif, ritorik fikirlər yayan, sənətkarlıq dəyəri

çox az olan, hətta zəif əsərlər yazan bir idealist olaraq da adlandırılmışdır. Lakin bu tədqiqatda şairin yaşadığı dövrün ədəbi mühit içərisində tutduğu layiqli yeri müəyyənləşdirməyə təşəbbüs göstərilmişdir.

Monoqrafiyada şairin qələmə aldığı sosial problemlər və onların həlli yolunda irəli sürdüyü fikir və ideyaları sistemləşdirərək göstərməyə və onun sənətkarlığı üzərində dayanaraq yuxarıda sadalanan yanlış fikirlərə aydınlıq gətirməyə səy göstərilmişdir. Monoqrafiyada sosial problemlərin bədii təcəssümü ilə yanaşı, şairin yaşadığı ictimai- ədəbi mühiti və ədəbi irsi öyrənilmişdir.

Mehmed Akif Ərsoy haqqında ilk tədqiqat işi onun sağlığında ortaya çıxmışdır. Bu, yazıçı Süleyman Nazifin "Mehmed Akif – şairin zatı və əsərləri haqqında bəzi məlumat və tədqiqat " adlı əsəridir. Tədqiqat ilk dəfə "Mehməd Akif – zatı və Əsərləri" adı altında "Sərvət-i fünun" məcmuəsinin 1919- cu il 31 iyul tarixli sayında dərc edilmişdir. Daha sonra, 1924-cü ildə həmin müəllifin İstanbulda eyni adlı kitabı nəşr edilmişdir.

İkinci əsər, şairin ölümündən sonra, yazıçı-şair Orxan Seyfi Orhon tərəfindən yazılmışdır. "Mehmed Akif; həyatı və əsərləri" adlanan bu tədqiqat 1937-ci ildə İstanbulda "Cümhuriyyət" mətbəəsində nəşr edilmişdir.

Mehmed Akif haqqında ən zəngin məlumatı tədqiqatçı alim Əşrəf Ədibin "Mehmed Akif; həyatı, əsərləri və 70 mühərririn yazıları" adlı iki cildlik kitabından almaq olar.

Əşrəf Ədibin bu əsərinin ikinci cildi 1939-cu ildə yenə İstanbulun "Asar-ı İlmiyye Kütüphanesi" (Elmi Əsərlər Kitabxanası)

nəşriyyatının “Burhanəddin mətbəəsi”ndə buraxılmışdır. Həmin il İstanbul Universitetinin Türkologiya fakultəsində Haqqı Güneyin olduqca dəyərli “Mehmed Akifdə deyimlər” adlı kitabı nəşr edilmişdir. Burada şairin əsərlərində işlənən atalar sözü və xalq deyimləri araşdırılmışdır. 1962-ci ildə İstanbulun “Yağmur” Yayınevi Faruq Qədri Timurtaşın “Mehmed Akif və cəmiyyətimiz” adlı monoqrafik əsərini buraxmışdır.

1963-cü ildə M. Camal Kuntayın İstanbulun “Ərcan” mətbə¬əsində “Nəcid çöllərində Mehmed Akif” adlı kitabı çıxmışdır. Əhməd Cərrahoğlunun “Bir İslam refarmatoru–Mehmed Akif” adlı əsəri 1964-cü ildə “İstanbul” mətbəəsində nəşr edilmişdir.

1968-ci ildə Prof. Dr. Əli Nihad Tərlanın “İstanbul” mətbəəsində ingilis dilində “Mehmed Akif His Life and Əorks” (Mehmed Akifin həyatı və yaradıcılığı) adlı əsəri çap olunmuşdur.

Mehmed Akif haqqında araşdırmalar bu gün də davam etməkdədir. Bu tədqiqatların çoxu jurnal səhifələrində məqalələr şəklində dərc olunur. Həmin məqalələrdə şairin yaradıcılığı müxtəlif aspektlərdən təhlilə cəlb edilir.

Yuxarıdakı qeydlərdən aydın olduğu kimi, Türkiyədə Mehmed Akif 1937-ci ildən bəri tədqiq olunmağa başlanmışdır. Buna baxmayaraq, Azərbaycanda sənətkarın həyat və yaradıcılıq yolu haqqında indiyədək ayrıca bir tədqiqat aparılmamışdır. Sovetlər birliyində ciddi anti-türk əhval-ruhiyyəli rejimə baxmayaraq, akad. H. Araslı, f.e.d. prof. P. Xəlilov, f.e.d. prof. A.Abıyev, f.e.d. prof A.Nəbiyev, f.e.d. prof. Q.Paşayev, f.e.d. prof. V.Arzumanlı, f.e.d. prof. A.Musayeva, f.e.d. prof. Ə.Cəfər, f.e.d. prof C.Nağıyeva,

f.e.d. prof. A.Babayev, f.e.d.prof. N.Araslı, f.e.d. prof. Ə.Rəsulov, f.e.d. prof. E.Quliyev, f.e.d J.Əliyeva, f.e.n. X.Quliyeva Qafqazlı, f.e.n. B.Osmanova, f.e.n. S.QAsımlı, E.Xəlilova və bir çox alimlər ayrı-ayrı türk xalqlarının ədəbiyyatlarını öyrənmiş və ya ədəbi əlaqələr baxımından elmi tədqiqat işləri aparmışlar. M. Akif də hər türkoloq alimin ürəyinin dərinliklərində yer tutmasına baxmayaraq, adının üstünə vurulan "Panislamist" damğası ona yaxınlaşmağı əngəlləmişdir. Yalnız bu tədqiqat işi aparılmağa başladıqdan üç il sonra, 2005-ci ildə türkiyəli yazar Abdullah Tüylü "Mehmed Akifdə sosial problemlər" adlı əsərini Azərbaycan dilinə çevirərək Bakıda çap etdirmişdir. Müəllif şairin həyatı və mühitinə geniş yer verməklə yanaşı, onun sosial problemlərə həsr etdiyi şeirlərini sənətkarlıq baxımından qiymətləndirməmiş, əsərlərinin ideya bədii keyfiyyətlərini araşdırmamışdır. Əsərlər daha çox məzmun baxımından işıqlandırılmışdır. Eyni zamanda, "bütün əsərləri" dediyi halda, şairin əsasən şeirlərinə diqqət yetirilmiş, məqalələri və tərcümələri tədqiqat obyektindən uzaqda qalmışdır. 271 səhifə həcmində olan kitabın 164-cü səhifəsindən sonra şairin öz əsərlərinin və onun haqqında yazılanların biblioqrafiyası, daha sonra şairin orijinal şeirlərindən seçmələr verilmişdir. Bu kitab elmi-ədəbi təhlil baxımından zəif olmasına baxmayaraq, M. Akifi Azərbaycanda tanıtmaq baxımından təqdirə layiqdir.

Son dövrlərdə Beynəlxalq Sempoziumlarda f.e.d. prof M.Hacıyevanın, f.e.d. prof E.Quliyev, L.Əsgərzadə və başqaları M.Akifin istiqlal ruhunu təhlil edən məruzələrlə çıxış etmişlər.

Bu monoqrafiyada Mehmed Akif Ərsoyun "Safahat" kitabına daxil olan və eyni zamanda həmin nəşrə düşməyən ictimai məzmunlu şeirləri, mənzumələri, xatirələri, "Sırat-ı Müstəqim", "Səbilür-rəşad" çıxan məcmuələrində məqalələri tədqiqat işinin obyekt və predmetinə çevrilmişdir. Eyni zamanda, müxtəlif illərdə Türkiyədə onun haqqında çıxan ədəbi-tənqidi məqalələr və tədqiqat əsərləri də bura daxildir. Bütün bunlar şairin yaşadığı dövrün ictimai-siyasi hadisələri fonunda tədqiq olunmuşdur.

Tədqiqat işinin başlıca məqsədi, adından aydın olduğu kimi, Mehmed Akif Ərsoyun yaradıcılığında sosial məsələlərin və onların həllinin sistemli şəkildə göstərilməklə yanaşı, bu problemin bədii ifadəsinin araşdırılması, şairin əsərlərinin ideya, məzmun xüsusiyyətlərini türk ictimai fikrinin və ədəbiyyatının işığında aşkara çıxarmaqdır. Mehmed Akif yaradıcılığını sosial problemlər kontekstində öyrənmək üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

– XIX yüzilliyin sonu XX yüzilliyin əvvəllərində sosial problemlər burulğanı içərisində olan Türkiyənin siyasi və ədəbi mənzərəsini vermək;

– Mehmed Akifin "Safahat" və "Safahat"a daxil olmayan şeirlərini, məqalələrini mövzu və problematikasına görə qruplaşdırıb təhlil etmək;

– Şairin şeirlərinin mövzu və problematikasının mahiyyətini dəyərləndirmək;

– Türk xalqının elmi, mədəni, iqtisadi və siyasi sahələrdəki inkişafında M. Akifin şair və mütəfəkkir kimi xidmətlərini

göstərmək;

– Mehmed Akifin sadəcə idealist və mütəfəkkir deyil, həm də böyük söz ustası və sənətkar olduğunu elmi dəlillərlə sübuta yetirmək;

– Şairin ədəbi irsinin təsir dairəsini müəyyənləşdirmək;

– Ayrı-ayrı əsərlərində öz əksini tapan sosial problemləri aşkara çıxarmaq;

– Bütün bunlarla yanaşı, yeddi kitabdan ibarət olan "Safahat" haqqında da ayrı ayrılıqda məlumat vermək.

Əsərin elmi yeniliyi ilk növbədə onunla şərtlənir ki, Azərbaycan ədəbiyyatşünaslığında, o cümlədən Azərbaycan şərqşünaslığında Mehmed Akif yaradıcılığı ilə bağlı indiyədək ayrıca elmi tədqiqat işi aparılmamış, ictimai və sosial problemlərin poetik əksi təhlilə cəlb edilməmişdir. Bu dissertasiya işində ilk dəfə olaraq, şairin yaradıcılığı onun yaşadığı dövrün ictimai-siyasi prosesləri fonunda elmi şərhini tapır. Burada bütövlükdə sənətkarın türk ictimai fikrində və türkologiyadakı böyük və əhəmiyyətli yeri müəyyənləşdirilmişdir.

Tədqiqat bir çox cəhətdən elmi əhəmiyyətə malikdir ki, bunlar aşağıda qeyd olunur:

– tədqiqat işinin müddəaları XIX əsrin sonu XX əsrin əvvəllərində Türkiyənin yaşadığı sosial, iqtisadi, elmi və mədəni problemlərinin araşdırılmasında və Mehmed Akif Ərsoyun yaradıcılığının hərtərəfli öyrənilməsində;

– ictimai-siyasi proseslərdə bədii ədəbiyyatın funksiya və rolunun müəyyənləşdirilməsində;

– vətəndaş şair və görkəmli sənətkar kimi Mehmed Akif Ərsoyun bədii yaradıcılığının ictimai təsir gücünün müəyyənləşdirilməsində, onun sənətinin dəyərləndirilməsində bir mənbə kimi istifadə oluna bilər.

Həmçinin tədqiqat işi ali məktəblərin şərqşünaslıq və filologiya fakültələrində tədris prosesində, seminar məşğələlərin keçirilməsində, habelə mühazirələrin oxunmasında elmi material kimi faydalıdır.

# I FƏSİL. ƏDƏBİ-İCTİMAİ MÜHİT VƏ MEHMED AKİF ƏRSOY

Ədəbi şəxsiyyətləri yaxından tanımaq və əsərlərini mənimsəmək üçün onların yaşadıqları dövrün tarixini və ictimai-siyasi mühitini öyrənmək vacibdir. Çünki bütün şair və yazıçıların, mütəfəkkirlərin ideya və düşüncələri daha çox yaşadıqları dövrlə bağlı olur. Bəzi yazıçıların əsərləri yaşadığı cəmiyyətin sosial və siyasi problemlərini əks etdirdiyi üçün öz dövrünün aynası hesab edilmişdir. Mehmed Akif də belə ədiblərdəndir. Onun əsərlərini oxumaqla dövrünün ictimai-mədəni səviyyəsi barədə tam təsəvvür əldə etmək mümkündür. Digər tərəfdən yazıçının yaşadığı dövrün ədəbi-ictimai, siyasi və sosial problemlərini bilmədən bu əsərlər haqqında müəyyən qənaətə gəlmək çətindir. Ona görə də, şairin həyatını, şəxsiyyətini, əsərlərini, sənətini dövrün ictimai və sosial-siyasi problemləri ilə birlikdə öyrənmək vacibdir.

Mehmed Akif Osmanlı imperiyası kimi nəhəng bir dövlətin çöküşə doğru sürətlə getdiyi, vətənin parçalanıb bölündüyü, müqəddəs torpaqların işğal edildiyi, əhalinin ehtiyac və istismar içində çırpındığı bir dövrdə yaşamışdır. Qərb dövlətləri Şərq-islam mədəniyyətindən və elmindən aldığı biliklərə əsaslanaraq sürətlə inkişaf edib, elm və texnika sahəsində Osmanlı imperiyasını xeyli geridə qoymuşdu. Bu tərəqqini çox gec başa düşən Osmanlı imperiyasının dövlət adamları və ziyalıları "Avropadan nəyin və necə alınması" sualı qarşısında aciz idilər. Çıxış yolu kimi qəbul edilən qərarlar, verilən fərmanlar isə nəticə etibarilə özünü doğrultmadı. 1839 və 1856-cı illərdə qəbul edilən İslahat fərmanları buna misal ola bilər.



## 1.1. Həyatı və ədəbi- ictimai mühiti

Böyük vətənpərvər, mütəfəkkir, əxlaq nümunəsi və türk dünyasının görkəmli sənətkarı Mehmed Akif Ərsoy 1873-cü il dekabr ayında İstanbulun Fatih səmtinin Sarıgözəl məhəlləsində dünyaya göz açmışdır. Rəsmi sənədlərdə doğulduğu yer Çanaqqalanın (Sultaniyyə qalası) Bayramiç qəsəbəsi göstərilmişdir. Bu isə Mehmed Akifin atasının dini işlərlə əlaqədar olaraq oraya (Bayramiçə) təyin edılməsi ilə bağlı idi. Mehmed Akif haqqında yazılan bütün bioqrafiya və xatirələrdə isə onun anasına aid olan Sarıgözəldəki evdə doğulduğu, uşaqlıq və gənclik illərinin bu evdə keçdiyi qeyd edilmişdir.

Atası, oğluna əbcəd hesabı ilə doğum tarixini göstərən "Raqıf" adını qoymuş, amma adının söylənməsi çətinlik törətdiyi üçün zamanla Akif şəklində tələffüz edilmişdir.

M. Akifin anası Əminə Şərifə xanım əslən Buxaralı olub, Tokata köçmüş bir ailənin qızıdır. Oğlunun təlim və tərbiyəsində böyük rolu olan atası Tahir Əfəndi isə əslən Arnavutludur (Albaniyalıdır). "Təmiz" ləqəbi ilə tanınan Tahir Əfəndi yüksək dərəcədə mədrəsə təhsili görmüş və dövrünün din alimləri içində xüsusi yeri olan şəxsiyyətlərdən biri idi. Tahir Əfəndi oğluna islami bilgilərlə yanaşı, ömrünün son gününə qədər ərəbcəni, farscanı və bir çox başqa elmləri öyrətmişdir. Belə ki, M.Akif "Safahat" əsərindəki mənzumələrin birində "atam Fatih mədrəsəsi müəllimlərindən mərhum İpəkli Tahir Əfəndidir ki, mənim həm atam, həm də müəllimim olmuşdur. Bu günə gədər öyrəndiklərimə görə ona

borcluyam"-deyərək özünün formalaşmasında atasının rolunu yüksək qiymətləndirmişdir.

İlk təhsilini Fatihdə yerləşən ibtidai məktəbdə alan Mehmed Akif daha sonra Mərkəzi Fatih Rüşdiyyəsinə yazılmış və burada dövrün tanınmış müəllimlərindən dərs almışdır. Həmin müəllimlərin arasında Mehmed Akifin bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan Qədri Əfəndi də vardı. O, Akifə hər sahədə nümunə olmuşdur. Belə ki, onun elm və əxlaqına heyran qalan M.Akif açıqfikirli, hürriyyət sevdalı bir islamçı olmasından da çox təsirlənmişdir.

Mehmed Akif rüşdiyyədəki tələbəlik illərində türk, ərəb, fars və fransız dillərinə maraq göstərmişdir. Rüşdiyyə təhsili ilə paralel olaraq "Quran"ı da əzbərləməyə çalışmışdır. Selanikli Əsəd Dədədən fars, müəllimi Xalis Bəydən isə ərəb dilini öyrənmişdir. Ədəbiyyata böyük sevgisi olan Mehmed Akif Şirazlı Hafizin "Divan"ını, Sədinin "Gülüstan"ını, Mövlananın "Məsnəvi"sini, Füzulinin "Leyli və Məcnun"unu oxumuşdur.

Mehmed Akif daha sonra, "Mülkiyyə İdadisi"nə (liseyə) daxil olmuşdur. Bu məktəbin yuxarı sinifində oxuduğu zaman, 1888-ci ildə atası vəfat etmişdir. Həmin il Fatihdə baş verən böyük yanğında Sarıgözəldəki evləri yanmışdır. Belə bir ağır şəraitdə Mehmed Akifin liseydə oxuması çətinləşmişdir. O, yeni açılmış "Mülkiyyə Baytar İnternat Məktəbi"nə daxil olmuşdur. Məktəbin iki illik internat dövrünü Halkalıda (İstanbulda inzibati rayon adı) oxuyan M.Akif çox çalışqan bir şagird kimi 1893-cü ildə məktəbi müvəffəqiyyətlə bitirmişdir. Mehmed Akif baytarlıq məktəbini

bitirdikdən sonra əmək fəaliyyətinə başlamışdır. İlk vəzifəsi Kənd Təsərrüfatı Nazirliyi Baytarlıq şöbəsində (Ziraat Nazareti Umur-ı Baytariye) müdir və Heyvandarlıq işləri üzrə baş müfəttiş müavini (İslah-ı Hayvanat Umum Müfettiş Özel Kalemi) olmuşdur.

Mehmed Akif 1898-ci il sentyabr ayının 1-də məmurluğa başladıqdan bir il sonra 25 yaşında ikən Topxana əmirinin xəzinədarı Mehmed Emin bəyin qızı İsmət xanım ilə evlənmişdir. Dövrünün bütün elmlərindən xəbərdar olan İsmət xanım kübar bir ailədə böyüyüb, tərbiyə almışdır. Bu izdivacdan onların 6 övladı dünyaya gəlmiş, fəqət beşi sağ qalmışdır. (Üç qız – Cəmilə, Fəridə, Suad və iki oğul - Emin, Tahir). Belə ki, ailənin üçüncü övladı - İbrahim Naim uşaqkən (1-2 yaşlarında) vəfat etmişdir.

M.Akif, fasilələrlə Ədirnə və Adana daxil olmaqla, ölkənin uzaq əyalətlərində: Anadolu, Rumeli və Ərəbistanın müxtəlif qəsəbə və kəndlərində yoluxucu xəstəliklərə qarşı mübarizə aparmışdır. İşlədiyi müddət ərzində isə xalqın, xüsusilə də yoxsul kəndlilərin məişəti ilə yaxından tanış olmaq fürsəti əldə etmişdir. 1907-ci ildə İstanbulda (Halkalıda) müəllimlik etmiş, 1908-ci ildən sonra isə baytarlıq sahəsindəki fəaliyyətini davam etdirməklə yanaşı, Darülfünunun Ədəbiyyat şöbəsində Osmanlı ədəbiyyatından dərs demişdir. Həmin illərdə “İttihad və Tərəqqi” Cəmiyyətinin Şahzadəbaşındakı elm mərkəzində (İlmiye Mahfil) ərəb ədəbiyyatından dərs demiş, Fatih, Bəyazid, Süleymaniyyə məscidləri kürsülərindən dini və ictimai müxtəlif mövzularda çıxışlar etmişdir. 1913-cü ildə o, Rəcaizadə Mahmud Əkrəm, Əbdülhəq Hamid, Süleyman Nazif, Cənab Şəhabəddinlə bərabər

“Mudafaa-ı Milliye Heyeti Neşriyat Şubesi”ndə (Nəşriyyat heyətinin milli müdafiə şöbəsi) işləmişdir. Bu şöbənin məqsədi xalqı ədəbiyyat vasitəsi ilə oyatmaq və maarifləndirmək idi.

1914-cü ilin əvvəllərində Mehmed Akif Misir və Mədinəyə iki aylıq səyahət etmişdir. Burada o, Kənd Təsərrüfatı Nazirliyinin Baytarlıq şöbəsində (Umur-ı Baytariye) müdir müavini vəzifəsində çalışmışdır. Bir-birinin ardınca baş verən Balkan faciələri, yaxınlaşmaqda olan yeni bir müharibənin - I Dünya Müharibəsinin təhlükəsi, dövlətin daxilində baş verən qarışıqlıqlar onu vətən xidmətində daha fəal vəzifələrdə işləməyə məcbur etmişdir. Həmin dövrdə vətənin qorunması üçün mühüm və gizli işlər aparan “Təşkilati-mahsusa” adlı təşkilat yaradılmışdı. Hərbi işlərə nəzarət funksiyasını yerinə yetirən bu təşkilatda fədakar və vətənpərvər şəxslər arasında Mehmed Akifə də vəzifə verilmişdi. O, 1914-cü ildə bu təşkilatın tapşırığı ilə Berlinə, 1917-ci ildə isə Şərif Hüseynin rəhbərliyi ilə başlayan üsyanı yatırmaq üçün Ərəbistana göndərilmişdir. Mehmed Akifin bu səyahətləri Türkiyə ədəbiyyatına üç böyük mənzumə qazandırmışdır. Dini-milli lirizmin ən gözəl nümunələri olan bu üç mənzumə 1917-ci ildə nəşr edilmiş “Safahat”ın beşinci kitabı olan “Xatirələr”in böyük bir hissəsini təşkil edir. “Əl-Uksurda” başlıqlı mənzumə Misir və Mədinə, “Berlin xatirələri” isə Berlin səyahətlərini əks etdirir.

M. Akif 1918-ci ildə Şeyxülislamlığın qurduğu “Darü’l-Hikmet-i İslamiye Cemiyeti” (Yüksək İslam Cəmiyyəti) adlı müşavirə heyətinə baş katib təyin edilmiş, bu vəzifəni davam etdirmək üçün 4 fevral 1920-ci ildə həmin cəmiyyətə üzv se-

çilmişdir. Müharibənin Osmanlı dövlətinin əleyhinə nəticələnməsi, torpaqların işğal təhlükəsi, ağır sülh şərtləri M. Akifi bu dəfə Anadoluda başlayan milli hərəkata qoşulmağa vadar etmişdir. O, 1920-ci ilin fevralında da Balıkəsirə gedərək, milli azadlıq hərəkatının liderləri "Kuvayı Milliye" (Milli qüvvələr) ilə əlaqəyə girmiş, Zağanos Paşa məscidində ölkənin azadlığı üçün çıxışlar edərək xalqı mübarizəyə və orduya yardım etməyə çağırmışdır. Bütün bu hadisələrdən qorxuya düşən Şeyxülislamlıq onu üzvlükdən və tutduğu baş katib vəzifəsindən azad etmişdir.

Bundan sonra, Mehmed Akif milli azadlıq hərəkatının fəal iştirakçısı olmuşdur. Ürəyi Anadoluda olsa da, İstanbulda qalıb, yalnız çıxışlar və yazılarla bu mübarizəyə dəyərli töhfə verəcəyinə inanmırdı. O, vətənin bu dar günlərində tamaşaçı mövqeyində dayana bilmirdi. Ona görə də o, 1920-ci ilin oktyabr ayında İstanbul işğal edilincə millətin ümid yeri olan "Sebilür-rəşad" (İşıqlı Yol) məcmuəsinin nəşrini dayandırmamaq üçün yaxın dostu Əşrəf Ədib və oğlu Eminlə birlikdə Üsküdar – Ələmdağı yolu ilə Qaradənizə, oradan da İnəboluya getmiş, 9 oktyabrda Kastamonudakı Nəsrullah məscidində kəskin çıxış etmişdi. Mehmed Akif müstəqillik mücadiləsi tarixində əhəmiyyətli rol oynayan bu çıxışında Osmanlı dövlətinin düşdüyü vəziyyəti izah etmiş, Sevr müqaviləsinin dövlət üçün ağır bir sonluqla nəticələnəcəyini bildirmişdir. Çıxış yolunu Şərqə "mədəniyyət" maskası altında gələn Qərb müstəmləkəçiliyinin qarşısına iman və silahla çıxmaqda görmüşdü. Bütün bunları məntiqli və həyəcanlı bir şəkildə etmiş, bəzən şairanə ifadələr, hətta şeirləri ilə anlatmağa çalışmışdır. Bu

çıxış o zamanlar Ankarada nəşr edilən "Sebilür-rəşad" jurnalında çap olunmuş, ölkənin hər tərəfinə sürətlə yayılmış, minbər və kürsülərdə təkrar-təkrar oxunmuşdur. Müstəqillik uğrunda xalqın və ordunun böyük bir sevgi naminə səfərbər olmasında Mehmed Akifin bu və bundan sonrakı çıxış və yazılarının böyük rolu olmuşdur.

Mehmed Akif Ankaraya gəldiyi zaman artıq Konyada milli qüvvələrinin yaranmasına qarşı etirazlar başlamışdır. Üsyanın yatırılması üçün Konyaya əsgəri birliklər cəlb edilirdi. Onlara qoşulan Məclis heyəti içində Mehmed Akif də var idi. Onun təsiredici çıxışları burada da xalqı ayağa qaldırmış, üsyançıları birləşməyə səsləmişdi. 25 dekabr 1920-ci ildə Ankaraya qayıdan M. Akıf Burdur və eyni zamanda da Bolu millət vəkili olaraq Türkiyə Böyük Millət Məclisinin iclasında iştirak etmişdir. Eyni vaxtda iki bölgədən millət vəkili olmaq Türkiyə Böyük Millət Məclisi tarixində ilk və yeganə hadisədir.

1920-ci ilin son aylarında Maarif Nazirliyi milli marş mətni üzrə müsabiqə elan etmişdi. Nəzərdə tutulan müddət başa çatsa da, arzu olunan şeir ortaya çıxmamışdı. Bu səbəbdən, müsabiqənin müddəti bir qədər də uzadılmışdı. Bu işə başçılıq edən Həmdullah Sübhi bəy xüsusi bir yazı ilə Mehmed Akifin də müsabiqəyə qatılmasını xahiş etmişdi. Bu tarixə qədər, bəzi bənd (qitə) və misralarını dostlarına zaman-zaman oxuduğu "İstiqlal marşı" beləcə tamamlanmış və müsabiqənin sonunda müəllifinə birincilik qazandırmışdır. Beləliklə, həmin şeir 12 mart 1921-ci ildə Böyük Millət Məclisində "Milli Marş" kimi millət vəkilləri

tərəfindən alqış sədaları altında yekdilliklə qəbul edilmişdir.

Mehmed Akif Birinci Böyük Millət Məclisində müxalifət qrupu içində yer almışdır. Buna görə də müstəqillik mücadiləsinin sona çatmasından sonra, yenidən çağırılan İkinci Məclisdə artıq millət vəkili deyildi. Yeni hökümət Mehmed Akifin tərəfdar olduğu İslam Birliyini deyil, qurduğu dünyəvi dövlət prinsiplərinə uyğun şəkildə hərəkət etməyi düzgün hesab edirdi. Akif bu ümidsizlik və bədbinlik içində 1923-cü ildə Abbas Halim Paşanın dəvəti ilə Misirə getmiş və qışı orada keçirmişdir. Təqib olunduğu bir neçə il ərzində, yaz fəslini İstanbulda, qışı Misirdə qaldıqdan sonra, 1925-ci ilin oktaybr ayından etibarən həmişəlik bu ölkədə məskən salmışdır. O, Qahirə Üniversitetində türk ədəbiyyatı dərsləri demiş və şəhərin ucqar bir guşəsində – Hilvanda qalmışdır. Bir tərəfdən də "Diyanət İşləri" (Dini İşlər) müdirliyi tərəfindən şərhi Elmalılı Hamdi Yazara tapşırılmış "Qurani-Kərim"in tərcüməsi üzərində çalışmışdır. 1935-ci ildə istirahət üçün getdiyi Livanda qızdırma xəstəliyinə yoluxaraq geri dönən Mehmed Akifin xəstəliyi ilin sonuna doğru ağırlaşmışdır. Misirdə yaşadığı müddət ərzində vətən və millət həsrəti Mehmed Akifin ürəyini parçalamış, amansız xərçəng xəstəliyi vücudunu gündən günə zəiflətmişdi. Tutulduğu xəstəliyin dərmanı olmadığını, sonunun ölüm ilə nəiticələnəcəyini yaxşı bilən Mehmed Akif son nəfəsdə doğma torpağına qovuşmaq üçün 1936-cı ilin iyun ayında Türkiyəyə yola düşmüşdür. Çünki Vətən topraqlarından uzaqda ölmək onu qorxutmuş, İstanbula geri döndüyü zaman "Xəstə" şeirində təsvir etdiyi kimi, bir "sümük yığını" halına düş-

müşdür. Son günlərini İstanbulda keçirən şairi hər gün sevənləri ziyarət edirdi. Avazla oxunan "Quran" səsini sevdiyi üçün hafizlər yanına gəldikləri zaman həmişə "Quran" oxuyardılar. O, ömrünün son günlərini ilahi kəlamlar dinləməklə keçirmişdir. Akif Ələmdağında Səid Hilmi Paşanın mülkündə, bəzən də Nişandaşı Sağlamlıq mərkəzində müalicə olunsa da, vəziyyəti get-gedə ağırlaşırdı. Nəhayət, vədə tamam olmuş və təkrarolunmaz misraların ulu sahibi Mehmed Akif Ərsoy 27 dekabr 1936-cı ildə İstanbul Bəyoğlundakı Misir Binasında "Çanaqqala" və "Milli mücadilə" qəhrəmanlarının diyarına əbədi yola düşdü. Şairin cənazəsi ilə maraqlanmayan hökumət, hətta onun ölüm xəbərini belə bildirməmişdi. Qədirbilən türk gəncləri Akifin cənazəsini müsəlman adəti ilə əlləri üstündə son mənzilə yola saldılar.

Böyük türk övladı vəsiyyət etdiyi kimi, Ədirnəqapı qəbristanlığında çox sevdiyi Babanzadə Əhməd Naim bəyin yanında dəfn edildi. Türk yazıçısı Fəthi Təvətoğlu "Bayrağa sardığım bir şair" adlı məqaləsində yazmışdır ki, onun Cənabı-Haqqa son niyazı bu misralar olmuşdur:

Şu serilmiş görülen gölgeme imrenmedeyim:
Ne saadet. Hani? Ondan bile mahrumum ben,
Daha bir müddet eminim bu hayatın yükünü
Dizlerim titreyerek çekmeye mahkumum ben,
Çöz de Ya Rab, yükümün kör düğüm olmuş bağını
Bana çok görme nihayet bir avuç toprağını... (90, 66)

M.Akifin yaşadığı dönəmə nəzər saldıqda önəmli tari-

xi hadisələrlə qarşılaşırıq. Şairin uşaqlıq dövrünə təsadüf edən 1876-cı il hadisələri, II Əbdülhəmidin hakimiyyətə gətirilməsi, bir-birini əvəz edən Balkan üsyanlarının vüsət alması,baş verən hər üsyanın böyük imperyanın torpaqlarının parçalanmasına, itirilməsinə, bütün bunların əhalinin dözülməz çətinliklərlə qarşılaşmasına səbəb olması, balaca Akifi hələ o zamandan düşündürməyə başlamışdır.

II Əbdülhəmidin hakimiyyəti illərində təhsil və maarif sahəsinə diqqət artırıldı, ölkədə əmin-amanlığın bərqərar olması yolunda islahatlar aparılırdı. Ölkədə baş verən üsyanların qarşısını almaq üçün dövlət hər sahədə nəzarəti gücləndirirdi. Ən kiçik yalnışlığın ağır nəticələr verə biləcəyindən qorxurdu. Bütün xalq bu narahatçılıq içərisində yaşayırdı.

II Məşrutiyyətin hakimiyyəti ələ alması hər kəsi çox sevindirmişdi. Fəqət bu uzun sürmədi. II Məşrutiyyətdən, yəni 1908-ci ildən sonra, siyasi hadisələr sürətlə inkişaf etməyə başlamışdı. Avstriyanın Bosniya-Hersoqaviniyanı işğalı, Giritin (Kritin) Yunanıstana qatılması, Bolqarıstanın imperiyadan ayrılması, Adanada baş verən qanlı erməni üsyanları “İttihad və Tərəqqi”nin, “İttihad-ı anasır“– yəni, müxtəlif xalqların birləşdirilməsi fikrini puç etmişdi. II Əbdülhəmidin hakimiyyətinə son vermək üçün erməni və Balkan üsyançılarından faydalanan və Balkanlardakı xristian xalqı ilə öz aralarındakı problemləri kilsə qanunları ilə həll edən “İttihad və Tərəqqi” nifaq salan bu ünsürləri müxalif qüvvə qismində görürdü. Arnavutların üsyanı, Balkan savaşı böyük iztiraba səbəb olmuşdu. Bolqarların Ədirnəyə girməsi

ilə əlaqədar aclıq və səfalət çəkən minlərlə türk ailəsi İstanbula üz tutmuşdu. Xarici hücumlarla bərabər, ölkə daxilində də parçalanma prosesi gedirdi. Ordunun məğlubiyyətlərindən şəxsi ambisiyaları üçün istifadə edənlər əsgərlərin mənəviyyatını, birliyini pozmaq məqsədilə təbliğat aparırdılar. Buna misal olaraq Ədirnənin müdafiəsində iştirak edən Mehmed Şükrü Paşanı, "İttihad və Tərəqqi"nin nümayəndələrini göstərmək olar. Bu təbliğatçılar əsgərləri düşmənlə savaşmağa təşviq edir və uğrunda vuruşduqları torpaqların bilavasitə onların vətənləri olmadığını söyləyib bu yolda boş yerə həlak olmamalarını təlqin edərək qarışıqlıq yaradır, ortalığa vəlvələ salırdılar." (31, 392)

Xronoloji olaraq davam edən daxili çəkişmələr, yeni yaradılan partiyalar, əslində yeni parçalanmalara səbəb olurdu. Bununla yanaşı Balkan müharibəsinin ardından I Dünya Müharibəsinə sürüklənən Türkiyə torpaqlarını və minlərlə vətəndaşını itirdi.

Qərbin sakitləşmək bilməyən etirazları gücləndikcə İmperiyanın süqutunu reallaşdırmaqla yanaşı, minillik türk yurdu olan Anadolunun yadellilər tərəfindən işğalına gətirib çıxarırdı. Vəziyyət getdikcə gərginləşir, vətəni müharibə dəhşətləri bürüyür¬dü. Lakin çəkilən iztirablar və məhrumiyyətlər nə qədər ağır olsa da, türk millətini ruhdan salmadı, əksinə, mübarizə ruhunu daha da alovlandırdı. Liderinin ardınca gedən xalq istiqlal eşqi və iman şövqü ilə bütün ağır və mənfi şərtlərə baxmayaraq, yeni bir dövlət qurdu.

Mehmed Akifin yaşadığı dövrün ictimai-siyasi mənzərəsini tamamlamaq üçün ədəbi mühitə də nəzər salmaq lazımdır.

Sössüz ki, baş verən siyasi dəyişikliklər ölkənin ədəbi-mədəni həyatına da öz təsirini göstərmişdi. Hələ XX yüzilliyin başlarında (1901-ci ildən etibarən) ifrat senzura nəzarəti mədəniyyətə ədəbi fəaliyyətin bütün sahələrinə nəzərə çarpacaq dərəcədə sirayət etmişdir. Mətbuat səhifələrində ədəbi mübahisələrə son qoyulmuşdur. Böyük ədəbi-tənqidi məcmuə olan "Sərvət-i fünun"(Fənlər xəzinəsi) bağlanmış, bir qrup türk yazıçısı mühakiməyə məruz qalmışdı. Artıq 1908-ci ildən "İttihad və Tərəqqi" hakimiyyəti ələ almışdı.

Tədqiqatçı İsmayıl Həbib "Tənzimat dövründən sonrakı ədəbiyyat tarixi" adlı kitabında qeyd edir ki, 23 iyul 1908-ci il hadisəsindən sonra bütün ölkədə azadlıq ideyası hökm sürürdü. Əvvəllər senzuranın qadağan etdiyi əsərlər çap olunmağa başladı. Namiq Kamal, Əhməd Midhət, Hüseyin Rəhmi, Əhməd Ra¬sim kimi ədiblərin əsərləri milli ideologiyanın inkişafını gücləndirirdi.

Yeni nəslin və yeni düşüncənin ədəbi orqanı olan "Fəcri-ati" (Sabahın şəfəqi) cavan və yaşlı ədiblərin konsolidasiyası üçün səy göstərirdi. Lakin xüsusi təbəqə üçün nəzərdə tutulduğundan "Fəcri-ati" qrupunun fəaliyyəti çox çəkmədi. Çünki bu qrup Qərbin güclü təsiri altında idi və əsasən də salon ədəbiyyatı nümunələrinin yazılması və təbliği ilə məşğul idi. Bir sözlə onların yazıları geniş oxucu kütləsi üçün nəzərdə tutulmamışdı. Həmin dövrü səciyyələndirən Xalid Ziya "Qırx il" əsərində qeyd edir ki, XX əsrin başlanğıcında ədəbiyyatda heç bir yenilik yox idi. Güman etmək olardı ki, uzun zaman azadlıq gözləyən yazıçılar,

nəhayət onu əldə etdikdən sonra, yeni-yeni əsərlər yaradacaqlar. Amma bunun əksinə olaraq yazıçılar çox süst və hadisələrə münasibətdə də çox ehtiyatlı görünürdülər. Özlərini arzuolunmaz hadisələrdən qorumaq üçün onlar aktiv fəaliyyətdən uzaqlaşmış, aktual mövzulardan yayınmışdılar. Qələmə aldıqları hadisələr müasir olsa da, Türkiyə həyatından kənar idi və ondan çox-çox uzaqlarda cərəyan edirdi. Ölkədə hər yer od tutub yandığı halda, millət səfalət içində süründüyü bir dövrdə "Fəcri-ati" qrupunun görkəmli nümayəndəsi Əhməd Haşim öz xəyal aləmində səyahət edir, "O belde"də dolaşırdı. Sanki ətrafında baş verənlər ona aid deyildi.

Görkəmli rus alimi, şərqşünas V.A.Qordlevski "Очерки по новой оттоманской литературе" (Yeni Osmanlı ədəbiyyatına dair oçerklər) əsərində həmin dövrdə Türkiyədə, həqiqətən də, ədəbi tənəzzülün mövcud olduğunu bildirir. O yazırdı ki, "11 iyul 1908-ci ildə Türkiyədə Konstitusiya bərpa olunduqdan sonra ədəbi əsərlər əvəzinə sönük yazılar yağışdan çıxan göbələklər kimi çoxalmışdı və bu yazılar yalnız maklaturaya yarayırdı, onların ədəbiyyatla heç bir bağlılığı yox idi." 106, 434)

Lakin vəziyyət V.A. Qordlevskinin qeyd etdiyi kimi ifrat dərəcədə də deyildi. Cəmiyyətdə baş verən dəyişiklik zəif də olsa, ədəbiyyatın inkişafına təkan verirdi. Müxtəlif ədəbi cərəyanların türk ədəbiyyatına təsiri də açıqca duyulmaqda idi.

L. Alkayevanın qeyd etdiyi kimi "Fəcri-ati qrupu "Sərvət-i fünun" ədəbi qrupunun ənənəsini dirçəltmək istəsə də, məqsədinə nail ola bilmədi. (104, 23)

Lakin "Fəcri-ati" qrupuna daxil olan Əhməd Haşim, Yəhya Kamal, Cənab Şəhabəddin, Cəlal Sahir, Yaqub Qədri kimi sənətkarlar "Sanat şahsi ve muhteremdir" (Sənət şəxsi və möhtərəmdir) anlayışına sədaqət nümayiş etdirirərək bu kredonu öz yaradıcılıqlarında qoruyub saxlaya bilmişdilər.

Bu dövrə imza atmış Cənab Şəhadəddin, Tofiq Fikrət kimi şairlər isə şeirlərini milli ruhda deyil, Fransua Kop kimi ikinci dərəcəli fransız şairlərinin təsiri ilə tarixdən qopuq, dayaz şəkildə, həddən ziyadə romantik və lirik janrda yazırdılar. Onu da qeyd edək ki, eyni qayğılarla, lakin milli ruhda yazan başqa bir şair – Mehmed Əmin də bu dövrün nüfüz sahibi idi və türk ədəbiyyatında milli ədəbiyyat cığırının novatoru kimi qəbul edilmişdi. M. Əmin o dövr ədəbiyyatına bir yenilik gətirmişdi. M. Əminin "Cəngə gidərkən" şeiri öz pafosu və poetikası ilə dövrünün yadda qalan əsəri kimi tanınmışdır. 1905-ci ildə Tofiq Fikrətin yazdığı "Tarixi- Qadim" (Qədim tarix) mənzuməsi isə dini düşmənçilik tərəfdarları olan "ziyalılar" tərəfindən yüksək qiymətləndirildi. Mehmed Akif də bu insanlara qarşı çıxaraq yazırdı:

Serseri, hiçbirinin mesleği yok, meşrebi yok;
Felyesof hepsi, fakat pek çoğunun mektebi yok,

Şimdi Allaha söver... sonra biraz bol para ver ;
Hiç utanmaz, protestanlara zangoçluk eder!

Burada təsvir olunan, Tofiq Fikrət də daxil olmaqla, mənəvi

dəyərlərə xor baxan "ziyalıların" zehniyyətidir.

O dövrdə milli və mənəvi dəyərlərinə sadiq olan şair və yazıçılar T. Fikrətə qarşı çıxdılar. T. Fikrətin "Kırılsın seni-hak diye-alkışlayan eller" misrasını Əli Faiq Ozansoy "Kırılsın seni Fikret diye alkışlayan eller" şəklində şairə qarşı söyləmişdir.

II Məşrutiyyət dövründə Türkiyə ictimai mühitində türkçülük cərəyanı ilə yanaşı, İslamçılıq cərəyanı da mövcud idi. "Sıratı- müstəqim" və "Sebilür- rəşad" məcmuələri bu cərəyanın mətbu orqanları olmuşdur. Həmin cərəyanın qurucularından biri də Mehmed Akif idi. Əhməd Naim Bəy, Səid Həlim Paşa, Əşrəf Ədib isə onun davamçıları idilər. Onu da qeyd edək ki, İslamçılıq hərəkatı bir əxlaq cərəyanı kimi fəaliyyətə başlamışdı. Ancaq avropalıların hər zaman islamçılığa qarşı hücumu nəticəsində bu hərəkat kütləvi bir cərəyana çevrilmişdi. O zaman islamçılar arasında da fikir ayrılığı meydana gəlmişdi. Çünki XIX yüzillikdə Avropa mədəniyyətinin və elminin Şərqə yeni ayaq açdığı bir dövrdən başlayaraq, elm və texnika müsəlmanlar arasında baş verən bəzi hərəkatlara təkan vermişdir. Bu hərəkatlar Qərbdə olduğu kimi, reform xüsusiyyəti daşımış, sadəcə Şeyx Cəmaləddin Əfqani, Məhəmməd Əbdüh kimi bir çox ziyalının təbliğinə çalışdığı görüşlərlə məhdudlaşmışdı. (84, 45)

İslamçılar əsasən Şeyx Cəmaləddin Əfqani və Məhəmməd Əbduh kimi ziyalı şəxslərin təsiri altında idilər. Məsələn, onlar elmin və texnikanın həyata keçirdiyi hər bir yeniliyin "Quran"da təsvir edildiyini söyləyirdi. Tibbin "mikrob" olaraq irəli sürdüyü elmi kəşfin də yenə "Quran"ın "Fil" surəsində göstərildiyini və

müasir tibb alimlərinin kəşfindən öncə bəlli olduğunu yazmaqla Məhəmməd Əbdüh yeniliyin İslamda mövcud oduğunu əsaslandırmağa çalışırdı. Yenə bu dönəmdə ciddi fəaliyyət göstərən Cəmaləddin Əfqani islamiyyətin qüvvətlənməsi üçün Qərbdən elmin və texnikanın alınmasının vacibliyi üzərində dururdu.

Mehmed Akifin xatirələrini oxuduqda, onun dövrün İslam alimlərindən Əfqani və Məhəmməd Əbduhun təsirləndiyi açıq-aydın hiss olunur. M.Əbduh İslama mütərəqqi və müasir nöqteyi-nəzərdən baxırdı. Ancaq İstanbulun qarışıq ab-havası müasirliyin, modernizmin bərqərar olmasına imkan vermirdi. Daha sonra türk modernisti olaraq Ziya Göyalp bu mövzuya daha geniş və orijinal bir görüş gətirmişdi. O, "Türkləşmək, islamlaşmaq, müasirləşmək" adlı əsərində bunları açıq-aydın ortaya qoymuşdur.

Mehmed Akif isə islamlaşmaq və müasirləşmək yolunu seçmiş və bunu türk cəmiyyətinin düşüncəsinə yerləşdirməyə çalışmışdır.

Qısaca onu deyə bilərik ki, Mehmed Akifin yaradıcılığa başladığı zamanda ədəbiyyatda sənət xatirinə sənət yaratmaq fikri əsas alınırdı. Fəqət elə bu ədəbi mühit içərisində yetişən Akif fərqli bir yol tutmuş, xalqın sosial-ictimai problemlərini ön plana çıxararaq, sənətkarlıq cəhətdən də güclü şeirlər yazmışdır.



## 1.2. Yaradıcılığı

XX əsr Türkiyə ədəbiyyatının təmsilçiləri arasında şeirləri və mənzum hekayələri ilə İslami türk milliyyətçiliyini təmsil edən, çox sevilən, "İstiqlal Marşı"nın müəllifi Mehmed Akifin özünəməxsus bir yeri vardır. O, bir mütəfəkkir olaraq XX əsr Türkiyəsində "İslami türk Milliyətçiliyi" adlanan dini bir hərəkatın təmsilçisi olmuşdur. Şeirlərini və mənzum əsərlərini "Sebilürrəşad" və "Sıratı- müstəqim" kimi məcmuələrdə nəşr etdirən Mehmed Akif dini mətbuata millilik gətirmişdir. "İslam birliyi" ideyası milli ideyalarla tam bir şəkildə, cəmiyyətin dini, fikri və bədii ehtiyacına bir cavab olmuşdur.

Akifin ədəbi yaradıcılığa nə zaman başladığı dəqiq olaraq bizə məlum deyildir. Atasından aldığı dini tərbiyə və məktəb təhsili ilə o artıq özünə ədəbi cığır açmışdir. "Safahat" əsərində 1904-cü ildən sonra yazılan və ya müxtəlif jurnal və qəzetlərdə çap olunan şeirləri də yer almışdır. Şairin doğum tarixinin 1873-cü ilə aid olduğunu və "Safahat" əsərini 1911-ci ildə yazdığını nəzərə alsaq, o zaman ilk şeirini 31, ilk kitabını isə 38 yaşında olarkən nəşr etdirdiyini söyləyə bilərik. Fəqət sössüz ki, ilk şeirinin nəşrinə qədər Mehmed Akif bir çox mənzumə yazmışdır. Məhz bu şeir də şairin 17-18 yaşında olarkən qələmə aldığı əsərlərindən biridir.

Mahveyledin ey afet-i can aklü şuurum
Allah bilir garka-i seyl-ab-ı kazayım

İster isen öldür beni ey ruh-ı revanım
Bir emrine canım da feda, ben de fedayım

Sen bezm-i rakibana çerağ olmadasın ah
Ben Halkalıda çilekeş-i belayım

Sensin beni şairliğe sevk-eyleyen ey mah
Şevkin ile Ruh-i rengin-i edayım

Arz-eyle neler çektiğini Akif-i zarın
Öldürdü beni dağı gamı rahme sezayım
Sor kim dil-i biçareciğim kam alacak mı?
Hicran elemi yoksa müdamen kalacak mı?   (36, 487)

Halkalı Baytar Məktəbini bitirdikdən sonra Mehmed Akif Ədirnədə işə başlamışdır. Onun qəzəl tərzində yazılmış şeiri də bu dövrün məhsuludur. Akif Ədirnədə baytar müfəttişi idi. Şeir dəftərində qəzəlliyyat başlığı altında yazdığı qəzəllər həmin dövrə təsadüf edir.

Kürsiye çıkıp bade-perestane atarsın
Ey hace-i pejmurde fazilet mi satarsın

Bir kerre şu saki-i melek-çehreyi görsen
Destan başından atarak sen de atarsın

Çok mollayı gördüm sana benzer a hocam ben
Elbet gün olur bir gözü mahmura çatarsın. (26, 10)

Ölümündən sonra aparılan tədqiqatlar nəticəsində və yazılan Xatirələrdə Mehmed Akifin nəşr edilməmiş və "Safahat"a salınmamış bir sıra şeirlərinin mövcudluğu məlum olmuşdur. (77, XXVII) Onun yaradıcılığını tədqiq edərkən "Safahat"a salınmayan şeirləri arasında bir tərkibi-bəndində "Sanırsın" rədifli bölümü xüsusi maraq doğurur:

Her canlı olan heykeli adem mi sanırsın
İnsanlığı bir şekl-i mücessem mi sanırsın

Ey devlet-i dünya ilə fahr eyleyen ahmak
Kendin gibi dünyayı da sersem mi sanırsın (36, 493)

bu bölüm Azərbaycan şairi Mirzə Ələkbər Sabirin "Sanırsan" rədifli şeirinə bənzəməsi yönündən də maraqlıdır.

Fəhlə özünü sən də bir insanmı sanırsan
Axmaq kişi insanlığı asanmı sanırsan. (87, 54)

Şairin tərkibi-bəndinə "Ey saki!" deyə başlaması onun ilk zamanlar Bağdadlı Ruhidən təsirləndiyini də göstərir. Eyni zamanda Ruhinin yaradıcılığında yaşadığı dövrün ictimai problemlərinin əksi də M.Akifin diqqətini çəkmişdir.

Mehmed Akifin tərkibi-bəndinin yazılma tarixi tam bəlli olmasa da, “1893-94-cü illərdə Rizəli Taşçıoğlu Süleyman Əfəndiyə verildiyi bilinməkdədir.” (35, 495)

Mehmed Akif fars şairlərindən Sədi və Hafizin, türk sənətkarların Müəllim Naci ilə Əbdülhəq Hamidin yaradıcılığına xüsusi maraq göstərmiş, nəzirə olaraq qəzəllər, fərdi və dini duyğuları tərənnüm edən mənzumələr yazmışdır. Daha sonra yavaş-yavaş öz aləminin dar çərçivəsini qırıb bütün cəmiyyətin yaşadığı aləmə nəzər salmış və özünü unudaraq, başqalarının həyatını tərənnüm etməyə başlamışdı. Beləliklə, ədəbi yaradıcılığının ikinci dövrünə qədəm qoymuşdu. (23, 540)

Mehmed Akif əzm və mətanət sahibi, qorxu bilməyən, olduqca təvazökar bir insan idi. O, özünü nümayiş etdirməyi heç sevməz, sözü ilə əməli həmişə üst-üstə düşərdi. Sözünə xilaf çıxanlara qarşı isə barışmaz mövqe tutardı. Yalanı qətiyyən sevməzdi. Onun hər sözü doğru idi. Əxlaq və qayə adamı olan Mehmed Akifin bütün xarakteri “Safahat”ın hər misrasında əks olunmuş və özünü ən çox “Asım” şeirində göstərmişdir.

Zülmü alkışlayamam, zalimi asla sevemem;
Gelenin keyfi için geçmişe kalkıp sövemem
Biri ecdadıma saldırdı mı, hatta, boğarım...
– Boğamazsın ki,
–Hiç olmazsa yanımdan kovarım.
Üç buçuk soysuzun ardında zağarlık yapamam;
Hele hak namına haksızlığa ölsem tapamam.

Doğduğumdan beridir aşıkım İstiqlale,
Bana hiç tasmalık etmiş değil altın lale
Yumuşak başlı isem, kim dedi uysal koyunum?
Kesilir, belki, fakat çekmeye gelmez boyunum.
Kanayan bir yara gördüm mü yanar ta ciğerim
Onu dindirmek için kamçı yerim, çifte yerim.
Adam aldırma da geç git, diyemem, aldırırım
Çiğnerim, çiğnenirim, hakkı tutar kaldırırım. (36, 361-362)

"Gündəlik həyatda qarışqanı belə incitməyən şair, vətən, millət və imanına qarşı hücum edənlərə qəddarca cavab verirdi. Akif, iman və direniş üçün hayqıran bənzərsiz bir şairdir. Mədəniyyət, fikir, insanlıq etibarı ilə kamil bir şəxsiyyət olan Mehmed Akif Ərsoy Türk-İslam-Şərq əxlaqının soy dəyərlərini özündə toplamış bir ziyalı nümunəsidir." (68, 382)

Mehmed Akif min illik bir keçmişin sonunda günahsız bir millətin ən ağır günlərini onun bütün dərd və acılarını yaşayan və hiss edən bir ürəklə tərənnüm etmişdir.

Yazdığı ilk şeirlərində bəşəri və ictimai mövzulara toxunan şair əsərlərini 1908-ci ildə xarici qüvvələrin və daxili üsyançıların hücumu altında zəifləmiş dövlətin, İslamiyyətdən xəbərsiz, onu dini ənənələrdən ibarət olduğunu düşünən, yoxsul və çarəsiz bir xalqın dərdlərinə dərman olmaq üçün yazmışdır.

Bir yığın söz ki samimiyeti ancak hüneri
Ne tasannu bilirim çünkü ne sanatkarım

Ağlarım ağlatamam, hissederim söyleyemem
Dili yok kalbimin ondan ne kadar bizarım. (36, 5)

Halbuki bu böyük qəlbin bir deyil, min dili vardır. Bu dil hiss etdiklərini oxucularına olduğu kimi çatdırmışdır. Bəlkə də, heç bir şair vətəninin dərdini, iztirabını və səfalətini onun qədər hiss etməmiş, onun qədər hayqırmamışdır. Öz cəsur millətinin dəyərlərinə, müstəqillik eşqinə, nəyin bahasına olursa-olsun, qələbə qazanacağına hər kəsdən çox Mehmed Akif inanırdı.

1908-ci ildən etibarən Mehmed Akif nəşriyyat işinə başlamışdır. Əsas müəllifi olduğu "Sırat-ı Müstəqim" də və sonra da "Sebilür-rəşad"da bir çox şeirləri ilə bərabər, dini və ədəbi məqalələri və tərcümələri nəşr edilmişdir. 1911-ci ildə çapdan çıxan "Safahat" adlı kitabında isə onun şeirləri toplanmışdır.

1911-ci ilin aprelində 42 mənzumə və şair ön söz yerinə yazılmış on misralıq şeir "Sırat-ı Müstəqim" mətbəəsində nəşr olunan birinci "Safahat"da işıq üzü gördü. (36, 272). Şair həmin kitabın ön sözündə yazır: "Şeir üçün "göz yaşı"dır deyirlər; onu bilmirəm, amma məncə, bütün əsərlərim çarəsizliyimin gözyaşlarıdır!" Bu şeiri çapdan əvvəl görən Ömər Lütfü jurnala göndərdiyi məktubunda yazmışdır ki, bu şeirlər nəzmin ifadəsi kimi bir çarəsizliyin göz yaşı deyil, bəlkə, ən zərif hisslərin, ən incə bir riqqətin məhsuludur və həm yazıçını, həm də oxuyucunu ağladır...

Bu məktubun sahibi Mehmed Akifin 1945-ci ildə "Berlin Xatırələri" adlı şeirini ithaf edəcəyi Minbaşı Ömər Lütfü Bəydir. (36, XXXII)

Kitabdakı bəzi şeirlər daha əvvəl jurnalda "Safahatı-həyatdan" başlığı altında yayınlandığı üçün əsərə də bu ad verilmişdir.

"Safahat"ın birinci cildi ədəbiyyat aləmində böyük əks-səda doğurmışdu. Xüsusilə, "Fəcri-ati" şairləri arasında "Safahat"dan geniş şəkildə Həmdullah Sübhi Tanrıövər bəhs etmişdir. O, "Sərvəti-fünün" jurnalında çıxan məqaləsində belə yazırdı: "Safahat"ın ən böyük dəyəri, bizə həsrətini çəkdiyimiz mənliyimizi göstərməsidir."(106, 192)

Sırrı terakkinizi siz,
Başka yerlerde taharriye heveslenmeyiniz.
Onu kendinde bulur yükselecek bir millet.

-deyən Akif, bunun sirrini və yolunu 2292 misralıq "Asım" mənzuməsində açıqlamışdı:

Çünkü her noktada taklid ile sökmez hareket.
Alınız ilmini Garbın, alınız san'atini;
Veriniz hem de mesainize son sur'atını.
Çünkü kabil değil artık yaşamak bunlarsız;
Çünkü milliyyeti yok san`atın, ilmin; yalnız.

İyi hatırda tutun ettiğim ihtarı demin:
Bütün edvar-ı terakkıyi yarıp geçmek için,
Kendi "mahiyet-i ruhiyye"niz olsun kılavuz.
Çünkü beyhudedir ümmid-i selamet onsuz ... (35, 172)

1912-ci ilin dekabrında başlayıb, 1913-cü ilin fevralına qədər davam edən Misir səyahəti zamanı Mehmed Akif Mədinəyə getmiş, daha sonra İstanbula qayıtmışdır.

Canı cananı bütün varımı alsın da Hüda,
Etmesin tek vatanımdan beni dünyada cüda. (36, 486)

-deyən şair uzaqda, qürbətdə olduğu günlərdə pərişan qəlbinin çox zərif və incə duyğularının çiçək açdığı bir neçə şeir (Gecə", "Hicran", "Səcdə", "Əl-Ukusurda", "Nəcid çöllərindən Mədinəyə", "Çanaqqala şehidləri", "Bir gecə" və "Sənətkar) qələmə almışdır.

1913–cü ilin iyununda "Safahat"ın üçüncü kitabı olan "Haqqın səsləri" nəşr olundu. (36, XXXVI). Müsəlmanlar arasındaki birlik ideyasını qabardan bu mənzumələr bəzi ayətlərin təfsirindən yaranmışdır.

1914-cü ildə " Safahat"ın 4-cü kitabı olan "Fatih kürsüsündə "adlı böyük bir mənzumə nəşr olundu. Bu əsər cəhalətə qapılaraq mənəvi dəyərlərdən uzaq düşən "İslam dünyasını" oyatmaq, keçmişini yada salaraq, fəaliyyətə sövq etmək üçün yazılmış bir əsərdir. (23, 535)

Bakın mücahid olan Garb'a şimdi bir kerre:
Havaya hükmediyor kani olmuyor da yere.
Dönün de atıl olan Şark'ı seyredin: Ne geri!
Yakında kalmayacak yeryüzünde belki yeri! (35, 226)

"Çalış!" dedikçe Şeriat, çalışmadın, durdun ,

Onun hesabına birçok hurafe uydurdun!
Sonunda bir de “tevekkül”sokuşturup araya
Zavallı dini çevirdin bununla maskaraya! (35, 230)

Mehmed Akif 1914-cü ilin sonlarında Berlinə getmiş, bu səyahət nəticəsində şair Avropanı yaxından tanımaq imkanı əldə etmişdir. Belə ki, o, Berlin səyahəti ilə əlaqədar qeydlərini, Şərq və Qərb həyatının özəlliklərini müqayisəli şəkildə “Berlin xatirələri” (mart, 1915) adlı əsərində əks etdirmişdir.

“Berlin xatirələri”nin bir hissəsində Tofiq Fikrətə “Tarixi-qədim” (1905) əsərinə görə bəslədiyi kin-küdurətini büruzə vermişdir. “Berlin xatirələri”nin ilk altı hissəsi 1915-ci ildə, digər hissəsi 1916-cı ildə və son üç hissəsi isə 1918-ci ildə nəşr olunmuşdur. Bu bölmələrdə faydasız ədəbiyyatın cəmiyyətə vurduğu zərərdən bəhs edilir. Mehmed Akif “Tarixi-qədim” mənzuməsində din əleyhdarları olan qərbçiləri və Tofiq Fikrəti tənqid atəşinə tutmuşdur. Ancaq “Sebilür-rəşad”da nəşr olunan və doxsan səkkiz misradan ibarət olan bu bölməyə xatirələr salınmamışdır. (36, XIL)

Berlindən döndükdən sonra bəzi siyasi məsələlərin həlli üçün yenə xüsusi təşkilat tərəfindən nümayəndə kimi Misirə Nəcit Əmiri İbni Rəşidin yanına göndərilmişdir. Bu səyahət zamanı Peyğəmbərin türbəsini ziyarət edən şair “Nəcit çöllərindən Mədinəyə” adlı şeirində ziyarətlə bağlı xatirələrini əks etdirmişdir. 1917-cü ildə isə o, 1914-cü ildən sonra yazılan bəzi şeirləri ilə “Berlin xatirələri”ni bir yerə yığıb “Safahat”ın 5-ci kitabını

“Xatirələr” adı altında nəşr etdirmişdir.

Mehmed Akif türk şeir sənətinə yeniliklər gətirən böyük sənətkardır. O, Müəllim Naci kimi ustadın izi ilə getmiş, əruz vəznindən təbiilik və asanlıqla istifadə etmişdir.

Mehmed Akifə görə, daha öncə yaşamış şairlər də bu vəzinlə gözəl şeirlər yazmış, əsərləri ilə vəznin gözəlliyini isbat etmişdirlər. M. Akif özü də bu şairlərin arxasınca getmiş, əruzu türk dilinə uyğunlaşdırmış və bu vəzində həqiqi sənət nümunələri yaratmışdır. O, “sənət üçün sənət” yox, “cəmiyyət üçün sənət” ideyasını müdafiə etmişdir. Ondan sənət haqqında olan fikirlərini soruşduqda belə demişdi: “Sənət sənət üçündür düsturu ölübdür. Cəmiyyətə, həyata yaramayan sənət yerin dibinə girsin!” (37, 39)

Ədib öz məqalələrində “Sənət üçün sənət” ideyası ilə əsər yazanları tənqid edərək yazırdı: “Hətta “sənət sənət üçündür, sənətdə qayə yenə sənətdir. Ədəbiyyatda ədəbiyyatdan başqa bir qayə axtarmaq sənəti məhv etmək deməkdir”, kimi “yüksək nəzəriyyələr” əxlaqsızlığa fəlsəfi don geydirərək ədəbiyyat naminə millətin həyatına, namusuna, mövcudiyyətinə toxunan bir sıra hərzələrin əsər deyə meydana çıxartdıqlarına rəvac verilmək üçün önə sürülmüşdür. Ədəbiyyat bu gün ictimaiyyətin gözünü açacaq, hissiyatını yüksəldəcək, əxlaqını bəzəyəcək, xülasə, bizə ədəb dərsi verəcək xüsusiyyətdə olmalıdır.” (80, 43)

Bu səbəbdəndir ki, o, fikirlərini vəznə uyğunlaşdırmaq üçün deyil, millətin dərdini, halını dilə gətitmək üçün əruzdan istifadə etmişdir.

Ədəbiyyat “ədəb” sözündən gəlir və bir tərbiyə vasitəsidir.

Millət öz şairindən çox şey umur. Əgər şair, millətin dərdini dilə gətirməzsə, xalqın dərdi ilə ağlayıb, sevinci ilə gülməzsə, belə şairin yaradıcılıq ömrü çox qısa olur. Mehmed Akifin bütün türk dünyası tərəfindən sevilməsinin səbəbi də onun millət eşqi ilə yanıb, tutuşması olmuşdur.

# II FƏSİL.
# İCTİMAİ PROBLEMLƏRİN QOYULUŞU VƏ BƏDİİ HƏLLİ

Mehmed Akif ədəbiyyata gəldiyi dövrdə realizm ədəbi cərəyanın təsiri ilə şair və yazıçılar ictimai mövzulara üstünlük verirdilər. İsmayıl Safa, Tofiq Fikrət, Əli Əkrəm, Hüseyin Suad, Mehmed Əmin və digərləri yaşadıqları dönəmdə ictimai yaraları öz düşüncə prizmalarından ələ alaraq, bədii təhlildən keçirərək oxuculara çatdırmağa çalışmışlar. Bu ənənə romantizmin təsiri ilə Namiq Kamal yaradıcılığından başlamış, Hamidə qədər davam etmişdir. İctimai məsələləri əks etdirmək bacarığına görə Mehmed Akif dövrünün yazarlarından xeyli fərqlənmişdir. Onun toxunduğu ictimai problemlər bu gün də aktualdır. Sadəcə o, təsvir etdiyi problemləri qabartmaqla kifayətlənməyib, onların həlli yollarını da göstərməyə çalışmışdır.

Mehmed Akifin ictimai mövzuları əhatə edən şah əsəri 1906-cı ildə yazdığı "Küfe" adlı mənzum hekayəsidir. Ondan sonra "Meyhane" (Meyxana) və "Mahalle kahvesi" (Məhəllə çayxanası) adlı əsərlərini qələmə almışdır ki, burada da əsas mövzu cəmiyyətdəki çatışmazlıq, eybəcərlik, əxlaqsızlıq kimi bir çox mənfilikləri əks etdirməkdən ibarətdir. Bu əsərlərdə Mehmed Akif təsvirdə rəsmlə sözü birləşdirərək mükəmməl bir bədii tablo yaratmağa müvəffəq olmuşdur. "Hasır" (Həsir) adlı mənzum hekayəsində isə kimsəsiz və kasıb bir qadının dəfn mərasımini təsvir edərək, duyğusuz insanlara ibrət dərsi verməyə çalış-

mışdır. "İstibdad" adlı mənzum şeirində dövlət təzyiqini, Sultan Əbdülhəmid dövründə heç bir günahı olmayan bir ailəyə edilən təzyigi açıq şəkildə göstərmişdir. Mehmed Akif "Hürriyyət", "Axirət yolu", "Rəssam haqlı" adlı mənzum hekayələrində II Məşrutiyyət dövründə ölkədə yaranan xaosun, insanların duyğusuzluğunun bir sosioloq təfəkkürü ilə təhlilini verməkdədir.

M.Akif "Həsbihal" adlı məqaləsində sosiologiya ilə əlaqədar fikirlərini açıqlayaraq, şərqdə, qərbdə, şimalda və cənubda nə qədər müsəlman varsa, hamsının zillət, səfalət içində yaşadığını bildirir. Ona görə də səfil bir millətin əlində qalan dinin yüksəlməsinin mümkün olmadığını dərk etməyən vaizin kürsüyə yaxın buraxılmamasını, əksinə, kürsüyə çıxan vaizin millətin keçmişini, bugününü və gələcəyini bilməsini, eyni zamanda insanları xoş gələcəyə hazırlamasını istəyir.

M.Akif şeirlərinin çoxunu ictimai mövzular təşkil edir. Şair bir çox şeirinin mövzusunu sosial hadisələrdən seçmişdir. Xüsusi ilə "Xəstə", "Küfe", "Həsir", "Meyxanə", "Seyfi Baba", "Kor Neyzən", "İstibdad", "Hürriyyt", "Mahalle Kahvesi" (Məhəllə çayxanası), "Kosa imam", "Rəssam haqlı", "Axirət yolu" kimi şeirlərində ictimai hadisələri mənzum hekayə şəklində qələmə almışdır."Safahat"ın "Xatirələr" bölümündə ictimai motivlər, "Asım"da isə savaş mövzuları işlənmişdir.

Edebiyyat yolu ilə sosialogiya sahəsinə aid olan mövzuları "Safahat" adlı əsərində işləyərək, cəmiyyətin və cəmiyyətdəki reallığın dərk edilməsini, cəmiyyətdə mövcud olan bir çox sosial problemlərin araşdırılıb, həlli yollarının göstərilməsini arzu etmiş-

dir. M. Akifin bir mütəfəkkir olaraq nəzərə çarpan xüsusiyyəti, onun sosial məsələləri araşdırıb, həlli yollarını göstərməsidir.

Adlarını çəkdiyimiz əsərlərdən başqa, digər əsərlərində də o, bir çox sosial problemlərə toxunmuşdur ki, bu bölümdə həmin əsərlərin daha ətraflı təhlili veriləcəkdir.



## 2.1. Maarif məsələləri

Mehmed Akif Ərsoy yaxın dövrün siyasi və ədəbiyyat tarixində adı ən çox çəkilən şəxsiyyətlərdəndir. Tənzimatdan sonra türk ədəbiyyatının görkəmli nümayəndələrindən İbrahim Şinasi, Namiq Kamal, Ziya Paşa, daha sonra Tofiq Fikrət, Mehmed Əmin Yurdaqul kimi şairlər sosial məsələləri işıqlandırmağa daha çox yer ayırmışlar. Fəqət bunların arasında Mehmed Akifin xüsusi yeri vardır. Dövründən başlayaraq günümüzə qədər aktuallığını itirməyən məsələlərə aydınlıq gətirən böyük idealist şair Mehmed Akifi anlamaq, qeyd etdiyimiz kimi, "Safahat"ı dərk etməklə başlayır. Əsərlərini ətraflı şəkildə təhlil etdiyimiz zaman şairin sosial məsələlərlə çox yaxından tanış olduğunu görürük. XX əsr Türkiyə ədəbiyyatında yaşadığı cəmiyyəti onun qədər geniş və hərtərəfli şəkildə əks etdirən türk şairi, demək olar ki, yoxdur. Mehmed Akifin yaradıcılığında şəxsi duyğulardan bəhs edən şeirlərə təsadüf etmək, demək olar ki, mümkün deyil. O, böyük sənətkar olmaqla yanaşı, həm də fikir və ideya adamı idi, cəmiyyətin problemlərini öz dərdi bilən, onları həll etməyə çalışan ictimai xadim kimi tanınırdı.

Sosioloq-alim Amiran Kurtkan onun haqqında belə deyirdi: "Özünü bir qayəyə həsr edən şair, sənətkar olmaqdan başqa, sosial dəyişmə müddətində yaşadığı cəmiyyətin məsələləri üzərində düşünən, sosial ziddiyyətlərin nizama salınaraq toplumda mey-dana gələn dəyişikliklərin düzgün inkişafına çalışan ziyalıdır." (73, 275)

Həqiqətən, Mehmed Akif bu xüsusiyyətlərə malik yaradıcı bir şəxsiyyətdir. O, bu gün də Türkiyənin həsrətlə andığı şair, yazıçı, filosof, mütəfəkkir və maarifçidir. Onun təsvir və təhlil etdiyi sosial problemlər içərisində ən çox müraciət etdiyi mövzulardan biri də təhsil və elmin inkişafıdır. Mehmed Akif türk tarixinin, demək olar ki, ən böhranlı və qarışıq bir dönəmində yaşamışdır. Ölkədə anarxiyanın hökm sürdüyünü, millətin düşdüyü ağır vəziyyəti görən şair onu düzgün olaraq təhlil edir və bu vəziyyəti yalnız və yalnız cəhalətlə əlaqələndirirdi. “Maarif, maarif... bizim üçün başqa çarə yoxdur... Əgər yaşamaq istəyiriksə, hər şeydən əvvəl maarifə sarılmalıyıq. Dünya da maariflə, din də maariflə, axirət də maariflə... Hər şey maariflə bağlıdır”, (58, 231) – deyən Mehmed Akif fikirlərini şeir və məqalələrində açıqlayırdı. Mehmed Akifin altıncı kitabı olan “Asım” əsərində onun elmə, irfana nə qədər önəm verdiyi aydın şəkildə görünməkdədir:

Doğrudan doğruya Kur’an’dan alıp ilhamı,
Asrın idrakine söyletmeliyiz İslamı. (35, 378)

Şair “Quran”da da təhsilin vacibliyindən danışılmasını diqqətə çatdırmışdır. İkinci misrada söylədiyi sözlər ilk baxışda çox iddialı görünür. Lakin o, eyni zamanda, bu fikri həyata keçirmək üçün elmə sarılmağın vacibliyini vurğulamışdır. “Quran”da elmə dəyər verildiyini söyləyən şair bu fikri yetərincə qiymətləndirməyənlərə qarşı çıxmışdır. Elmə, maarifə qiymət verən müəllif, tezliklə sağlam fikirli gələcək türk nəslinin yetişəcəyinə, milləti

və ölkəni cəhalətdən qurtaracağına inanır.

"İlk adımdır, atacaktır bunu elbette, ilim", – deyərək bu yolun yolçuları üçün bütün qapıların açılacağını ümidlə gözləyir və bunu xalqına da təlqin edir. Milli mücadilə illərində xalqa xitabları, camilərdə oxuduğu vəzlər, yazdığı şeir və məqalələr onun əsl maarifçi fəaliyyətindən xəbər verir. Hər yerdə insanlığın tərəqqiyə doğru coşğun, güclü bir sel kimi sürətlə irəlilədiyini söyləyən şair bu ahəngə uymayanların boğulacağını söyləmişdir. Bu səbəbdən illərlə, əsrlərlə davam edən qəflət yuxusundan oyanmağın və ətrafı bürümüş zülmətin parçalanmasının vacibliyini nitq və şeirlərində təkrar etməyi lazım bilmişdir:

Bir baksana: Gökler uyanık, yer uyanıktır.
Dünya uyanıkken uyumak maskaralıktır!
Eyvah! Bu zilletlere sensin yine illet...
Ey derd-i cehalet, sana düşmekle bu millet,
Bir hale getirdin ki: Ne din kaldı ne namus!
Ey sine-i İslam'a çöken kapkara kabus,

Ey hasm-ı hakiki, seni öldürmeli evvel:
Sensin bize düşmanları üstün çıkaran el! (36, 194)

Mehmed Akif ictimai həyatı yeniləşdirmək, nadanlığı, cahilliyi aradan qaldırmaq, yeni həyat və inkişaf yoluna çıxmaq üçün xalqı oyatmağın, müasir elmlərə xüsusi əhəmiyyət verilməsinin vacibliyini qələmə alır və qeyd edirdi ki, elmsiz bir millətin yer

üzündən silinib gedəcəyi labüddür. Yeniliyə qovuşmağın və xalqın düşdüyü çətinlikdən çıxmağın yeganə yolunun elm olduğunu düşünür. Əlbəttə, elmsiz və cahil bir millətin gələcəyi olmaz.

Ey millet uyan! Cehline kurban gidiyorsun!
İslam'ı da "batsın!" diye tutmuş yediyorsun!
Allah'tan utan! Bari bırak dini elinden...
Gir leş gibi topraklara kendin gireceksen!
Lakin, ne demek bizleri Allah ile iskat?
Allah'tan utanmak da olur ilm ile... Heyhat! (36, 194)

Əlbəttə ki, elmsiz inkişafdan danışmaq olmaz. Keçmiş əsrlərdə müsəlmanlar öz elmləri, ixtiraları ilə dünyaya səs salsalar da, zaman dəyişib və ehtişamlı dövrlər geridə qalmışdır. Türk millətinin bir zamanlar elmə verdiyi qiyməti anlatmaq ehtiyacını duyan Mehmed Akif şeirlərində təhsilin, maariflənmənin dəyərindən söz açmışdır. Cəmiyyətdəki problemlərin məhz cəhalət nəticəsində yarandığını dönə-dönə qeyd etmişdir. Şair çıxış yolunu əhalinin maariflənməsində, elm öyrənməsində, təhsilə xüsusi diqqət yetirilməsində görür. Maarifpərvər şair cəmiyyətdə baş verən neqativliklərin yalnız maariflənmə yolu ilə düzələcəyinə və bu yolda ilkin olaraq məhz ailə daxilində atılacaq addımların uğurlu nəticələr verəcəyinə inanırdı:

Dinlədin, gördün a oğlum, ne bozuk terbiyemiz
Ne yapıp yapmalı, insanlığı öğretmeliyiz. (36, 115)

Bu cehalet yürümez; asra bakın: Asr-i ulum!
Başlasın terbiyemiz ailelerden, oğlum... (36, 116)

Mehmed Akif ailə-məktəb-uşaq üçbucağı içində həyata keçirilən təlim-tərbiyə məsələsini bir çox şeir və yazılarında əks etdirmişdir. O, təlim-tərbiyənin daha kiçik yaşdan verilməsinin vacibliyini qeyd etmişdir. Mehmed Akif nitq və dini mövzulu çıxışlarında (vəz) xalqın yaşadığı ağır şəraiti, sosial çətinlikləri göstərərək səbəbini cahillikdə gördüyü üçün xalqı maarifləndirməyə çalışmışdır. Bir maarifçi olaraq xalqa, milli və dini duyğulara cəhalətin düşmən olduğunu söyləyən Mehmed Akif xilas yolunu elmdə görmüş və öz fikirlərini şeirlərində dilə gətirmişdir:

"Hiç bilenlerle bilmeyenler bir olur mu?" (Quran-ı Kərim)
Olmaz ya... Tabi'i... Biri insan biri hayvan!
Öyleyse, "cehalet" denilen yüz karasından,
Kurtulmaya azmetmeli baştanbaşa millet. (36, 193)

II Məşrutiyyət dönəmində maarif naziri vəzifəsində çalışan və böyük xidmətləri ilə ad qazanan Əmrullah Əfəndi cəmiyyətin inkişafı üçün yalnız ali təhsilin vacibliyini qeyd etmişdir. Fəqət dövrünün görkəmli maarifpərvər yazıçısı və universitet müəllimi olan Sabit bəylə yanaşı, Mehmed Akif də bunu yanlış bir yanaşma kimi qiymətləndirmiş və öz fikirlərini isbata çalışmışdır. Bu barədə Sabit bəy təhsillə bağlı öz fikrini belə ifadə etmişdir: "Ali təhsil orta təhsilə, orta təhsil isə ibtidai təhsilə əsaslanır. Heç

bir təhsil dərəcəsi özündən aşağıdakı dərəcəyə istinad etmədən yüksələ bilməz." (60, 1276) Mehmed Akif də eyni fikirləri müdafiə etmiş və o da həmin ideyaları irəli sürmüşdür:

Demek ki: Atmalıyız ilme doğru ilk adımı.
Mahalle mektebidir işte en birinci adım; (36, 247)

Şair cəmiyyətdəki cahilliyin səbəbini məktəblərin yetərsizliyində görürdü. Üzərinə düşən vəzifənin öhdəsindən gəlməyi bacarmayan, millətə, xalqa mükəmməl təhsil verə bilməyən məktəblər şairin tənqid hədəfinə çevrilmişdir. Mehmed Akif əsrlərlə Osmanlı İmperiyasına və İslam aləminə dahilər, görkəmli elm adamları bəxş edən mədrəsələrlə məktəbləri müqayisə etmiş, xoşagəlməz nəticələrdən mütəəssir olmuşdur. "İbtidai məktəb zəif olarsa, orta məktəb ondan da zəif olacaq. Orta məktəb sistemi zəif olduğu zaman artıq ali məktəblərdə keyfiyyət axtarmağa dəyməz",–söyləyən şair şeirlərinin birində indiki məktəblərin və universitetlərin ibn Rüşd, ibn Sina, Seyyid, Razi, İmam Qəzali kimi alimləri yetişdirmək iqtidarında olmadığını söyləmişdir. Bu gün mədrəsə və universitet məzunları, elm adamları kimi tanınan şəxslər böyük alimlərin əsərlərini anlamaq və təhlil etməkdə belə çətinlik çəkirlər:

Medresen var mı senin? Bence o çoktan yürüdü.
Hadi göster bakayım şimdi de İbn-ür-Rüşd'ü?
İbn-i Sina niye yok? Nerde Gazali görelim?

Hani Seyyid gibi, Razi gibi üç beş alim? (36, 381)

Mehmed Akif təhsilə diqqətin azalması ilə mənəvi geriliyin yarandığına təəssüf edir, bu işdə dini təşkilatların və camilərin də kifayət qədər fəaliyyət göstərmədiklərini qeyd edir. Şair "Fatih kürsüsündə" ki şeirində mədrəsələrə baxaraq deyir:

-Bırak ki camii, dünyada olmaz öyle eser;
Fakat nedir şu heyakil, nedir şu medreseler! (35, 210)

Evet medaris, o vahdet-seray-ı muhteşemin
Önünde: Hürmetidir dine her zaman ilmin . (35, 210)

Bir zamanlar ən yüksək təhsil qurumları olan mədrəsələrdə sadəcə dini elmlər deyil, dünyəvi və təbiət elmləri də öyrədilirdi. Fundamental elmlərin əsası uşaqkən öyrədilməklə kiçik yaşlarda elmə maraq yaradılırdı. Bu yöndə mövcud təcrübələrin də unudulduğunu şair ürək ağrısı ilə yad edir:

Hayır, deden sana bak, hastahaneler yapmış!
Yanında Mekteb-i Tıbbıye'ler, neler yapmış! (35, 210)

Fəqət belə əcdadın övladları indi bu müəssisələrə dönüb baxmaq ehtiyacını belə hiss etmirlər. İnkişaf prosesində gərəkli, cəmiyyətin tərəqqisinin təməli sayılan elmi biliklərə diqqətin azalması nəticəsində dövlət də tənəzzülə uğramaqdadır. Heyf

ki, yaxşı təcrübələr unudulmuş, elmi nailiyyətlərdən yetərincə istifadə edilməmişdir. Əsasən ayrı-ayrı fənlər mədrəsələrdən çoxdan çıxarılmışdır. M. Akif mədrəsələri gəzərək təəssüratını bu şəkildə qələmə almışdır:

Dolaşmak isteyerek daldığım olur ba'zı:
Adım başında asırlarca sayın enkazı,
Takılmamak, hani, kabil değil ayaklarına!
Nazar nüfuz edecek olsa hangi bir yığına
Ya bir müdekkikin asrar-ı tarumarı defni
Ya bir muşerrihin asarı saklı Hem ne hazin!
Çamurda saplı, geniş rahleler bütün mermer...
Demek: Muallimi teşrihi vermemiş ezber;

Kitab-ı na'şı serip taşların uzunluğuna,
Açıp açıp okumuş karşısında bulduğuna. (35, 211)

Bu daş divarlar arasında, ömrünü elmə həsr edən aqillərin övladları bu gün elm və ən əsası da cəhalətdən qurtulmaq naminə heç bir şey etmirlər. Çalışmaq bir yana qalsın, millətin də bu yolda həvəssiz, maraqsız olduğunu görən Mehmed Akif təəssüfünü belə bildirmişdir:

Fakat çalışmak için önce şart olan: İstek
O yoksa, hangi vesileyle biz ilerleyelim.
Sıkıntısız mütefennin, üzüntüsüz alim. (36, 242)

Min bir zəhmətlə mədrəsə və universitetlərdə təhsil almış məzunlardan da millətə bir fayda olmadığını ürək yanğısı ilə vurğulayan Mehmed Akif vəziyyəti gərginləşdirən səbəblər üzərində dayanmışdır. Onun fikrincə, bu səbəblərin ən başlıcası islam aləmində "elm" anlayışının tam olaraq dərk edilməməsidir. Bunun nəticəsidir ki, öyrədilənlər nə bu dünya üçün, nə də axirət üçün gərəklidir:

Sayısız medrese var gerçi Buharada bugün...
Okunandan ne haber? On para etmez fenler,
Ne bu dünyada soran var, ne de ukbada geçer! (36, 154)

Mehmed Akif millətin cəhalətdən xilas yolunun elmdə, bu yoldakı xilaskarların isə məhz müəllimlər olduğuna əmin idi. Bu elm adamları da sahib olduqları məziyyətlərlə millətə, xalqa yol göstərməli, onları cəhalət quyusundan çıxartmalıdırlar. Çünki millətin məsuliyyəti daha çox müəllimlərin üzərinə düşür. Bir millətin inkişafı üçün təkmilləşmiş məktəb və müəllimlərin olması əsas şərtdir. Müəllimlər milləti irəliyə aparan güclü bir ordudur. Məktəbləri diqqətdən kənar qalan, müəllimi zəifləyən, ehtiyac içərisində yaşayan millət uçuruma yuvarlanar. Cəmiyyətin geriləməsində biliksiz, işinə tələbkar yanaşmayan, şagirdini özünün və xalqının gələcəyi kimi görməyən müəllimlər də günahkardırlar. Mehmed Akif məsuliyyətsiz müəllimləri, ümumi şəkildə çəyirtkə ordusuna bənzətmişdir. Çəyirtkələr tarlada dənli bitkiləri məhv etdikləri kimi, belə müəllimlər də millətin fidanlarını məhv

edərək, zərərli və fəzilətsiz bir gəncliyin meydana çıxmasına səbəb olurlar. Buna görə də, Mehmed Akif müəllimə qayğı ilə yanaşmış və xüsusi ehtiram göstərmiş, onun peşəsinə böyük əhəmiyyət vermişdir. O, əsl müəllimdə 4 əsas xüsusiyyyətin olmasını vacib saymışdır. Bu xüsusiyyətlər iman, ədəb, ləyaqət və vicdandır.

"Muallimim" diyen olmak gerektir imanlı;
Edepli, sonra liyakatli, sonra vicdanlı.
Bu dördü olmadan olmaz: Vazife çünkü büyük;  (36, 247)

Bəli, müəllimlik, doğrudan da çox böyük məsuliyyət tələb edən vəzifədir. Bunu anlamayan yaxşı müəllim ola bilməz. Olsa da, beləsi, millətin gələcəyini qaranlığa, uçuruma sürükləmiş olar. Mehmed Akif millətin maariflənməsində müəllimlərin üzərinə düşən məsuliyyətlə yanaşı, bu şərəfli missiyanın həyata keçirilməsi üçün təkmilləşdirilmiş məktəblərin yaradılmasının vacibliyini də qeyd etmişdir.

Dr. Kazım Yetiş M.Akifin elmə nə qədər dəyər verdiyini və hər şeydən üstün tutduğunu əsərində göstərmişdir. "Mehmed Akif bir zamanlar müharibəni uduzaraq əsarət altına düşmüş almanların təkrar inkişaflarının, dünya ölkələri sırasında önəmli yer tutmalarının bir çox variantlarını müzakirə etdiklərini yazır. Bu müzakirədə bəziləri siyasətin, bəziləri ordunun vətəni xilas edəcəyini söyləmişlər. Bir başqası donanmanın gücləndirilməsini, digəri elmin, sənətin inkişafını, kimisi də maliyyənin artırılması

fikrini müdafiə etmişdir.” (101, 142)

Bu müzakirələri dinləyən yaşlı bir adam isə yeni məktəblərin tikilməsinin vacibliyini söyləmiş və fikrini bu şəkildə açıqlamışdır:

Sonunda: “Kuvvetimiz, şüphesiz ilerlemeli:
Fakat düşünmeli her şeyde önceden temeli
Teammüm etmesi lazım maarifin mutlak:
Okur yazarsa ahali, ne var yapılmayacak?
Donanma, ordu birer ihtiyacı mübrimdir,
O ihtiyacı, fakat, öğreten “muallimdir!”
Deyip kararını vermiş ki, aynen icraya,
Konunca ortaya çıkmış, bugünki, Almanya.  (36, 246)

Mehmed Akif elm, təhsil ilə bağlı problemlərdən danışarkən çətinliklərin aradan qaldırılmasını, həlli yolunu məktəblərdə görürdü. Şair müəllim və məktəb dedikdə sadəcə oxumaq və yazmağı nəzərdə tutmurdu. Onun fikrincə, məktəb və müəllimin vəzifəsi tələbələrinə elm verməkdir. Yalnız bu yolla tərəqqiyə çatmaq olar. Mehmed Akif məktəblərdən umduğunu bu şəkildə dilə gətirmişdir:

-Ne çare! İbrete hala heveslidir çoğumuz;
Yetişməmiş gibi dünyaya ibret olduğumuz! -
Şu cehlimizle müsibet mi kaldı uğramadık?
Mahalle mektebi lazım, düşünmeyin artık!
Mahalle mektebi olsaydı bizde vaktiyle;
Ya uğrasaydı kalanlar güzelce ta’dile;

Felaketin başı, hiç şüphe yok, cehaletimiz;  (36, 247)

Mehmed Akif dərdi göstərməklə yanaşı, onun dərmanını da söyləməyə çalışır. Onun fikrincə, bu sadəcə arzu, istəklə deyil, bir dövlət işi olmalı, xüsusi proqramla həyata keçirilməlidir. Almaniyada bu fikir dəstəklənərək yüksəklərə qaldırıldığı halda, Türkiyədə tam tərsi olaraq buna barmaqarası baxılır. Bununla yanaşı, Mehmed Akif məmləkətdə hökm sürən parçalanma, ayrı-seçkilik, dost-düşməni ayırd edə bilməmək kimi ictimaiyyətin ağır "xəstəliyi"ni məktəbin və müəllimlərin olmaması ilə izah etmişdir:

Bu derde çare olunmaz -ne olsa -mektepsiz.  (36, 247)

"Xalq cahil olduğu üçün xeyiri şərdən ayıra bilmir. Əli qələm tutan insanlar isə onları büsbütün çıxılmaz yollara sürükləməkdədir. Arnavutların üsyanı elə bəzi ərəb şeyxlərinin cahillikləri üzündən deyilmi? Düşmənlərin fitnələrinə də elə cahillikləri ucbatından inandılar." (55, 232)

Mehmed Akifə görə, oxuyub-yazmağı bacaran şüurlu insanlarda birlik, adət-ənənəyə bağlılıq, milli-mənəvi dəyərlərə hörmət hissi güclüdür. Onlar dini öyrənməli, eyni zamanda yaxşını pisdən asanlıqla ayırd etməyi bacarmalıdırlar.

Bu məqamda Mehmed Akif dünyada mövcud olan qabaqcıl təcrübələrdən, o cümlədən yaponlardan nümunə götürməyi tövsiyə etmişdir. Onlar şüurlu millət olduqları üçün yaxşı ilə pisi bir-birindən ayırmağı bacarırlar və adət-ənənələrinə sadiqdirlər. Orada hamı dini və qanunları bilir eləcə də onlara sahib çıxır. Elə

buna görədir ki, onlar Avropadan yalnız müsbət cəhətləri qəbul edirlər, yəni, elmi, texnikanı öyrənirlər. Fəqət Türkiyədə vəziyyət belə deyil, yəni türk gəncləri içində "Nə olursa-olsun, Avropa olsun", – deyərək adət-ənənəsindən, dinindən belə imtina edənlər, düşmən fitnəsinə uyaraq öz əcdadından utananlar da az deyildir. Onların bir çoxu bunun siyasi yönünü unudur, səbəbləri müəyyən edə bilmir, müasirliyi ənənədən, hətta dindən uzaqlaşmaqda görürlər. Gənclər arasında dini gerilik hesab edənlər də vardır. Əlbəttə, bütün bunların çarəsi gözəl məktəblər, elm və şairin göstərdiyi kimi, 4 xüsusiyyəti özündə birləşdirən, işi ilə yaşadan müəllimlərdir. Gəncliyi və məmləkəti bu gerilikdən yalnız onlar xilas edəcəkdir. Mehmed Akif bunu millətə anlatmağa çalışır, amma nə fayda? Almaniya, İngiltərə, Rusiya kimi dövlətlər məktəblərinin və müəllimlərinin sayəsində ayağa qalxdıqları halda, Türkiyədə bu vəziyyət daha fərqlidir.

Bir gün şair Konyaya gedir və öyrənir ki, oraya gəlmədən üç gün əvvəl əyalətin "qabaqcıl" adamları müəllimi qovub, məktəbi də bağlamışlar. Mehmed Akif bunu görüb çox əsəbiləşir və bunları söyləyir.

Hiç muallim kovulur muymuş, ayol, söyleyiniz?
O, sizin devletiniz, ni'metiniz, her şeyiniz.
Hoca hakkıyle beraber gelecek hak var mı?
Sizi mizana çekerken bunu sormazlar mı?
Müslüman, elde asa, belde divit, başta sarık;
Sonra, sırtında yedek, saplı beş on deste çarık;

Altı aylık yolu dağ taş demeyip, çiğneyerek,
Çin-i Maçin’deki bir ilmi gidip öğrenecek.
Hiç düşünmek mi yoktur, be adamlar, bu ne iş?
En büyük talii Mevla size ihsan etmiş,
Hem de ta olduğunuz mevkiye göndermişken;
Teptiniz kendi gelen ni’meti sersemlikten!
Çok zaman geçmeyecektir ki, bu nankörlüğünüz,
Ne felaketlere meydan verecektir görünüz!
Köylerin yüzde bugün sekseni, hatta, hocasız;
Siz de onlar gibi cahil kalarak anlayınız!
Bir hata oldu, deyip şimdi peşimansınız a...
Ne çıkar? Gitti giden, kıydınız evladınıza. (36, 357)

Mehmed Akif Konya əhalisinin qarşısındakı nitqini bitirdikdən sonra, bir kəndli ona yaxınlaşaraq, “müəllimin qovulma səbəbini öyrənmək istəyirdiniz? O, müəllim çox qaraqabaq, camaatdan qaçan, dinsiz bir insan idi”, sözləri ilə onun kənd əhalisi arasında yaratdığı təəssüratı (şairin sözləri ilə desək “farmazon” olduğunu) bildirir. Şair, çarənin müəllimi qovmaqda deyil, insana təsiretmə bacarığında olduğunu vurğulayaraq kəndliyə belə söyləmişdir:

-Pek güzel, amma, bu işin yok ki, sonu,
Kapadık mektebi, kovduk diyelim farmasonu
Başı boş köylünün evladını kimler yedecek?
Adam ister ona insanlığı telkin edecek. (36, 359)

Mehmed Akif, ümumiyyətlə, təhsil metodundan narazı idi. Belə ki, o, uzun illər boyu nəzəriyyə ilə təcrübi işi bir-birindən tam şəkildə ayıraraq, yalnız quru nəzəriyyə ilə gənclərin beyinlərini doldurmağa çalışanlara qarşı çıxmış, əsl elmin təcrübə ilə əldə edilə biləcəyini şeir və məqalələrində vurğulamışdır:

Nazariyatta boğulmakla geçen ömre yazık;
Ameli kıymetidir, kıymeti ilmin artık. (36, 169)

Şair digər ümummilli problemi – ziyalı ilə xalqın qarşılıqlı anlaşma məsələsini də bir sosial problem kimi qabartmışdır. Mehmed Akifə görə ziyalı xalqa onun anlaya biləcəyi şeylərdən bəhs etməli və bu zaman onun duyğu və düşüncələrini incitməməlidir. O yazırdı: "Bizi qurtaracaq yeganə çarə, keçən dəfə də söyləmişdim, maarifdir; gerçək və həqiqi maarif. Ölkəmizə bunu gətirə bilsək, o zaman qurtularıq. Heyf ki, maarif hələ də məmləkətə girmədi. Avam xalq oxuyub-yazmır, oxuyub-yazanlar isə nə dünyaya, nə də axirətə yaramayan bir yığın nəzəriyyə ilə məşğuldurlar." (54, 407)

Bu məqamda Mehmed Akif rus millətini misal gətirərək onların nə qədər çalışqan olduqlarını vurğulamış, ziyalı təbəqənin, məhz xalqın mənafeyi uğrunda gördüyü işlərdən dönə-dönə bəhs etmişdir. Belə ki, Rusiyadakı ziyalı təbəqə əhalini maraqlandıran mövzularla bağlı şərhlər verir, cəmiyyətdə baş verən hadisələri əks etdirən kiçik həcmli kitabçalar çap etdirir, hədiyyə olaraq əhaliyə paylayırdılar. Ziyalıların bir qismi bununla

kifayətlənməyib, kəndlilərin, fəhlələrin həyatı ilə yaxından maraqlanır, bir çox işlərdə onlara köməklik göstərir, bir sözlə, xalqın içində yaşayırdılar. Bu yolla avam kütlənin idrak səviyyəsini qaldırmağa çalışırdılar. Amma M. Akif Rusya ilə Türkiyəni müqayisə edərkən çox üzülür və "Sırat-ı müstəqim"in 5-ci cildində çıxan "Hasbihal" adlı məqaləsində vəziyyəti bu şəkildə təsvir edirdi: "Etiraf edək ki, biz İstanbul yazarları, jurnalistləri, naşirləri Osmanlı türklərinin mində birinə belə fayda gətirmir; kəndlinin, işçinin, tacirin məişətinə, həyatına, əxlaqına xidmət edən, duyğusuna, munis tərbiyəsinə, ruhuna və fikirlərinə yararlı əsər verə bilmirik; tarix, hüquq və siyasətə dair yazılarımızdan millət; onun böyük əksəriyyəti xəbərsiz qalır. Hürriyyət, müsavat, ədalət millətin qulağına mənasız bir səs kimi gəlir; məşrutiyyətlə təyəmüm edir..." (59, 105)

Mehmed Akifin hələ öz dövründə irəli sürdüyü problemlər bu gün də türk millətinin qarşısında həllini gözləyən əsas məsələ olaraq qalmaqdadır.

Bütün bu söylənilənlərlə yanaşı, Mehmed Akif mətbuatın da savadlı və şüurlu bir millət kimi formalaşmağa təkan verəcək vasitə olduğunu əminliklə qeyd etmişdir. Çünki həmin dövrdə millətin və məmləkətin dirçəlişi üçün işıqlı sabahlara yol açan səviyyəli mətbuat orqanlarına ehtiyac duyulmaqda idi. Bildiyimiz kimi, mətbuat elmin inkişafına xidmət etməklə yanaşı, təlim-tərbiyə işini təbliğ edən bir vasitə kimi cəmiyyətin inkişafında aparıcı mövqe tutur. Bu mənada mətbuatı təlim-tərbiyə qurumu adlandırsaq, yanılmarıq. Əvvəllər qəzetlər elmin inkişafında

və təbliğində böyük rol oynayırdı. Amma zamanla bu vəziyyət Türkiyədə əsl mənasını itirmiş, mətbuat bir növ yalan və iftira yayan bir müəssisə halına gəlmişdir. Sivil ölkələrdə qəzet milləti birliyə, elmə və təhsilə çağırdığı halda, Türkiyədə mətbuat vasitəsi ilə parçalanma, ayrı-seçkilik və Qərbi kortəbii şəkildə təqlid etmək kimi milləti savadsızlığa, cəhalətə sürükləyən çürük ideologiya təbliğ olunurdu. Mehmed Akif də bu eybəcərlikləri özünəməxsus tərzdə ifşa edirdi.

Şairin "Süleymaniyyə Kürsüsündə" adlı əsərində bir vaizdən bəhs edilir. Bu vaiz Rusiyaya gedir və orada bir mətbəə açır. Xalqı savadlandırmaq, elm sahibi etmək məqsədilə hər gün yeni-yeni yazılar yazır. Fəqət Türkiyədəki vəziyyətdən məmnun qalmayan şair vaizin dili ilə bunları söyləmişdir:

Medeniyyetteki insanlar için Matbuat,
Şimdi kürsilerin en yükseği, lakin, heyhat,

Sizde hiç böyle değil, belki tamamen aksi:
En fena bir cereyan gösteriyor en iyisi. (35, 148)

Mehmed Akif Rusiyadakı müsəlmanların çox ağıllı və tədbirli olduqlarını üstün bir cəhət kimi qiymətləndirmişdir. Belə ki, vaiz orada çap etdiyi qəzetləri beş-on fədakar insanlarla paylaşır və eyni zamanda imkansızlara yardım edir:

Agniya altını bezletti etekler dolusu...

Açtık oldukça güzel medreseler, mektepler;
Okuyup yazmayı ta'mime çalıştık yer yer.
Tatarın yüzde bugün altmışı hakkıyle okur;
Rusların halbuki nisbetleri gayet dündür. (35, 149)

Mehmed Akif vaizin dili ilə öz arzularını dilə gətirmişdir. Rusiyadakı müsəlmanların vəziyyətini təsvir edən şair rusların yetmiş faizindən çoxunun oxuyub yaza bilmədiyni, lakin ziyalıların onları savad almağa dəvət etdiyini xüsusi olaraq vurğulamışdır. Nəticədə əhalisinin böyük bir hissəsi avam, savadsız olan Rusiya ayağa qalxmış və dünya dövlətləri sırasında da öz yerini tuta bilmişdir. Buna səbəb isə Mehmed Akifin toxunduğu ziyalı-xalq münasibətlərinin cəmiyyətdə baş verən hadisələrin gedişatına, xalqın kütlə halında deyil, millət kimi formalaşmasına göstərdiyi təsir idi. Şair türk millətini də belə görmək istəyirdi. O bilirdi ki, milləti millət kimi yaşadan onun elmi, təhsili və maarifidir. Qurtuluş da məhz bu yoldadır.

Mehmed Akifin maarif haqqında söylədiyi əhəmiyyətli fikirlərindən biri də yeni, cəhalətdən uzaq bir nəsil yetişdirmək yolunda tələb olunan maddi imkanlar haqqındadır. Onun fikrincə, maarif yolunda heç bir məsrəfdən boyun qaçırmaq olmaz. Çünki əsl sərmayə elə təhsilin özüdür. Qeyd edilənlərə əsaslanıb, yekun olaraq Mehmed Akifin maarifçi ideyalarını bu şəkildə sistemləşdirmək olar:

1.Təhsildə əzbərçilik, təqlid və təkrarçılıqdan uzaqlaşma;

2.Milli dəyərlərə əsaslanan və mənəviyyata xələl gətirməyən

təhsil sisteminin yaradılması;

3.Avropa standartlarına uyğun məktəb və təhsil müəssisələrinin yaradılması;

4. Vicdanlı müəllim və elm adamlarının bu işə cəlb edilməsi.

Bunlar isə Türkiyənin maarif sahəsində həll olunması gərəkən problemlər idi. Mehmed Akif bunların həlli yollarını da göstərməyə çalışmışdır. Əslində bu problemlərin qaldırılması təhsil sistemində ciddi islahatların həyata keçirilməsini tələb edirdi.

Ölümündən yarım əsrdən çox bir zaman keçməsinə baxmayaraq, Mehmed Akif yaradıcılığındakı maarifçilik ideyaları, ziyalı-xalq münasibətləri əhəmiyyətini itirməmişdir.

XIX-XX yüzilliklərdə Türkiyə cəmiyyətində ziyalı və xalq arasında bir sıra məsələlərdə uçurum məqamlar mövcud idi. Belə bir zamanda yaşayan M.Akif də bu məsələlərə öz münasibətini bildirərək sosial baxımdan bunların necə fəsadlar törədə biləcəyini öz əsərlərində dönə-dönə vurğulamışdır. Onun fikrincə, belə bir zamanda xoşagəlməz halların aradan qaldırılmasında ziyalıların böyük rolu olmalıdır. Bununla bərabər, şair cəmiyyətdə baş verən bəzi çatışmazlıqlarda ziyalıların da günahı olduğunu qeyd etmişdir. Bununla da o, ziyalı təbəqəsinin xalqdan xeyli aralı düşdüyünü göstərmək istəmişdir.

Başı boş kaldı mı, zira şaşırıp ber-mutad,
Bulamaz kendiliğinden yolu asla efrad
Yalınız gösterilen yol tutacak yolsa gider;
Hissidir çünkü onun azmine dâim rehber. (35, 170)

Fəqət M.Akifə görə ziyalı təbəqə belə bir üstünlük göstərə bilməmişdir. Çünki xalqın hissiyyatını heçə sayaraq tutduqları yanlış yolda gedən ziyalı təbəqəsi bu dövrdə müvəffəqiyyət qazana bilməmişdir. Cəmiyyəti bir vücuda, bir orqanizmə bənzətsək, beyinlə (ziyalı) vücudun (xalqın) bir təzad yaşadığını, nəticədə isə iflic durumuna düşdüyünü M.Akifin də əsərlərini oxuyaraq anlaya bilərik.

Sizde erbab-ı tefekkürle avamın arası
Pek açık. İşte budur bence vücudun yarası.
Milletin beyni sayarsak mütefekkir kısmı,
Bilmemiz lâzım olur halkı da elbet cismi. (35, 167)

Bu cür istənməyən şəraitin yaranmasında əsas səbəb, ziyalının yeniləşmə adına sosial və mənəvi dəyərlərə laqeyd yanaşması, qeydsiz-şərtsiz Avropanı təqlid etməyi tək çıxış yolu olaraq görməsidir.

Garbın efkarını mal etmeli şark'ın beyni;
Duydular çıkmalı hep aynı kalıptan: yani:
İçtimâî, edebî, hâsılı her mes'elede,
Garb'ı taklîd edemezsek, ne desek beyhûde. (35, 225)

Osmanlı dönəmində yaşayan ziyalılar Avropa ilə xalq arasında böyük ayrılıq olduğunun fərqində idilər. Amma bunu göz ardı

edən ziyalılar yaşadıqları cəmiyyətə arxa çevirərək xalqla bərabər yeniləşmə yolunda addımlamaqdansa tək başına, hətta inanc sistemini də heçə sayaraq irəliləyirdilər. Əlbəttə ki, bu hərəkət də xalqı özündən çıxarır, ziyalı ilə düşmən halına gətirirdi. Ziyalının hər şeyi bir həmlədə silib, yeniləşmə yoluna giriləcəyi düşüncələri onun sosial həqiqətlərdən, hətta mənəvi dəyərlərindən uzaqlaşması ona qarşı nifrəti hər gün bir az daha artırırdı. Kəndlərindən müəllimini qovan kəndlilərlə danışan Akif müəllimin davranışları haqqındakı sözlərdən xalqın haqlı olduğunu anlayır. Akifə bəhs edilən kənd müəlliminin təsviri budur:

Geberir, camie girmez, ne oruç var, ne namaz;
Güsul abdestini Allah bilir amma tanımaz.
Yola gelmez şehirin soysuzu, yoktur kolayı.
Yanılıp hoşbeş eden oldu mu, tınmaz da ayı,
Bir bakar insana yan yan ki, uyuz olmuş manda,
Canı yandıkça, döner öyle bakar nalbanda. (35, 358)

Daha bir çox mənfi davranışları sadalanan kənd müəlliminin vəziyyəti, geyim- gecimindən zehniyyətinə qədər hər şeyi xalqa yaddır. Xalqa bu qədər yad bir zümrənin cəmiyyət tərəfindən mənimsənilməsi mümkün deyil.

Mədəniyyət adı altında xalqın İslami çərçivədə formalaşmış dünyagörüşünü gözardı edən ziyalılar xristianlarin mədəniyyət anlayışını və dünyagörüşünü mənimsəyərək xalqı özündən küsdürmüşdür. Nəticədə xalqın yeniliyə qarşı çıxmalarına səbəb ol-

muşlar.

Görenek neyse, onun hükmüne münkaad olarak,
Garb'ın efkarını, asarını düşman tanımak: (35, 168)

Yeniliyə qarşı olan xalqın ziyalılara olan nifrəti bütün cəmiyyətə təsir etmişdir. Çünki qapılarını yeniliyin üzünə bağlayan bir toplumun mövcud dünya standartlarında varlığını sağlam bir şəkildə davam etdirməsi imkansızdır. Xüsusilə də yüksək cəmiyyətin təməlini qoyan elm və texnikaya qarşı meydana çıxan mənfi reaksiya türk toplumunun inkişafına mane olmaqdadır. M.Akifi də qorxudan əsas məsələ elə budur. Şairin bir fəlakət olaraq adlandırdığı ziyalı – xalq ayrılması və xüsusilə də ziyalının sözünün eşidilməməsi ən dəhşətlisi də xalqın elmə qarşı çıxması dözülməz bir hal idi.

Bir felaket bu gidiş... Lakin işin berbadı:
Mütefekkir geçinenlerdeki taşkınlıktan.
Geldi efkâr-ı umûmiyyeye mühlikbir zan:
"Bu fesâdın başı hep fen okumaktır" dediler;
Onu mahvetmeye kalktılar artık bu sefer. (35, 168)

Xalq ziyalı qütbləşməsinin bu şəkildə dərinləşməsi, xalqın nə qədər yaxşı olursa-olsun, yeniliyə məhz yeni olduğu üçün qarşı çıxmasına; nə qədər lüzumsuz olsa da köhnə adət-ənənələrə də dədə-babadan qaldığı üçün möhkəm sarılmalarına səbəb ol-

muşdur. M.Akifin də qeyd etdiyi kimi bu hal cəmiyyətdə sosial varlığın əleyhinə olan bir davranışdır ki, onu xarici aləmdən qopararaq inkişafına mane olur, nəticədə də ətalətə sürükləyirdi.

M.Akif ortaya çıxan ictimai tablonu məharətlə əsərlərində əks etdirir və bunun həlli yollarını göstərərək hər şeydən öncə ziyalının sahib olduğu inanc sistemi çərçivəsində fikirlərini dəyişməsinin lazımlığını vurğulayır. Yenilik və Avropalaşma tərəfdarı olan ziyalı hərəkət etdiyi yolda bir çox xətalara düşmüşdür. Onlar köhnə adət və ənənəyə, xalqın inandığı şeylərə xor baxaraq, bir tərəfdən də bayağı söz və davranışlara yol verirdilər.

İbadullahı saptırdın, fakat bir yolmu göstərdin?
Görürsen nerde bir namus fuhuş-abada gönderdin
Sezersen kimde na-merdane bir fıtrat kanat gerdin. (35, 368)

Ziyalının yıxmaq istədiyi dəyərlərin yerinə təklif etdiyi yeni dəyərlər anlayışı ilə cəmiyyətdən hər zaman mənfi reaksiya görmüşdür. Hər şeydən əvvəl sosial inkişafın və bütünlüyün yaranması mərhələsində əsas rol oynayan ziyalı verdiyi təkliflərlə son dərəcə səthi və milli mədəniyyətdən uzaq qalaraq yanlış yol tuturdu.

Akifin yaşadığı dönəm sosial dəyişmənin bir zərurət olduğu, toplum istəsə də, istəməsə də bunu qəbul etmək məcburiyyətində qaldığı bir dövrdür. Belə bir dəyişimin başçıları toplumun münəvvər təbəqəsidir. Ancaq bu təbəqənin (əlbəttə ki, hamısı deyil) Avropa qarşısında duyduğu heyranlıq və bu heyranlığın gətirdiyi özünü kiçik görmə duyğusu, ziyalının mənsub

olduğu cəmiyyətə qarşı cəbhədə olmasına və malik olduğu mənəvi dəyərlərin tərəqqini əngəlləyən ünsürlər kimi görməsinə səbəb olmuşdur. Ziyalının bu yöndə hərəkəti haqlı bir şəkildə xalq tərəfindən rədd edilmişdir.

Bütün bu xoşagəlməz hallardan qurtulmaq və sosial inkişafı gücləndirmək üçün xalq-ziyalı birliyi mütləq vacibdir. Bu düşüncəni dəstəkləyən Akif Almaniya səyahəti zamanında bunun ən gözəl örnəyini müşahidə etmişdir.

"Beyin"le "kalb"i hem-aheng edip de işleteh
Atıldı vahdet-i milliye sakfının temeli.
O vahdet işte tüm ihtişamınızdaki sır,
Cihana ra'şe veren ses onun sadalarıdır. (35, 301)

Digər tərəfdən M.Akif, ziyalı təbəqəsinin "qınına çəkilməsi" və xalqdan qoparaq özünə görə bir dünya qurmasından şikayətlənir. Çünki bunun nəticəsində ziyalı ilə xalq arasında bir ünsiyyət vasitəsi olan mətbuat xalqa təsir göstərmirdi. Bunun da günahkarı əlbəttə xalq deyildi. Çünki xalq mətbuatdan xəbərsiz idi. Göründüyü kimi, cəmiyyətdə ziyalı təbəqəsinə inam və güvən olmadığı üçün onların ortaya qoyduğu əsərlərə qarşı da laqeyd idi. Ziyalı təbəqə də ətrafını aydınlada bilməyən bir güruh olaraq qalırdı. Toplumdan qoparaq yadlaşmasına baxmayaraq öz aləmlərində vəzifələrini yerinə yetirdiyini düşünən ziyalıları görən M.Akif Rusiyaya dönərək xalq-ziyalı əlaqələrinin örnəyini göstərərək əskikliklərin düzəldilməsini arzu edir. Belə

ki, M.Akifin qeyd etdiyinə görə xalqın yetmiş faizi oxuma-yazma bilməyən Rusiyada ziyalılar israrla xalqa yönəlmiş, onlarla yaxından maraqlanaraq, sosial bütünlüyü qorumaq baxımından xalqı bilgiləndirməyə çalışmışlar. Nəticədə Rus xalqında müəyyən bir irəliləyişin yarandığını, vəziyyətin qiymətləndirə biləcək bir səviyyəyə gəldiyini qeyd edir. Ölkəsində isə buna bənzər ən kiçik bir örnəklə rastlaşmadığını və bu səbəblə də istənməyən halların, sosial çevrənin ortaya çıxdığını göstərir. Xüsusilə də toplumda müəyyən mövzularda birliyin olmamasını buna bağlayır. M.Akif "Məqaləyi-Hasbihal" məqaləsində "Bu gün Anadolu və Rumeli kəndliləri məşrutiyyət, hürriyyət və müsavat deyildiyi zaman və anlayır? Nə duyur? Və indiyə qədər onlar bunu ciddi şəkildə anlatmaq istəyən, anlatmağa çalışan oldumu? Aralarına girib fəhləlik edərək bu işi icra etmələrini söyləmirəm. Çünki İstanbulun rütubətli və nazik havasında yetişən incə su çiçəyi irfan əhlimiz onlar kimi məşəqqətli işlərə dözə bilməz. Heç olmasa millətin böyük bir hissəsini nəzərə alaraq yazı yazanlar oldumu?" (85, 109)

Yazıdan da gördüyümüz kimi, ziyalı, xalqı gözardı edərək fəaliyyət göstərir. Elmi əsərlərin başa düşülür bir şəkildə yazılmaması, xalqın maariflənməsi üçün istənilən qayğını göstərməməklə yanaşı, toplumun hisslərinə tərcüman olunması umulan ədəbiyyatçılar da üzərilərinə düşən vəzifələri yerinə yetirmir.

Ne kaldı? Bir edebiyyatımız mı? Va-esefa

Bırak ki ettiği yoktur bir ihtiyaca vefa;
Ya ruh-i milleti afsunluyor uyuşturuyor,
Ya sinelerdeki hislerle çarpışıp duruyor!   (35, 304)

Ədəbiyyatın, sənətin və elmin sosial həyata yönəlik əsərlər verməsi vacibdir. Çünki cəmiyyətin duyğu və düşüncələrinə, ideallarına sənətin gücü ilə təsir etməsi əsl qayə olmalıdır. Bunun xaricində ortaya qoyulan əsərlər isə xoşagəlməz məsələlərin dərinləşməsinə səbəb olacaqdır. M.Akif bütün bunların fərqindədir və cəmiyyətə yönələrək onun sosial problemlərinin üzə çıxmasında və həllində əlindən gələni əsirgəməmişdir. M.Akif ziyalı-xalq arasında meydana çıxan ziddiyyəti bir tərəfli olaraq ziyalıların üstünə yükləmir. O eyni zamanda xalqın da bu işdə böyük rolunun olduğunu qeyd edir, ziyalılar tərəfindən verilən fikirlərin doğruluğuna, ya da yanlışlığına baxmadan xalqın onu rədd etməsi də şairin diqqətindən yayınmamışdır. M.Akif bu ayrılığın toplumu içindən yeyib bitirməsinə səbəb olacağını bildirərək, müsbət fikirlərin və elmin inkişaf etməsi üçün təməlin xalqın hazırlamasının lazımlığını əsərlərində qeyd edir. Şair toplumda elmi inkişafın olmamasının bir səbəbini də burda görür:

Neye ilmin adı yok kaskoca millette bugün?
Çünkü efkar-ı umumiyye aleyhinde bütün:
Çünkü yerleşmek için gezdiği yerlerde fünun,
Önce gayetle büyük hürmet arar sonra sükun.   (35, 168)

Bütün bunların nəticəsində ziyalı və xalq bütünləşməsinin sosial inkişaf baxımından bir zərurət olduğu ortaya çıxdı. M.Akif bu mənada həm ziyalıların, həm də xalqın üzərinə böyük vəzifələr düşdüyünü söyləyir.

Belə ki, xalq və ziyalı arasından təzahür edən ayrılıqda əsas payı olan ziyalı təbəqəsi xalqından və sosial məsələlərdən uzaqlaşmadan xalqa dönməli ictimai birlik yolunda fəaliyyətə keçməlidir. Xalq da ziyalılar tərəfindən verilən fikirlərin tamamını rədd etmək yerinə müsbət olanların inkişafına şərait yaratmalı və ziyalılara qarşı küskünlüyü ortadan qaldırmalıdır. Əks təqdirdə cəmiyyətin hər fərdi bu vəziyyətdən zərər görəcək, nəticədə toplumda çöküşdən qaçınılmaz hal alır.

## 2.2.Cəmiyyətdə mənəvi dəyərlər

Tənzimat fərmanının qəbulu ilə başlanan "avropalılaşma" hərəkatı xalqın mənəviyyatına ciddi şəkildə təsir edirdi. İlk zamanlar geyim-gecim, ev və məişət əşyalarının dəyişməsi ilə təqlid edilən Avropa, daha sonra dilə və dinə böyük təsir göstərməyə başladı. Öz ana dilini bəyənməyib, əcnəbi dildə danışan, xalqa yuxarıdan aşağı baxan "ziyalı" təbəqəsi dindən də uzaqlaşmağa meyl edirdi. Cəmiyyətin bel sütunu olan milli əxlaq və adət-ənənəyə münasibət dəyişdi. Bu da yadlaşmaya yuvarlanmaq təhlükəsini artırırdı. Xalqla ziyalı təbəqəsi arasında yaranan uçurum artıq hər sahədə özünü biruzə verirdi. Mollaların cahilliyi üzündən insanların dinə münasibəti dəyişməkdə idi.

Bu qarışıq dövrdə hər zəkalı insan xalqını, millətini yaşatmaq üçün fikir irəli sürür, çıxış yolu axtarırdı. Kor-koranə Avropanı təqlid etməyə, cəmiyyətin inkişafında dini bir əngəl hesab edənlərə qarşı çıxan Ziya Paşa:

İslamlık imiş devlete pa-bende-i terakki
Evvel yoğidi işbu rivayet yeni çıktı.
Milliyeti nisyan ederek her işimizde,
Efkar-ı Frenge tebaiyyet yeni çıktı.

– deyə üsyan edirdi.

Mehmed Akif XX əsr Türkiyə milli və dini ədəbiyyatının ön sırada yer tutan mütəfəkkir şairidir. Cəmiyyətə təsir göstərən

hakim fikirlər içində dinə müstəsna qiymət verən Mehmed Akif dostları Said Halim Paşa və Əşrəf Ədiblə birlikdə

"Sırat-ı Müstəqim"i qurmuş və insanların şəxsiyyətini formalaşdıran vasitələrdən istifadə etməyə, onları bir əqidə ətrafında birləşdirməyə çalışmışdır.

1908-ci il II Məşrutiyyət Türkiyə tarixində yeni bir mərhələ idi. Ölkədə bir demokratikləşmə hərəkatı hakim idi. Bundan istifadə edən fikir adamları qəzet və jurnal səhifələrində öz ideyalarını təbliğ etməyə çalışırdılar. O zaman ortaya çıxan əsas üç ideya mövcud idi: osmançılıq, islamçılıq və qərbçilik. Bu barədə məşhur fikir adamı Yusif Akçuranın "Üç tərzi-siyasət" adlı əsərində geniş məlumat verilmişdir.

İslamçılıq hərəkatı XX əsrdə Türkiyədə Cəmaləddin Əfqani və onun tələbəsi olan misirli Məhəmməd Əbduhun adı ilə bağlıdır. 1908-ci ildən sonra qazanılan söz azadlığı hər sahədə özünü göstərirdi. Artıq islamcılar da iki qrupa ayrılmışdılar:

1) qatı ənənəci islamçılar;

2) modernist islamçılar.

"Ədəbiyyatda panislamist ideyalarını təbliğ edən, islam dinini ideallaşdıran, öz xalqına deyil, bütövlükdə islam ümmətinə müraciət edən bir qrup türk yazıçıları, məşhur şair Mehmed Akifin rəhbərliyi altında bir ideya ətrafında birləşmişdilər. Bu insanlar öz əsərlərində islam ideyalarının təbliğinə çalışmış, maarifləndirici ideyalar ilə birləşdirməyə cəhd etmişlər. Bu şəkildə onlar islam aləminin inkişafı üçün elm və texnikanın da öyrənilməsi vacibliyini vurğulamışlar." (82,198)

Mehmed Akif "Sıratı- müstəqim"də C.Əfqanidən və M. Əbduhdan tərcümələr dərc etsə də, onların fikirlərini təqlid etmir, özünəməxsus islami görüşlərə malik, bir qədər modernist islamçılara yaxın düşüncə nümayiş etdirirdi. O islamiyyətə fərqli nəzərlə baxırdı. "Akifə görə din, sadəcə ibadət və etiqad ünsürü deyildir. Dünyəvi keyfiyyətləri ilə cəmiyyəti tənzimləyən, ona bir dinamizm qazandıran potensiala malikdir. Elə buna görə də Akif əvvəlcə Osmanlı İmperiyasını bütün müsəlmanları qoruya biləcək bir İslam dövləti olaraq görmək istəmiş, onun parlaq dövrlərində cəmiyyətdəki prosesləri və qəhrəmanları ucaltmış, daha sonra, çöküş səbəblərini araşdırmışdır." (79, 184)

Mehmed Akif dini məzmunlu şeirlərinin çoxunu Misirdə yaşadığı zaman, İstanbula qayıdıb-qayıtmaması ilə bağlı tərəddüd keçirdiyi bir dövrdə yazmışdır. Həmin şeirlər (Səcdə", "Gecə" və "Hicran) ilk dəfə "Sebilür-rəşad" məcmuəsinin 5, 10 və 15 yanvar 1926-cı il tarixli saylarında dərc olunmuşdur.

Əvvəlcə "Sırat-ı Müstəqim"də, daha sonra, "Safahat"ın birinci kitabında nəşr olunan "Fatih Camisi" şeiri Mehmed Akifin yaradıcılığında yeni bir mərhələnin başlanğıcı idi. "Türk şeir dünyasına fərqli bir səs, klassik dövrün içində olduğu üçün hiss edilməyən, daha doğrusu, hava və su kimi həyatın bir parçası olan, ancaq Tənzimatdan sonrakı dövrdə yavaş- yavaş həyat damarlarındakı hərəkəti azalan, hətta "Sərvət-i fünun"la həyatıın və ədəbiyyatın yoxluğundan quraq çölə dönən din yenidən və fərqli şəkildə ədəbiyyata daxil olur. Mehmed Akif imanı, ibadəti, camini aktual bir məsələ olaraq Türk şeirinə qazandırır. Onunla

türk fikir və sənət həyatı yox olmuş və ya hərəkətsiz qalmış bir nümayəndəsini yenidən qazanır." (99, 53-54)

M. Akifin 1895-ci ildə yazdığı "Qurana xitap" adlı şeiri "Məktəb" adlı jurnalda dərc olunmuşdur:

İbret olmaz bize, her gün okuruz ezber de!
Yoksa, bir maksat aranmaz mı bu ayetlerde?

Ya açar nazm-ı celilin, bakarız yaprağına;
Yahud üfler, geçeriz bir ölünün toprağına.

İnmemiştir hele Kur'an, bunu hakkiyle bilin,
Ne mezarlıkta okunmak, ne de fal bakmak için! (36, 155)

Şair "Safahat"a daxil olan əsərlərində islami düşüncələrə üstünlük vermişdir. "Süleymaniyyə Kürsüsündə" şair İslam dininin cəmiyyətdəki yerini bir vaizin dilindən belə anlatmışdır:

Kimdi Kürsüdeki? Bir bilmediğim pir amma,
Hiç de bigane deyil kalbe o cazip sima. (36, 146)

Burada vaiz Rusiyadakı türklərdən Əbdürrəşid İbrahim bəydir. O, bütün dünyanı gəzmiş, türklərin və müsəlmanların vəziyyəti ilə tanış olmuşdur. Müsəlmanların gerilik səbəblərini araşdırıb, çarələr düşünmüş, getdiyi hər yerdə bunları təlqin etməyə çalışmışdır. "Haqqın səsləri" əsərində isə bəzi ayə və

hədislərin açıqlaması ilə türk xalqını dini birliyə, qurtuluşa və inkişafa çağırır.

Mehmed Akif "Süleymaniyyə Kürsüsündə"n fərqli olaraq, "Fatih Kürsüsündə" adlı əsərində əxlaq, mərifət və fəzilət mövzularını daha dolğun və sistemli bir şəkildə əks etdirmişdir.

Əsərlərini və həyatını tədqiq etdiyimiz zaman Mehmed Akifi çox zaman camilərdə vəz edərkən görürük. Şair üçün cami bir məbəd deyil, məbuda yüksəlmiş ibadət yeridir. O zamanlar "Akifin dünyagörüşü cami divarlarını aşa bilməmişdir",- deyənlər də çox idi. Çünkü o, camilərdə verdiyi vəzlərdə cəmiyyət məsələlərini ön plana çəkirdi və həqiqətən də, türk milləti üçün əsl hidayət yolunu İslam dininin ətrafında birləşməkdə görürdü. "Müdəssir" surəsindəki – "Ey örtülərinə bürünən! Ayağa qalx və ətrafını Quranla işıqlandır!" ayəsini öz şeirində cəmiyyətin tək qurtuluş yolu kimi izah etmişdir:

Doğrudan doğruya Kur'an'dan alıp ilhamı
Asrın idrakına söylətməliyiz İslam'ı      (36, 381)

İnsan oğlu dünyaya göz açdığı gündən sosial mühitin içində, cəmiyyətin bir fərdi olur. İnsan bu sosial mühit içində gördüyü nümunəvi davranışlar, aldığı təlim və tərbiyə ilə şəxsiyyəti formalaşır və bir xarakter olaraq ortaya çıxır. İslama görə, Allah (c.c.) yaxşını və pisi yaratmış, insana da bunları bir-birindən ayırd etmə qabiliyyətini vermişdir. Allahın yaradılışdan etibarən insana verdiyi bu qabiliyyətlə, insanın cəmiyyətdə qazandığı şəxsiyyət

onda əxlaqın formalaşmasına səbəb olur.

Akif əxlaqın və fəzilətin qaynağını İslamda görür. Şair "Xatirələr" adlı şeirində insanda görülən gözəl əxlaqın mədəniyyət və vicdandan deyil, Allah qorxusundan meydana gəldiyini və formalaşdığını irəli sürür. Çünki şair qəlblərdə Allah qorxusu olmadığı zaman nə vicdanın, nə də mədəniyyətin təsirinin olmayacağını, olacağını düşünür.

Ne irfandır veren ahlaka yükseklik, ne vicdandır;
Fazilet hissi insanlarda Allah korkusundandır.
Yüreklerden çekilmiş farz edilsin havfı Yezdan'ın...
Ne irfanın kalır te'siri kat'iyyen, ne vicdanın. (35, 307)

M.Akifə görə bir toplumun fərdlərinin vicdanlarındakı Allah qorxusu ilə o cəmiyyət dünyaya sahib olar.

O cem'iyyet ki vicdanında hakim havf-ı Yezdan'dır;
Bütün dünyaya sahibtir, bütün akvama sultandır. (35, 308)

Şairin dostu M.Camal Kuntay da Akifin "Dindar olmasaydım, gəncliyimdə əxlaqsız ola bilərdim, fəzilətin ictimai bir məfhum halına düşmədiyi gənc yaşda insanı din tutar" dediyini kitabında nəql edir. (72, 250)

M.Akif "Müsəlmanlıq xasiyyətin gözəlliyindən ibarətdir"-hədisi ilə başlayan şeirində millətləri yaşadan və ya məhv edən əsas ünsürlərdən birinin əxlaq anlayışı olduğunu söyləyir. O,

müsəlmanların keçmişdə böyük bir gücə malik cəmiyyət qurduqlarına, amma daha sonra bu cəmiyyətin yavaş-yavaş dağılmağa üz tutduğunu qeyd edərək, səbəbini əxlaq səviyyəsinin düşməsində görür.

Gökten inmez bir de hiçbir şey… Bütün yerden taşar;
Kendi ahlakıyle bir millet ölür, yahud yaşar. (35, 319)

M.Akif şeirində nadanlığın əlaməti olaraq cəmiyyətdə yüksək dəyərlərin itirilməsini göstərir. Belə ki, zalımı güclü olduğu üçün dəstəkləmək, ədalətə arxa çevirib haqqa sahib çıxmamaq, şəxsi ehtirasların arxasına düşmək, yalan sözdən, yalan vəddən çəkinməmək və bu kimi mənfi xüsusiyyətlərin üzərində duraraq onları ağır bir dillə tənqid edir və cəmiyyətin düşdüyü vəziyyəti bir tablo olaraq şeirlərində əks etdirirdi. Bütün bu əxlaqsızlığın nəticəsi olaraq, Türkiyədə toplumun ayaqlar altına düşərək tapdalandığını və bu alçaqlığa layiq olduğunu içi yanaraq söyləyir.

Çiğnenirsek biz bugün, çiğnenmek istihkaakımız:
Çünkü izzet nerde, bir bak, nerdedir ahlakımız.
Müslümanlık pak siretten ibaretken, yazık!
Öyle saplandık ki, levsiyyata: Hala çıkmadık! (35, 320)

Şair dünyada meydana baş verən müharibələrin, zəlzələlərin, selin, quraqlıq, qıtlıq, yoluxucu xəstəliklər və s. müxtəlif fəlakətlərin bir milləti iqtisadi yöndən zəiflədə biləcəyini, fəqət millətin mənəviyyatının və quruluşunun dağılmasına səbəb olma-

dığını şeirlərinə açıqlayır. Belə ki, millətləri yaşadan əsas amilin milli əxlaqın olduğunu, bunun da milli ruhu bəslədiyini söyləyən şair, əxlaqın çöküşünü millətin yox olması ila nəticələnəcəyini:

Fakat, ahlakın izmihlali en müdhiş bir izmihlal;
Ne millet kurtulur, zira, ne milliyet, ne İstiqlal.
Oyuncak sanmayın! Ahlak-i milli, ruh-i millidir;
Onun iflası en korkunç ölümdür: Mevt-i küllidir. (35, 307)

-misralarında ifadə edir.

Mehmed Akif cəmiyyətdəki neqativ halların yaranma səbəbini cahillərin çoxalmasında, mollaların savadsızlığında, Quranın əhaliyə lazımi şəkildə öyrədilməməsində görürdü. Qurana böyük hörmət və sevgi ilə yanaşan türk milləti ilə onun arasına sanki görünməz, fəqət güclü bir maneə girmişdir.

O, "Fatih Kürsüsündə" adlı kitabında tənbəlliyin, cəhalətin cəmiyyətə necə böyük zərər vurduğunu aydın şəkildə göstərmişdir. Cəmiyyətdəki mənfilikləri göstərən şair bu məqamda Sədi Şirazi yaradıcılığından da nümunələr verərək nəsibini axtaran bir qələndərin başına gələnləri anlatmışdır:

Senin şu halini Sa'di ne hoş hikaye eder...
İşittiğin olacak ya... Neyse, dinleyiver: (36, 238)

M. Akifin fikrini əsaslandırmaq üçün bu hekayətin məzmununu şərh edərək göstərir ki, bir qələndər çalışmadan, yırtıcı aslan sayəsində qarnını doyuran xəstə tülkü kimi ruzisi-

nin ayağına gələcəyini düşünmüş və mağaranın önünə yataraq sadəcə təvəkkül etmişdir. Bir neçə gün ac-susuz qaldıqdan sonra taqətdən düşmüşdür. Ölüm yuxusu onun xəyalını qarışdırmış, bu zaman qeybdən gələn bir səs onu ayıltmışdır:

Dolaş da yırtıcı aslan kesil behey miskin!
Niçin yatıp, kötürüm tilki olmak istersin?

Elin, kolun tutuyorken çalış, kazanmaya bak,
Ki, artığınla geçinsin senin de bir yatalak. (36, 239)

Mehmed Akif burada millətə çox gözəl bir dərs verir və şeirin davamında Hz. Ömərin də təvəkkülü çox yaxşı bildiyini, fəqət heç durmadan çalışdığını örnək verir. Şair tənbəlliyi tənqid edərək çalışmayan, fərsiz insanları onun- bunun qabına düşən ölü milçəyə bənzədir. Mehmed Akif bunun səbəbini cəhalət və islami dəyərlərin öyrənilməməsi ilə əlaqələndirmişdir:

Bakın ne hale getirmiş ki cehlimiz dini:
Hurafeler bürümüş en temiz menabi'ni. (36, 240)

"Quran"ı, sünnəni bir tərəfə bıraxıb yalandan peyğəmbərin adından cahilcə xürafatlar uydurub, bunu "savab" sayanlar, onun "kim mənim adımdan bilə-bilə bir hədis uydurarsa, gedəcəyi yer cəhənnəmdir",-hədisinə barmaqarası baxan namərdlər Mehmed Akifin tənqid hədəfinə tuş olmuşlar. Şair Quranın və

hədisin göstərdiyi təvəkkülün əhəmiyyətini açaraq, göstərir ki, əsl təvəkkül var gücünlə çalışdıqdan sonra, ediləndir.

Mütəfəkkir şair hökm sürən cəhalətin səbəbini məhz İslam dininınə düzgün qiymət verilməməsi, islami dəyərlərin lazımınca təbliğ edilməməsində görürdü. O, İslamın mükəmməl, elmə səsləyən bir din olduğunu əsərlərində ardıcıl qeyd etmişdir. Bir şeirində dediyi kimi:

“Çalış!” dedikçe şeriat, çalışmadın, durdun,
Onun hesabına birçok hurafe uydurdun!
Sonunda bir de “tevekkül” sokuşturup araya,
Zavallı dini çevirdin onunla maskaraya. (36, 233)

“Qismətim, qədərim budur”,-deyərək “tale” məfhumunu yanlış anlayaraq işdən-gücdən əlini-ayağını çəkənlərə, hər şeyi Allahdan gözləyənlərə M. Akif tarixdən misal gətirərək böyük Osmanlı İmperatorluğunun 600 illik hakimiyyətinin səbəbini İslam işığında fəaliyət göstəeib, sonra Allaha sığındıqlarına bağlamışdır.

O ihtişamı elinden niçin bıraktın da,
Bu gün yatıp duruyorsun ayaklar altında? (36, 269)

Mehmed Akif cəhalətdən qurtulmaq üçün cəmiyyəti Qurana sığınaraq yüksəliş yolunda çalışmağa sövq edirdi. Bu barədə, təkcə şeirlərində deyil, məqalələrində də yazırdı: “Biz aramızda

vəhdəti təmin edərək, cəmiyyət olaraq çalışmağa başlamalıyıq.” (49, 184)

Əxlaqa, mənəviyyata böyük dəyər verən şair İslam dininin dərindən öyrənilmədiyini və onun cahillər tərəfindən öz mənfəətlərinə uyğun olaraq açıqlanmasını “Xatirələr” adlı əsərində gözəl bir şəkildə anlatmışdır:

Sade bir sözdür fakat hikmetlerin en mücmeli:
Bir halas imkanı var: Ahlakımız yükselmeli.

Yoksa pek korkunç olur katmerleşip hüsranımız...
Çünki hem dünya gider, hem din, eger yapmazsanız.(36, 278)

Mehmed Akif yalnız dini yol ilə yüksək əxlaqa nail olmağın mümkünlüyünü qeyd etmişdir. O, dinsiz əxlaqa inanmır. Mehmed Akifin idealogiyasının əsas prinsipləri dini müəssisələrin yenidən qurulması, adət-ənənələrin qorunması və əxlaqın yüksəldilməsidir.

Ey millet, uyan! Cehline kurban gidiyorsun!
İslam’ı da “batsın!” diye, tutmuş, yediyorsun! (36, 194)

Cəmiyyətə yüksəliş yollarını göstərən Akif bunu sadəcə şeir və məqalələri ilə deyil, şəxsi həyatına şamil etməklə də nümunəvi

şəxsiyyət rolunu oynayırdı. Sözünün ağası olması, əmanətə gözü kimi baxması, dünya malında gözü olmaması, xalqı, milləti və bütün İslam aləmi üçün çalışması ilə şair öz simasında böyük əxlaq nümunəsini canlandırmışdır. Yaxın dostu Mahir İz onun haqqında qələmə aldığı Xatirələrində yazır: "Dostu Mehmed Akifə kim daha tez vəfat edərsə digəri onun övladlarına baxmağa söz versin",-demişdir. Doğrudan da, orada ikisi də söz vermişlər. Fəqət dostu öncə ölmüş və beş övladı Mehmed Akifə əmanət qalmışdır. Şair sıxıntılı günlərində belə dostunun övladlarını öz uşaqlarından ayırmamış, onlara atalıq etmişdir.

"İstiqlal marşı"na görə böyük məbləğdə mükafat alan Mehmed Akif pulu kimsəsiz uşaqlar cəmiyyətinə hədiyyə etmişdir... Bu, şairin əxlaqının nümunəvi cəhətidir ki, bu gün də türk xalqı böyük mənəviyyat sahibini ehtiramla yad edir.

Mehmed Akifin əxlaq və xarakterinin formalaşmasına Qura-nın böyük təsiri olmuşdur. İslam "Əsri-Səadət"ə qədər dərinləşən kökləri ilə yeni bir cəmiyyət qurmuşdu ki, onun da təməlində dünyəvi bir ədalət nizamı vardı. Mütəmadi Quran oxuyan, hədis-ləri təkrarlayan Mehmed Akif fərdin gözəl əxlaq sahibi ola bilməsi üçün imanlı olmasının vacibliyini söyləmişdir. Cəmiyyətdəki əxlaqsızlıqları yenə "Xatirəlar" adlı kitabında sıralayaraq;

Zulme tapmak, adli tepmek, hakka hiç aldırmamak;
Kendi asudeyse, dünya yansa, baş kaldırmamak;
Ahdi naksetmek, yalan sözden tehaşi etmemek;

Kuvvetin meddahı olmak, aczi hiç söyletmemek; (36, 278)

-deyə davam edir, riyakarlıqlığı, yalançılığı, saxtakarlığı tənqid hədəfinə çevirir. Milləti min bir adla parçalayıb bölənlər, arxada aslan, meydanda yaltaq pişik kimi boyun əyənlər şairin mənfi obrazları sırasında yer alırlar.

Ədəbiyyat, sənət adı ilə qəzet, jurnal və kitablarda mənəviyyatdan uzaq yazılar və açıq-saçıq rəsmlərlə qarşılaşan şair Şərqin min illik mədəniyyətini heç edənləri lənətləmiş, ürək ağrısıyla; "Müslümanlık bizden evvel böyle zillet görmedi!" misrasını söyləmişdir. "Süleymaniyyə kürsüsündə" adlı əsərində əxlaqı səviyyəsi olduqca aşağı olan ədiblərin ortaya qoyduqları zərərdən başqa heç bir faydasının olmadığını qeyd etmişdir.

Ne kaldı? Bir edebiyyatımız mı? Va-esefa,
Bırak ki ettiği yoktur bir ihtiyaca vefa;
Ya ruh-ı milleti afsunluyor, uyuşturuyor;
Ya sinelerdeki hislerle çarpışıp duruyor!
Şarap kokar (bütün) eslafın en temiz gazeli. (36, 304)

Şair cəmiyyətdə nə insanlıqdan, nə də müsəlmanlıqdan bir əsər qalmadığını, "Müslümanlık nerede! Bizden geçmiş insanlık bile...",-misrası ilə ifadə etmişdir. Bütün bunları göstərdikdən sonra islami fəzilətlərə sığınmağı tövsiyə etmişdir. O dövrdə dini birliyi pozub, nifaq salmaq kimi xalqa yad fikirlər cəmiyyətdə baş verən xoşagəlməzliklərdən biri idi. XIX əsrdə İslam dünyasında

dini pis əməllərinə alət edən bir çox Mehdi - qurtarıcı da zühur etmiş, guya, İslamı qorumaq üçün bir çox qruplar ortaya çıxmışdır. Ədəbiyyat tarixinə nəzər saldıqda bu cür halların şahidi oluruq. Məsələn, Mizancı Murat Bəyin məşhur "Turfanda mı, yoksa Turfa mı?" romanının qəhrəmanı Şeyx Salih liderliyini elan edərək böyük İslam birliyi qurmaq arzusunda idi. Bu cür halların cəmiyyətdə səciyyəvi hal alması, əlbəttə ki, M. Akifin nəzərindən qaçmamışdı. Bu barədə şair "Fatih Kürsüsündə" demişdir:

Zavallı Alem-i İslam için elim olacak!
Biz olmasak bu kadar hanüman yetim olacak!
Gıcırdamakla beraber serir-i şevketimiz,
Bu dini kurtaran ancak bizim hükumetimiz! (36, 249)

Yalnız şeirlərində deyil, nəsr əsərlərində və nitqlərində daxili qarşıdurmanın yerinə birlik, bərabərlik istəmiş, bu problemin həllində dövlətə güvənmişdir.

Mehmed Akifin söylədiyi – "Hökuməti rahat buraxın, istər müharibə edər, istər silah düzəldər, nə lazımdırsa ona qərar verər. Yalnız gəlin bizlər öz aramızda əbədi bir sülh bağlayaq" (101, 175),-fikrinin İslama əsaslanması şübhəsizdir. Çünkü İslamda da ədalətli dövlətə, hökumətə önəm verilir. Dövlət ədalətli olsa, cəmiyyətdə də ədalətsizlik ortadan qalxar.

İslam aləminin geriliyinin din adına çıxılmasının əsas səbəbinin cahil din adamlarının olduğunu Mehmed Akif çox yaxşı bilirdi. Amma müqəssir axtarmağın, günahları birinin üstünə

atmağın qətiyyən yaşanan problemin həlli olmadığını söyləyən ədib bu barədə Mövlanadan da misallar gətirir. Quranın həyat verən ruhundan və buyruqlarından uzaqlaşan millət, əlbəttə ki, hər cəhətdən zəifləməyə məhkumdur. Quranın cəmiyyəti islah edən əmrlərini yerinə yetirməyən müsəlman, onu fal və məzarlıq kitabına çevirmişdir. Sanki Quran sadəcə ölülərə lazımdır. Halbuki "Quran"ın, məzarlıqda oxunan "Yasın" surəsində məq-sədinin "diri olan, yaşayan hər bir insanı xəbərdar etmək, irşad etmək" olduğunu bildirir. Heyf ki, insanlar bunu başa düşmürlər.

Ölüler dini değil, sen de bilirsin ki bu din,
Diri doğmuş, duracak dipdiri,durdukça zemin. (36, 381)

Fəqət türk millətinin bunları çox yaxşı bildiyi və əməl etdiyi dövrlər olmuşdur. Bu gün isə unudulmuşdur. M. Akif müsəlmanlarla savaşa gələn minlərcə qeyri-müsəlmanın İslam mədəniyyətinin Günəşi olan Quranla tanışlıqdan sonra, İslamı qəbul etdiklərini dəfələrlə vurğulamışdır. İslamın bu parlaq dövrlərini yaxşı bilən məşhur Qərb alimi Ernest Renan yazırdı: "Bir mədəniyyətin dəyəri, elm və sənət həyatına verdiyi zənginliklərdə, həyata keçirdiyi ictimai ədalətdə isə İslamlığı, bilavasitə ilk beş əsrində, hətta XVIII əsrə qədər, dünya tarixinin ən qaynar dövrləri arasında görmək lazımdır." (109, 183)

Əlbəttə, bunun səbəbi "Quran"dır. Mehmed Akif yaşadığı cəmiyyətdə Quranın sadəcə xətm edilmək üçün oxunduğunun, tam mənasının dərk edilmədiyinin başqa bir səbəbini də ərəb

dilinin unudulub, fransız dili ilə əvəz olunmasında görürdü:

Kur’an ayak altında sürünsün mü, İlahi?
Ayatının üstünde yürünsün mü, İlahi?
Haç Ka’be’nin alnında görünsün mü, İlahi?
Çöksün mü nihayet yıkılıp koskoca bir din?
Çektirme, İlahi, bu kadar zilleti...
-Amin! (36, 264)

Mehmed Akif XX yüzilliyin başlanğıcında yeni məzmunlu idealogiyanın formalaşması istiqamətində ardıcıl iş aparan, ictimai fikri epoxal bir yüksəkliyə çatdıran şəxsiyyətlərdən biridir. Milli ruh, mənəviyyat, əxlaqi dəyərlər, elmi-fəlsəfi fikirlər, maarifçilik məramı, ictimai fəaliyyəti bütövlükdə Mehmed Akifin dünyagörüşünü əks etdirir. Bu dünyagörüşü isə əsasən onun ədəbi və ictimai fəaliyyətində, əsərlərində ifadə olunmuşdur. M. Akif cəmiyyətdəki xəstəlikləri realist fikirlərlə və “Quran”ı anlayaraq, onun işığında müalicə etməyə çalışırdı. Təhsil aldığı məktəbdə fizikanı, kimyanı və riyaziyyat fənlərini mükəmməl öyrənməsi, zəkası, müşahidə qabiliyyəti, analiz edə bilmə bacarığını qazandırdığı halda, “Quran” onun söykəndiyi məhəng daşı, rəhbəri olmuşdur. Ona görə də M. Akifin cəmiyyət problemlərini realist nöqtəyi-nəzərdən ələ aldığı əsərləri fotoşəkil mahiyyətində olmayıb, neqativliyin səbəb və çarələrini də əks etdirməkdədir.

O, geriliyin səbəbini dində görən cahil insanlara “Quran”ın, həm də peyğəmbərimizin elmi, yeniliyi öyrənməyi, fəziləti, gözəl əxlaqı, böyüyə hörməti, dürüstlüyü, çalışqanlığı, comərdliyi, vətənpərvərliyi, insansevərliyi və s. tövsiyə etdiyini təbliğə ça-

lışırdı. Məsələn, Qustav Le Bon demişdir: “Əziz dost, məni bu müəmmadan qurtar. Bu necə olur? Mən ərəb mədəniyyətini, İslam mədəniyyətini illərcə araşdırdım. Şərq ölkələrini gəzdim. Şəriətinizi xeyli öyrəndim. Baxıram ki, Allah peyğəmbərlərin ən ağıllısını sizə göndərmiş, kitabların ən yaxşısını sizin əlinizə vermişdir. İqlimlərin ən gözəli, torpaqların ən zəngini, insanların ən xeyirxahı, ən ağıllısı sizdə vardır. Belə olduğu halda, bəs niyə siz bu haldasınız? Bu səfalətinizin səbəbi nədir? Mümkün olsa da, sizə beş-altı il Şeyxülislam olsam, yurdunuzu cənnətə çevirərdim.” (61, 48)

Belə olduğu halda, din adı altında milləti xurafələrlə yatıranları zərərsizləşdirmək üçün Mehmed Akif qurtarıcı missiyasında Asımın nəslini görür. Ədib gənc nəslə böyük ümid bəsləyir.

Bizi kim kurtaracak, var mı ki bir başka nesil?
Asımın nesli, Hocam... (36, 387)

Şair gənc nəslin daha elmli, mənəvi dəyərlərinə bağlı, vücudu kimi imanı da qüvvətli, həssas, yüksək əxlaqi keyfiyyətlərə sahib olaraq yetişdiklərinə inanır və bunu qətiyyətlə söyləyir.

Göründüyü kimi, cəmiyyətdə nizamın olması üçün hər fərd üzərinə düşən məsuliyyəti dərk etməli və yüksək əxlaqi davranışlar sərgiləməlidir. Nəticədə cəmiyyətdə nizamın olması ilə yanaşı yüksək inkişaf da əldə etmək mümkündür.

Cəmiyyətdə baş verən neqativliklərin tədricən qəbul edilməsi normal hal kimi sosial varlığı getdikcə passivləşdirir, ortaya çıxan əxlaqi pozğunluğa və mənfiliklərə alışma davranışı daha da

artır. Xüsusilə bu bir qəzavü-qədərə bağlanırsa, vəziyyət daha da çətinləşir. Belə ki, hər şeyi talenin qisməti olaraq görən bir müsəlman bütün baş verən hadisələrin iradəsindən asılı olmayaraq, cərəyan etdiyini düşünür və qəbul edir. Bunun da təməlində çarəsizlik və iradəsizlik yatır. Belə bir anlayışın getdikcə yayılması, sosial laqeydliyə səbəb olur; cəmiyyət, sanki qobuğuna çəkilərək, hər şeyin öz-özünə nizamlanacağını və ya biriləri tərəfindən bunların qarşısının alınacağını umaraq mövcud vəziyyətə uyğunlaşır.

Böyük Osmanlı İmperatorluğunun gündən-günə zəiflədiyi, Anadolunun işğal edildiyi bir dövrdə, cəmiyyətin sosial mənzərəsi yuxarıda təsvir olunan kimi idi. Uzun illər davam edən savaşlar, məğlubiyyətlər cəmiyyətin passivləşməsinə, həm də sosial bir tənəzzülə səbəb olmuşdur.

Ne hüsrandır ki: Doldursun bugün tevhîdin enkâzı,
O, hâkinden nebîler fışkıran, iklîm-i feyyâzı!
Gezerken tavr-ı istîla alıp meydanda bin münker,
Şu milyonlarca îman "nehye kalkışsam" demez, ürker!

(35, 419-420)

Cəmiyyətdə sosial və mənəvi çürümə prosesi özünü göstərirdi. Mənəvi dəyərlərdəki aşınma əxlaq pozulmasına gətirmiş, bu da sosial varlığın davamı baxımından mənfi davranışların ortaya çıxmasına səbəb olmuşdur.

Silinmiş emr-i bil- ma`rufun artık ismi yadından

Hayâ sıyrılmış, inmiş: Öyle yüzsüzlük ki her yerde...
Ne çirkin yüzler örtermiş meğer bir incecik perde!
Vefâ yok ahde hürmet hiç, emânet lâfz-ı bî-medlûl;
Yalan râic, hıyânet mültezem her yerde, hak meçhûl.
Yürekler merhametsiz, duygular süflî, emeller hâr;
Nazarlarından toşan manna ibadullahi. (35, 419-420)

Sosial həyatın düzgün şəkildə qurulmasında rəsmi normalardan daha çox, sosial vicdanın diqtə etdiyi qeyri-rəsmi sosial normaların təsiri və gücü əsas və aparıcıdır. Neqativ davranışların cəmiyyət tərəfindən rədd edilməsi eyni davranışın təkrarlanmasını aradan qaldırır. Ancaq bunun həyata keçməsi üçün sosial vicdanın bir bütün şəklində təzahür etməsi lazımdır. Bunun əsas şərti isə cəmiyyətdəki yüksək əxlaqi-mənəvi dəyərlərə sahib olmaq və bu çərçivədə davranmaqdır. Bu baxımdan M.Akifin də vurğuladığı kimi, bir islam toplumunda "yaxşılığı əmr etmək, pislikdən uzaqlaşmaq" hər müsəlmanın ümdə vəzifəsi olmalıdır. Sosial bütünlük baxımından qəbul edilməyən ikiüzlülük, əhdə vəfa etməmək, əmanətə xəyanət, yalan danışmaq, baş-qalarını xor görmək və s. bu kimi davranışlar cəmiyyətdə mövcud olduğu təqdirdə, bunu ortadan qaldırmaq hər bir müsəlman üçün vacib məsələdir. Bu mənfi davranışların sosial həyatda çoxalması sosial heysiyyətin korlanmasının əsas göstəricisidir.

M.Akifə görə, cəmiyyətin yanlış istiqamətə yönəlməsinin əsas səbəblərindən biri də islama riayət edilməməsidir. Cəmiyyətdə nə sosial davranışlara, nə də islama mənfi davranışların möv-

cudluğuna baxmayaraq, müsəlmanlar laqeyd qalırdı. Halbuki bu cür davranışlar cəmiyyətdə fərdiyyətçiliyi gücləndirərək, bütünlüyü ortadan qaldırırdı. Sağlam bir ictimai quruluşun meydana gəlməsi və fəaliyyət göstərə bilməsi üçün əsas şərt, cəmiyyətin hadisələr qarşısında reaksiya verməsi, neqativliklərin aradan qaldırılmasında təsir mexanizmini işlədə bilməsidir. Bu, xüsusilə toplumun iş bütünlüyünü qorumaq və sosial quruluşun sağlam işləməyi baxımından son dərəcə vacibdir.

Bu cür sağlam bir quruluşun təməlində dinamik fərdlər durur. Sosial mənada uğur əldə edə bilmək cəmiyyəti təşkil edən fərdlərin topluma qarşı məsuliyyət daşıması ilə bağlıdır. Fəqət o günkü toplumda fərdlərdə bu məsuliyyət görünmür, tam tərsinə, hər kəs yaxasını bir kənara çəkərək günahı və məsuliyyəti başqasının üstünə atırdı. "Bizdə çox qəribə, bununla yanaşı çox pis bir təbiət var: Məsuliyyəti hamımıza aid olan xətaları və əyrilikləri ağız dolusu səhifə dolusu müzakirə etməklə vəzifəmizi bitmiş sanırıq; bu ictimai heyəti təşkil edən fərdlərdən biri olaraq ortaya çıxan yanlışlıq və pisliklərdən özümüzün də məsuliyyət daşıdığımızı heç xatırlamırıq. Məmləkətimizdə bir şərəfli iş görülsə, hər birimiz ən böyük payı özümüzə götürmək istəyirik; millətin şanını, heysiyyətini ləkələyən ictimai əyinti və əxlaqsızlıqların töhmətini isə heç birimiz yaxın buraxmırıq". (85, 130-131)

Osmanlı cəmiyyətinin quruluşu nəzərə alınırsa, fərdiyyətçiliyin yerinə, ictimai birliyi meydana gətirmək, bir hadisə qarşısında bu birliyi göstərmək son dərəcə çətindir. Mövcud şərtlərlə yanaşı, sosial formasiyanın inkişaf səviyyəsinin də aşağı

olması da buna şərait yaradır.

Şərq toplumlarının ümumi xüsusiyyəti olan avtoritar bir lider ətrafında bütünləşmə, Osmanlı cəmiyyəti üçün də xarakterikdir. Xalqın daima məsuliyyətdən qaçması və günahı başqalarında axtarması, ictimai bilginin nə qədər zəif olduğunun bariz nümunəsidir. Halbuki sağlam bir cəmiyyətin təməl şərtlərindən biri, bəlkə də, ən önəmlisi cəmiyyəti təşkil edən fərdlərin hadisələrə laqeyd qalmaması, doğrularda müsbət, yanlışlarda isə mənfi münasibət göstərməsidir.

Bu baxımdan M.Akifin tənqidləri yerində və doğrudur. Hər zaman günahı başqalarında axtarmaq, özündən uzaqlaşdırmaq, başqa səbəbkarlar göstərmək problemlərin həll yolu olmayıb, mövcud vəziyyəti daha da ağırlaşdıracaqdır. "Yaxşı bilməliyik ki, başımıza gələn fəlakətdə hamımız, bəli, istisnasız olaraq hamımız bir məsuliyyət daşıyırıq. Heç kim özünü kənara çəkmir. İndi hər kəs vicdanına qarşı bu fəlakətdən məsuliyyət daşıdığını etiraf edərsə, iş başqalaşır". (85, 190). Demək ki, sosial birliyin zədələnməsi fərdi plandakı məsuliyyət hissinin yox olmasından irəli gəlir. Bir sözlə, bütünlüyün sarsılmamasının şərti cəmiyyətdəki fərdlərin məsuliyyətlərini anlamaları və bunu fədakarca ifa etmələridir. İdeallar müəyyənləşib ortaq duyğu və düşüncələr çərçivəsində hərəkət edilməzsə, sosial problemlər həllini tapa bilməz. M.Akifə görə, cəmiyyəti meydana gətirən hər fərdin mütləq topluma verə biləcəyi bir şeylər vardır. Əsas olan fərdin ətalətdən çıxaraq cəmiyyət qarşısında məsuliyyət hissi duyması bu və ya digər dərəcədə əlindən gələni etməsidir. Bunu cəmiy-

yətdə görməyən Akif məqaləsində: "Osmanlı müsəlmanları yaxşı bilməlidirlər ki, dörd tərəfdən də mühasirəyə alındığımız fəlakətdə hər zaman məsuliyyət daşıyır. Əgər hər kəs istər öz nəfsinə, istər yaradanına, istər dindaşlarına, vətəndaşlarına qarşı mükəlləf olduğu vəzifələri yerinə yetirsə idi, bu müsibətlər, bu bəlalar olmayacaq, başımıza gəlməyəcəkdi" (85, 151)

Fərdlərin cəmiyyətdə aktivləşməsi ancaq sahib olduğu imkanlarla mümkündür. M.Akifin burada, fərdin həm özünə, həm cəmiyyətə, həm də inanclı bir insan kimi yaradana qarşı məsuliyyət hiss etməsi gərəkdiyini olduğunu qeyd edərək; onun hər halda aktiv vəziyyətə gəlməsinin vacibliyini vurğulayır. Beləcə, fərd laqeydlikdən uzaqlaşır. Çünki cəmiyyətdəki laqeydlik və hadisələrə qarşı biganəlik doğrudan da ciddi hal almışdır:

Duymamış kaygı denen duyguyu vicdanında
Okunur her birinin cebhe-i hüsrânında,
"Ne gelenden haberim var, ne gidenden haberim;
Serserî kevne gelelden beri sersem gezerim!" (35, 149)

İslam cəmiyyətində müsəlman olan hər bir fərdin ən əsas vəzifələrindən biri də cəmiyyətdə qarşılaşdığı xoşagəlməz hallarla mübarizə etməsidir. Ancaq mövcud sosial quruluşu meydana gətirən fərdlər belə bir dinamizmdən məhrumdurlar. Sosial laqeydlik çoxalmış, bunu qanuniləşdirməyin yollarını da tapmışlar, bu da tale və qədərdir, ilahi əmrin təcəllisidir.

Yıktı bir melun kalem namusu, bizler uymadık!
"Susmak evlâdır'" deyip sustuk... Sanırsın duymadık!
Kustu bin murdar ağız şer'in bütün ahkâmına;
Âh, bir ses bâri yükselseydi nefret nâmına!
Altı yüz bin can gider; milyonla îmân eksilir;
Kimseler görmez! Gören sersem de Allah'tan bilir! (35, 196)

Meydana çıxan bu vəziyyət İslamın verdiyi mesajlar ilə üst-üstə düşmədiyi kimi, mövcud tarixi həqiqətə də ziddir; sosial müqayisələrdə Akifin ən çox müraciət etdiyi qaynaqlardan biri də tarixi həqiqətlərdir. Çünki Akifə görə, tarix müsbət ya da mənfi hadisələrin şahid olduğu geniş bir sahə olduğu kimi, mövcud vəziyyətin qiymətləndirilməsi də keçmişdə baş verən hadisələrin analazi ilə mümkündür. Toplumun düşdüyü mövcud vəziyyətdə yanlış təvəkkül keçmişlə müqayisə edilərək bildirilməyə çalışılmışdır. Belə ki, keçmişin əzəməti ətalət və qədərə boyun əyməklə meydana gəlməmişdi.

Ecdadını, zannetme, asırlarca uyudu;  (35, 430)

Cəmiyyətin düşdüyü bu cür ətalət və biganəliyin nəticəsi isə dünya millətləri içərisində təsir gücünü itirmiş cəmiyyət bir vəziyyətinə düşməsidir. Bu isə möhtəşəm keçmişin yanında son dərəcə alçaldıcı bir haldır.

Dilenci mevkii, milletlerin içinde yerin!

Ne zevki var, bana anlat bu ömr-i derbederin?
Şimâle doğru gidersin: Soğuk bir istikbâl,
Cenûba niyyet edersin: Açık bir istiskâl!   (35, 232)

Nəticə olaraq, onu deyə bilərik ki, Akifə görə, cəmiyyət yalnış bir yol tutmuşdur. Bu vəziyyəti mühafizə etməyə çalışarsa, yəni sosial şərtlərin ağırlığını görərək, bunu qədərin bir təsəllisi olaraq görmüş və dünyaya qarşı mənfi bir mövqe tutmuşsa, mövcud vəziyyəti düzəldə bilməyəcəyi kimi, bəlkə, daha da qeyri-müəyyən şərtlərə məruz qalacaqdır. Bu cür qeyri-müəyyənliyə və neqativliklərə imkan vermək və ya dözmək isə səbr və ya təvəkkül ilə maskalanmamalıdır. Çünki islamın tövsiyə etdiyi bu deyildir, Akifə görə, müsəlmanlar səbr məfhumunu əsil hüviyyətindən fərqli olaraq tanıyır. Səbr deyildiyi zaman tənbəllik və boyun əymək başa düşülür. Hər şeyə etiraz etmədən qatlanmaq kimi başa düşülür! Dözülən və səbr edilən şeylər isə alçalma, təhqir olunma, döyülmə, söyülmə, bir sözlə insanlıq şərəfini ləkələyən hər cür mənfiliklərdir.

Sosial mənada ortaq duyğu, düşüncə və davranışların meydana gəlməsi sosial bütünlüyün əsasını təşkil edir. Sosial bütünlüyün həyata keçməsi üçün əxlaqi normalar yerinə yetirilməlidir. Ortaq dəyərlərdən ayrılmaq, fərdi mənfəəti uğruna yüksək dəyərlərdən uzaqlaşmaq bir cəmiyyətin qlobal bütünlüyü baxımından xoşagəlməz hallar doğurur. Akifə görə, əxlaqın bu şəkildə pozulması və mənfi halların ortaya çıxmasının səbəbini özümüzdə axtarmalıyıq.

Çiğnenirsek biz bugün, çiğnenmek imstehkaakımız
Çünkü izzet nerde, bir bak nerdedir ahlâkımız.
Müslümanlık pâk sîretten ibâretken, yazık!
Öyle saplandık ki levsiyyâta: Hâlâ çıkmadık! (35, 278)

Cəmiyyətdə ruh düşkünlüyü islami bilməməkdən və onu yalnış tətbiq etməkdən qaynaqlanır. Sosial əxlaq, cəmiyyəti meydana gətirən fərdlərin əxlaqlarının cəmi olduğu üçün iradəsi zəif olan fərdlərin cəmiyyətdə çoxalması hallarında ümumi əxlaq pozğunluğu qaçılmaz bir hal olacaqdır. Bəs görəsən, belə bir əxlaq pozğunluğundan bəhs edərkən hansı meyarlar əsas alınır. Yəni bir cəmiyyətdə əxlaqi bir aşınmadan bəhs etdiyimiz zaman hansı ölçülərdən yararlanacağıq və bu meyarlar nədir? Əlbəttə ki, hər şeydə olduğu kimi, əxlaqi normalar da zaman və məkan baxımından fərqlidir. Amma Akifin işarət etdiyi məqam zaman və məkandan asılı olmayan əxlaqi dəyərlərdir.

Zulme tapmak, adlı tepmek, hakka hiç aldırmamak;
Kendi âsûdeyse, dünyâ yansa, baş kaldırmamak;
Ahdi nakzetmek yalan sözden tehâşî etmemek;
Kuvvetin meddâhı olmak aczi hiç söyletmemek; (35, 278)

Göründüyü kimi, Akifin irəli sürdüyü xoşagəlməz əxlaqi aşınma qlobal bir məsələdir. Fərdiyyətçi duyğuların artması mənəvi dəyərlərdə meydana gələn tənəzzül ilə paralellik təşkil edir. İslamın əxlaq anlayışı və əxlaq normaları isə daima sosial

bütünlüyü dəstəkləyir. Həqiqətən cəmiyyətdə haqlı ilə haqsızı ayırarkən güclünün tərəfində durmaq, yəni ədalətli şəkildə davranmama toplumda küskünlük, kinlilik yaradacağı kimi, ədalət mexanizminə inam da yox olub gedəcəkdir.

Akifin qeyd etdiyi əxlaqi normalardan uzaqlaşan insan tipi o qədər çirkinləşmişdir ki, savaşdan sonra cəmiyyətdə səfalətin baş alıb getdiyi zamanda xalqın səfalətdə yaşamasına baxmayaraq, öz əyləncəsinə davam edən insan tipləri ilə müqayisə edilir:

Muhtekir kaafilesiymiş, ne edeb var, ne haya
Aç sefil inleyerek can veredursun dünya,
Yine siz dinlemeyin anlamayın matemini,
Sürün artık serilen yurdunuzun son demini. (35, 398)

Çətin və ağır şərtlərdə yaşayan toplum içərisində xoşbəxt azınlığın varlığı bu cəmiyyətdə sosial ziddiyyətlərə də səbəb olur. Belə bir sosial natarazlıq şəraitində sosial bütünləşmədən bəhs etmək mümkün deyil. Bunun səbəbi isə fərdlərin əxlaq pozğunluğudur. Millətin ən ağır günlərində millətlə bütünləşib mübarizə aparmaqdansa, tam tərsinə bir istiqamətə çəkilərək, maddiyyatını gücləndirərək və xalq səfalət içində ikən əyləncəyə dalmaq əxlaq davranışlarının nə səviyyəyə endiyini göstərir. Akifin ideal gənc olaraq seçdiyi Asımın bu tiplərə qarşı göstərdiyi sərt davranış, potensial şəkildə bir ölkənin təzahürü kimi qarşımıza çıxır. Burada islamın sosial təbəqələşməyi və siniflər arasında, ziddyətin İslamdan uzaqlaşmaqla nə qədər əlaqəli olduğunu daha yaxşı anlamaq mümkündür. Yardımlaşmağı əsas prinsip olaraq qəbul

edən və bu yöndə tövsiyələr verən, hətta İslamın irəli sürdüyü beş təməl əsasdan birinin (zəkat) iqtisadi yöndən məcburi olması çox önəmlidir. "Mən ən gözəl əxlaqı tamamlamaq üçün göndərildim", - deyən Hz. Peyğəmbər hər halda fərdin əxlaq və vicdan məsələsindən çox sosial birliyin tərəfdarıdır. Çünki əxlaqi normalarının əsas funksiyası da elə budur.

Bir tərəfdən də bu normaları aşanların içərisində ziyalı təbəqə də var. Bu məsələ də M.Akifin diqqətindən qaçmamışdır. Tofiq Fikrətin "Tarix-i Qədim" adlı əsəri yazıçılar, ziyalılar arasındakı əxlaq pozğunluğunun bariz nümunəsidir. Qadının sosiallaşması çərçivəsində digər əsas yönləri buraxıb onun dekalte geyimindən bəhs edilməsi Akifin sərt bir şəkildə reaksiya verməsinə səbəb olmuşdur:

Zangoça baş vurdular. O mecnun da
Mukaddesatına halkın ibada Ma'bud'a,
Savurdu pencerede havuz uğratırcasına
Gelip gelip tıkanan levsi pis kerihasına (35, 491)

Cəmiyyətdə davranışları nizamlayan, sosial əlaqələrin ahəngli bir şəkildə davam etməsini təmin edən əxlaq normaları hər zaman, hər toplumda olmuşdur. Bu əxlaq normalarından uzaqlaşma sosial bütünlüyün əleyhinə çevrilmişdir. Cəmiyyətdə əxlaqi normalardan uzaqlaşma davranışı artdıqca toplumun ahəngdar bütünlüyü də yavaş-yavaş yox olub gedər. İslam təməlləri üzərində qurulmuş və sosial normalarını bu di-

nin özündən almış bir toplumda, İslam əxlaqını rədd edən bir davranışın təhlükəsi Akifi son dərəcə qorxudur. Sosial bütünlük baxımından belə bir qorxunun heç də yersiz olmadığını görürük. Çünki Akifin əsərlərində vurğuladığı tənbəllik, laqeydlik, təqlidçilik və s. bu kimi sosial bütünlüyü zədələyən davranışlar əxlaqi anlayışın pozulmasından ortaya çıxır.

Akif cəmiyyətdə meydana gələn neqativ halları əsərlərində açıq göstərir. Bu örnəklərdən biri meyxana və çayxana alışqanlığıdır. Hər şeydən əvvəl Akif cədlərin əzminin, cəsarətinin, elminin yerini artıq ətalət, qorxaqlıq və cəhalətin aldığını göstərir. Bu neqativ halların ən çox artdığı yer isə ruhun və vicdanın ən çox aşındığı meyxanalardır.

Şu gördüğüm yer için her ne söylesem caiz;
Ahırla farkı: O yemliklidir bu yemliksiz. (35, 104)

Meyxanalar istər fiziki, istərsə də fikri olaraq insanın yox olub getdiyi bir yerdir:

Ayak teriyle cılalanma tahta peykelere
Külahlı, fesli dizilmiş yığın yığın çehre:
Nasib-i fikr ü zekadan birinde yok çehre
Duyulmamış bu beyinlerde his denen meleke! (35, 108)

Çalışmanın, bütünləşmənin, inkişafın lazım olduğu yerdə, meyxanalar laqeydliyin, məsuliyyətsizliyin və düşüncəsizliyin, tənbəlliyin yuvası halına gəlmiş, insanı bir maqnit kimi özünə

çəkmişdir. Buna fərdi planda toxunduqda vicdanın nə qədər zəiflədiyini görə bilərik. Akifin qorxduğu nöqtə də elə buradan başlayır. Cəmiyyət üzvlərinin davranışları düşüncə tərzinin aşağı səviyyədə olduğunu, insanın müsəlmanlıq şüurundan uzaq, yaşayış tərzini nizamlamaqdan aciz fərdlərin getdikcə artdığını göstərir.

Sosial baxımdan müşahidələrini artıran Akif meyxana şeiri ilə cəmiyyətdəki əxlaq pozğunluğunu göstərən təsirli örnəklər göstərir. Burada meyxana, meyxana "sakinləri" və bunların gerçək həyat ilə əlaqəsi təsvir edilmişdir.

"Giren bir kere nadimdir hayat-ı müstearından
Çıkan avaredir artık cihanın kar-ü barından" (35, 32)

Bu misralarda meyxana alışqanlığı və içkiyə qurşanan fərdlərin ruh halı təsvir edilir. Fərdlərin əsl həyatdan qopub, ümidsizlik içində meyxanalara sığınması və daha sonra həyata qarşı laqeydlik hallarının çoxalması ifadə edilir. Fərdi planda cəmiyyətdə uzaqlaşmanın nəticəsi olaraq meydana gələn ətalət onları eyni zamanda həyata qarşı da küsdürmüşdür. İnsan həyatında laqeydliyin artması ilə keçmiş və gələcəyin məsuliyyət ilə deyil, günlük həyatını yaşayan və bununla da kifayətlənən bir tip olaraq qarşımıza çıxar.

Ne mazi var, ne atı bakışı ayyaşın hayalinde...
Tutup bir zehr-i ateşnak dast-i bi-mecalinde,

Zeval-ı ömrü bekler hem şebabın kemalinde! (35, 32)

İdeal duyğulara malik olmayan, dinamik bir həyatdan mərhum fərd, gənc də olsa, ölümü gözləyərək günlərini keçirir. Çünki düşdüyü yalnış yol onu əsl həyatdan uzaqlaşdırır. M.Akifin də qeyd etdiyi kimi, fərdi ideal düşüncələrdən və həyatdan uzaqlaşdıran mənfi xüsusiyyətlər cəmiyyətə də pis təsir göstərir. Nəticədə cəmiyyətin dinamikliyi və məhsuldarlığı azalır. M.Akifə görə dürüstlüyün qalmadığı, mərhəmətin ortadan qalxdığı, ülvi hisslərin yox olduğu bir cəmiyyətdə inkişafın olmaması ilə yanaşı, xoşagəlməz kriminal vəziyyətin də yaranması labüddür.

Bu hissizlikle cemiyyet yaşar derlerse yanlış!
Bir ümmet göster, ölmüş maneviyatıyla sağ kalmış (35, 272)

misraları ilə dilə gətirir. Cəmiyyətdə fəzilət hissi, insanpərvərlik yalnız Allah qorxusu ilə mümkündür.

Ne irfandır veren ahlaka yükseklik, ne vicdandır;
Fazilet hissi insanlarda Allah korkusundandır. (35, 271)

M.Akif fərdlərdə Allah qorxusunun olmadığı təqdirdə ən qorxunc şəkildə davranacaqlarını bildirir. Elə buna görə də İslam əxlaqının prinsiplərini mənimsəyən fərdlərdən əmələ gələn bir cəmiyyət fəziləti əsas alır, haqsızlığa, ikiüzlülüyə, xudbinliyə və bu kimi əxlaqi aşınmalarına qarşı çıxır. M. Akif əxlaq normalarının pozulduğu bir cəmiyyətin dağılmasının təbii bir proses olduğu-

nu qeyd edir.

Mehmed Akif cəmiyyətin vəziyyətini dərindən düşünən bir ziyalı kimi ölkənin getdikcə geriləməsini özünə dərd edir, bu hal onun könlündə “xəzan” kimi hüzn yaradır. Ölkənin və xalqının xilas yolunu ailələrin fonunda təhlildən keçirərək müəyyənləşdirməyi vacib sayır.

Yaşadığı dövrün problemləri, xalqın çəkdiyi əzablar böyük əqidə adamı kimi onu narahat edirdi. “Yıkılmış ianeler” (Dağılmış yuvalar) şeiri şairin poeziyasında əsas yer tutur. Cəmiyyət fərdlərdən ibarət olduğuna görə cəmiyyətin inkişafı üçün, ilk növbədə ailədə mövcud olan problemləri həll etmək daha vacib idi. Ailələri ehtiyac içərisində yaşayan cəmiyyət inkişaf edə bilməz. Xoşbəxt ailələr nə qədər çox olsa, cəmiyyət də bir o qədər sağlam və güclü olar. Əks təqdirdə xəstə və çökmüş bir cəmiyyət ortaya çıxar və o da tərəqqi edə bilməz.

Bir değil yüz bin bahar indirse hatta asuman;
Hiç kımıldanmaz benim ruhumda kök salmış hazan!
Dem çeker bülbül... Benim beynimde baykuşlar öter!
Sonra, karşımdan geçer, bir bir yıkılmış ianeler! (36, 200)

Mehmed Akif yaşadığı dövrdə cəmiyyətin zəiflədiyini, gələcək aqibətinin heç də könül açan olmayacağını görüb mütəəssir olurdu. Cəmiyyətdə yaranan problemlərin əsasının da ailə və qadın münasibətləri ilə bağlı olduğunu düşünən Mehmed Akif bu məsələlərin həllində məhz qadının müstəsna rolunu

qeyd etmişdir. O, məqalələrindən birində bu fikrin izahını belə verir: “Biz bu gün ictimaiyyətimizin gözünü açan, duyğularını oxşayan, vətənpərvərlik ruhunu artıran, əxlaqını tərbiyə edən, xülasə, bizə hər mənada ədəb dərsi verən bir ədəbiyyata möhtacıq...” (85, 9)

Bu sətirlər Mehmed Akifin arzuladığı və həyata keçirdiyi bir çox məsələləri açıqlayır. O, şeirlərində də dörd sosial məkanın: məktəb, cami, meyxana və çayxananın çox təsiredici gücə malik olduğunu söyləyir. Şair cəmiyyəti, insan həyatını aydınladan, ona işıqlı yolu göstərən məktəb və caminin əksi olaraq, meyxana və çayxanaların mənfi təsirindən və zərərindən də bəhs etməyi vacib saymışdır.

Mehmed Akif cəmiyyətin təməli olan ailə həyatına böyük dəyər vermişdir. Onun fikrincə, xoşbəxtlik və rahatlıq yalnız ailə həyatında mövcuddur. Ailə müqəddəs ocaqdır. Məktəb və cami bu müəssisənin xoşbəxtliyini nə qədər artırırsa, meyxana və çayxanalar onu bir o qədər məhv edir. Çünkü məhəllə kafeləri şairin sözləri ilə desək, “tənbəllik yuvası”, “cəmiyyətin və millətin ölmədən məzara gömüldüyü bir ümidsizlik ocağı”dır.

Ailələrin dağılmasını və cəmiyyətdə qadın anlayışının pozulmasını Mehmed Akif “Meyxana”, “Məhəllə çayxanası”, “Kosa İmam” və “Asım” adlı mənzumələrində əks etdirmişdir.

Türk ədəbiyyatında qadın və ailə mövzusunun sosial baxımdan təhlili Tənzimat dönəmindən başlanmışdır. Bu mövzu Namiq Kamal, Əbdülhəq Hamidi də narahat edən sosial mövzu idi.

Əbdülhəq Hamid o zamana görə böyük bir addım atmış

və qadın azadlığını və haqlarını müdafiə etmişdir. "Garam" adlı əsərində İslamiyyətin ilk dövrünü, Həzrəti- Məhəmmədin (s.a.v) zamanını əks etdirərək qadınların kişilərlə birlikdə məclislərdə xütbə dinlədiklərini, savaşda onlarla çiyin-çiyinə vuruşduqlarını xatırladır:

Harba azmeyler diler merdan ile,
Farkı yoktur hanenin meydan ile,
Beyt-i ashaba bulurlardı müsul,
Bezm-i ahbaba ederlerdi duhul.
Hutbe dinlerlerdi hempa-yı rical,
Hasıl etmezlerdi setr-i cemal."   (20,125)

Qadın haqlarını müdafiə edən Əbdülhəq Hamidin fikirləri bu gün adi görünsə də, o dövr üçün dərin düşüncə tələb edən fikirlər idi. Buna görə onu feminist adlandıranlar da olmuşdu. Bundan əlavə, Namiq Kamal da qadının bir əşya kimi satılmasına, cəmiyyətdə onun fikirlərinin nəzərə alınmamasına qarşı çıxır, əsərlərində öz etiraz səsini ucaldırdı.

Tənzimatdan sonra "Sərvət-i fünun" şair və yazarlarından əsasən, Tofiq Fikrət, Xalid Ziya, İsmayıl Safa, Mehmed Emin cəmiyyətdə qadın probleminə daha çox fərdi aspektdən yanaşmışlar. Fəqət sosial yönümdə bu məsələ, yalnız 1908-ci ildə II Məşrutiyyətin elanından sonra Mehmed Akif və Ziya Gökalp tərəfindən əks olunmuşdur.

Mehmed Akif qadının cəmiyyətdə zavallı vəziyyətə

düşməsinin iki əsas səbəbini göstərir:

1. Cahillik nəticəsində cəmiyyətdə İslamın yanlış anlaşılması

2. Şərq aləmində qadına təzyiq (qadına qarşı kobud davranış, hüquqsuzluq və sairə.)

Hər iki məsələni sərt və ironik dildə tənqid edən şair İslamiyyətdə ailədaxili və fərdlərarası olan hörmət məsələsinin cəmiyyətdə pozulduğunu əsərlərində yaratdığı ədəbi qəhrəmanın və hadisələrin köməyi ilə mükəmməl şəkildə əks etdirmişdir. Eyni zamanda, İslam dininin qadınlara münasibətdə nəzakətlə davranmağı əmr etdiyini xatırladaraq göstərirdi ki, Həzrəti-Məhəmməd (s.a.s) buyurmuşdur: "Möminlərin imanca ən kamil olanları, əxlaqı gözəl və ailəsində nəzakətlə davrananlardır. Sizin faydalı olanınız arvadına faydalı olandır." (21, 263)

"Cənnət anaların ayaqları altındadır", – deyərək cənnəti qadınların ayaqları altına sərən, ona böyük əhəmiyyət verən İslamın əksinə olaraq, yanlış təbliğatlar (Qadın kişinin köləsidir, onu istədiyi zaman alıb və ya boşaya bilər və s.) kimi İslam əxlaqına yad fikirlər yayılmışdı. Hətta dörd arvad almanın da mümkünlüyünün İslamdan gəldiyini söyləyərək, ehtiyac içində olmasına baxmayaraq, bir neçə arvad alanlar da dini öz xeyirlərinə yozurdular. Təəssüf ki, İslam dininin əsaslarını bilmədən və mahiyyətini anlamadan atılan addımlar, təkcə fərdlərin və ailələrin deyil, bütövlükdə cəmiyyətin itkisi idi.

Şair ər-arvad münasibətini, qadının ailədə və cəmiyyətdəki yeri kimi sosial məsələni "Kosa İmam" adlı mənzum əsərində mükəmməl şəkildə təsvir etmişdir.

Kosa İmam Mehmed Akifin ideallaşdırdığı dindar bir ziyalıdır. O, yaşadığı məhəllənin bütün problemləri ilə maraqlanır, tutduğu sosial mövqe və qazandığı hörmət sayəsində onları həll etməyə çalışır. Yuxarıda, qeyd etdiyimiz yanlış düşüncəni bu mənzumədə şair ön plana çəkir. Əsərdə maddi cəhətdən aşağı səviyyədə olmasına baxmayaraq, təkrar başqası ilə evlənmək istəyən ərinə qarşı çıxan arvadın insafsızcasına döyüldüyünü təsvir edir. Qadın dərdini Kosa İmama danışır və ondan yardım istəyir:

Ne kafam kaldı dayaktan, ne gözüm, hep şişti;
Karşı koysaydım eğer mutlak işim bitmişti.
Ağladım, merhamet et, yapma dedim. Kim dinler.
Boşamakmış beni dünden beri efkarı meğer... (35, 111)

Qadının bu halı İmamda həm mərhəmət, həm də hiddət hissi oyadır. O, qadının ərini çağırtdırır. İmamın onu tənqid etməsini "heysiyyətinə" sığışdırmayan ər belə cavab verir:

"Size haltetme düşer.. Dövmüş isem, kendi karım.
Keyfim ister döverim, sen diyemezsin: "Dövme" (35, 111)

Şair Kosa İmamın dili ilə qadını bir əşya kimi görən, onun hissiyyatını ayaqlar altına atan kişiləri tənqid edir. Buna baxmayaraq, kişi dində dörd arvad almağa icazə verildiyini söyləyir:

Ya şeriat ne için,
Bize evlenmeyi ta dörde kadar emr etsin?

İki alsam ne çıkar saye-i hürriyyette
Boşamışsam canım ister boşarım elbette.
İşte meydanda Kitap! Hem alırız, hem boşarız! (35, 112)

Mehmed Akif dini öz mənfur əməllərini həyata keçirmək üçün alət edənlərə, "Kitab"dan (Qurani-Kərim) xəbərsizlərə, xilaf iş görənlərə Kosa İmamın dili ilə dərs verməyə çalışmışdır. İslamiyyətdə, "Həm alar, həm boşaram",– kimi mənəviyyatdan uzaq kəlmələrə yer olmadığını Həzrəti-Peyğəmbərin sözləri ilə ifadə etmişdir:

Müslümanlık'ta Şeriat bunu emretmiş imiş:
Hem alır, hem de boşarmış: ne kadar sade bir iş!
Karı tatlıki için bak ne diyor Peygamber:
"Bir talak oldu mu dünyada, semalar titrer!" (35, 113)

O, bir ailənin dağılması ilə bütün kainatın titrəməsi kimi böyük fikrin nəzərə alınmamasını, cəmiyyətdə dinə, imana soyuq yanaşmanın, yanlış yozumların, cahilliyin nəticəsində ailədaxili münasibətlərinin pisləşməsini və uşaqların bədbəxtliyinin səbəbini, əsasən, cəmiyyətin tərbiyəsinin pozulmasında görürdü. Cəmiyyətin bütün bu neqativliklərdən xilası isə tərbiyə üsulunun dəyişməsi, əhalinin maariflənməsi ilə mümkündür.

"Ailə məsələlərinə həsr olunmuş mühüm əsərlərdən biri də "Məhəllə çayxanası"dır. Bu əsər zamanında və sonralar öz tərbiyəvi əhəmiyyətinə görə yüksək qiymətləndirilmişdir. M. Akifin beynində çayxana minbir müsibətin qaynağı olan bataqlıqdır;

"Məhəllə çayxanası", "Safahat"ın səkkiz səhifəsini tutan təsirli bir mənzumədir." (82, 195)

Mehmed Akif "Məhəllə çayxanası" adlı mənzum şeirində ailə həyatını, ər-arvad münasibətlərini işıqlandırmışdır. Şeir xoşbəxt bir ailənin təsviri ilə başlanır. Şair ailəni bir "cənnət sarayı"na bənzədir. Şeirin davamında bu gözəl, xoşbəxt yuvada sıxılan ərin kafeyə meyl etməyindən, getdikcə bu halın adətə çevrilməsindən və nəticə etibarı ilə ailənin dağılmasından bəhs olunur. Kafeni ailə xoşbəxtliyinin əsas düşməni kimi görən şair onu pislik və tənbəllik yuvası kimi təsvir etmişdir. Burada insanlar nərd, domino oynayır, qeybət edirlər. Hətta yeni evlənən bir oğlanın artıq kafeyə gəlmədiyini görüb, çəkinmədən təəccübləndiklərini də bildirirlər:

-Hasan, bizim yeni damad ne oldu anlamadık  
- Görünmüyor?  
- Karı koyvermiyor: Herif kılıbık  
Evinde çan çan eden erkeğin de aklına şaş...  
Laf anlamaz dişi mahluku, durma sen uğraş. (35, 109)

Şair bu tənbəl, cahil insanların qadınlar haqqında söylədikləri fikirlərdən sonra onları qaranquşların dili ilə qınayır:

Tavanın pervazı altındaki toprak yuvadan,  
Bakıyor bunlara yan yan iki çift ince nazar:

"Ya sizin bir yuvanız yok mu?" diyor anlaşılan,

Dişi erkek çalışan yavrulu kırlangıçlar... (35, 109)

Mehmed Akifin bu mənzum hekayəni insanla quşu müqayisə edərək bitirməsi də ibrətamizdir. Quş yuvasını təsvir etməklə şair əməyin və ailə həyatının ideal əksini yaratmağa müvəffəq olmuşdur.

Mehmed Akif çalışmayan, gününü orda-burda, içki masalarında, sərxoş dostlarının yanında keçirən, günlərlə evə gəlməyən ailə başçısının avrad-uşağını bədbəxt etdiyini, ailənin dağılmasını "Meyxana" adlı mənzum süjetli şeirində ustalıqla qələmə almışdır. Meyxana da çayxana kimi Şərqin miskin üzünü təmsil edir. "Məhəllə çayxanası"nda olduğu kimi, burada da şair meyxananı və oranın sakinlərini təsvir etmişdir. Bu mənzərə nifrət ediləcək qədər çirkindir. Şairə görə burada səfillik və rəzalət hökm sürməkdədir.

Döşəməsindən ümidsizlik iniltiləri, dilsiz-ağızsız divarlardan fəryad səsləri ərşə yüksəlir, havasında məzar qoxusu hiss olunur. Meyxanada zəif şamlardan çıxan his, sanki sönən ocaqlara yas tutur.

Güclü bir sosial tənqidin yer aldığı bu şeirin davamında məkan təsvirindən sonra insan portreti yaradılır. Bu, maddi sıxıntılar içində yaşayan, peşmanlıq hissi duyan bir insandır. Meyxanaya ilk dəfə girdikdə yalnız maddi cəhətdən kasıb olan bu insan oradan çıxarkən işini-gücünü, şəxsiyyətini də itirir, o, artıq maddi baxımdan olduğu kimi, mənəvi baxımdan da kasıb vəziyyətindədir. Səfillik həyatına qədəm qoyan bu insan ən yüksək duyğuları, pak əməlləri və arzuları qırılan qədəhlər kimi

meyxanada ayaqlar altında məhv olub gedir. Bu məqama qədər şair meyxanaya girən insanın çökməsindən bəhs edir. Amma əsas məsələ əsərin digər tərəfi olan ailədir. Fərdlərin çökməsi ailələri məhv edir və beləliklə cəmiyyətin özülü laxlayır, sarsılır.

"Ailə başçısı" adını daşıyan bu insan da artıq meyxananın daimi müştərilərindən birinə çevrilir. Günlərlə evə ayaq basmır, xanımının və uşaqlarının vəziyyəti ilə qətiyyən maraqlanmır. Başqa qapılarda çalışaraq çörək pulu qazanan avradının əlindən son qəpiyini də alan, gətirdiyi cehizləri satıb pulunu içkiyə verən ər ailəsindən xəbərsizdir. Həm maddi, həm də mənəvi cəhətdən zərər çəkən qızları müəyyən yaş həddinə çatsalar da, "sərxoşun qızı" olduqlarına görə, heç kəs onların adını çəkmir. Sərxoş atanın üzündən oğul da təhsil pulunu ödəyə bilmədiyi üçün məktəbdən çıxmaq məcburiyyətində qalır.

Övladlar atalarının səhvi üzündən əzab çəksələr də, onu çox istəyirlər. Artıq günlərlə evə gəlməyən atanın yoxluğuna dözməyən oğul ağlaya-ağlaya axtarışa çıxır. Oğlunu ovundura bilməyən ana qonşusu Hüseyn Ağa ilə birlikdə ərini axtarmağa başlayır. Axırda onu meyxanada tapır və olanları belə anladır:

Herif, şu halime bak, merhametli ol azacık...
Bırak o zıkkımı, içtiklerin yeter artık.
Efendiler, ağalar, siz de bir nasihat edin,
Sizin de belki var evladınız... (35, 35-36)

Ərinə yalvaran qadın ətrafdakılardan onu dilə gətirmək üçün imdad diləyir. Bu kədərli vəziyyətə şahid olan sərxoşlar "dost"u

evə göndərmək əvəzinə qadını qınayırlar:

Bırak, köpoğlu kadın amma çalçeneymiş ha... (35, 36)

Ərinin susduğunu görən qadın yanıqlı halda sözlərinə davam edir. Bayaqdan bəri səssizcə durub ətrafındakıları dinləyən sərxoş ər :

Cehennem ol, seni hınzır orospu, git: Boşsun... (35, 36)

– deyə bağırır. Bu sözlərdən sonra huşunu itirən qadın yerə yıxılır...

Bu əsərdə Mehmed Akif hər cəfaya qatlanan qadına verilən qiyməti olduqca gözəl bir dillə anlatmışdır.

130 misradan ibarət bu mənzum hekayə mövzu baxımından aktual və maraqlı olduğu qədər forma baxımından da sənətkarlıqla qələmə alınmışdır. İlk 22 misra bir-biri ilə həmqafiyədir. Sonrakı misralar məsnəvi şəklində qafiyələnmişdir. Hekayənin mövzusuna uyğun olaraq şair əruz vəznini seçmişdir. Birinci bölmədə 4 məfAİlün/, ikinci bölmədə isə məfAİlün / fAilAtün/ mefAIlün/ fAilün ölçüsündən istifadə etmişdir.

"Kosa İmam" mənzum hekayəsində forma da mövzu qədər rəngarəngdir. Axıcı dilin hakim olması ilə yanaşı, burada da qafiyələnmə məsnəvi formasındadır.

Mehmed Akifin gözündə meyxana kimi kafe də bir bataqlıqdır. Ailələri, yuvaları dağıdan viranələrdir. Fəqət "Berlin Xatirələri" adlı əsərində dostunun–"Çayxanaya gedəkmi?",– sualı

qarşısında qaşları çatılan Mehmed Akif oradakı kafeləri görüncə heyrətlənir. O dövrdə Türkiyədəki kafelərdən fərqli olaraq, təmiz, geniş, işıqlı, möhtəşəm dekorlarla bəzədilmiş divarlar... Kafedə ər-arvad uşaqlarla bərabər ailələr masa arxasında oturub çay içir və söhbət edirlər. Mehmed Akif Türkiyədəki kafelərlə müqayisə edərək, ölkəsində hər şeyin tamamilə fərqli olduğunun şahidi olur. Berlindəki kafeləri şair qayəsinə uyğun bir tərzdə vəsf etmişdir. Burada şairin "özünütənqid" mövqeyindən çıxış etməsi diqqətə layiqdir. Çünkü böyük alman filosofu İ. Kant, başqasını tənqidin adi şüur əlaməti olduğunu, özünü tənqid etmənin isə yüksək ağıla dəlalət etdiyini bildirmişdir.

"Məhəllə çayxanası" və "Meyxana" adlı əsərləri mövzu baxımından bir növ eynilik təşkil edir. Şair insanları pislik, çirkab yuvasından çəkindirməyə çalışır. Əsl səadətin buralarda deyil, müqəddəs müəssisədə- ailələrdə olduğunu göstərir.

"Məhəllə çayxanası" də 234 misradan ibarətdir. Burada da şair əruzun iki qəlibindən istifadə etmişdir. M. Akif bu poemanı ustalıqla monotonluqdan qurtarmışdır. Mənzumə yarıya qədər mefAilün/ feilAtün/ mefAilün/ feilün, digər bölümü də feilAtün/ feilAtün/ feilAtün/feilün qəlibi ilə yazılmışdır. Misralar öz aralarında iki-iki qafiyələnir. Qafiyələnmə forması şairin çox sevdiyi məsnəvidir. "Meyxana" şeirində 14 misra təsvirə həsr edildiyi halda, "Məhəllə çayxanası"nda bu, 64 misraya çatar.

Mehmed Akif "Asım" mənzuməsində də qadına qarşı edilən haqsızlıqlardan bəhs edir. "Kosa İmam"da olduğu kimi, burada da qadına istənilən vaxt çıxarılıb atılacaq bir ayaqqabı kimi ba-

xanlar güclü tənqidə məruz qalmışdır:

Senin karım dediyin adeta papuç gibidir:
Biraz vakit taşınır, sonradan değiştirilir. (36, 36)

Qadının döyülməsini və boşanmanı "Emri-İlahi" (Allahın əmri) kimi qəbul edənlərə qarşı çıxmaqla yaşadığı cəmiyyəti xilas etməyə çalışan Mehmed Akif qadına yüksək qiymət vermişdir. Övlad tərbiyəsinin isə məhz anadan asılı olduğunu qeyd etmişdir.

"Asım" əsərində 65 yaşlı paşa avradını boşayıb evində saxladığı Elena adlı rumlu qadınla evlənmək və bütün var-dövlətini onun adına keçirmək istəyir.

Çoluğun var, çocuğun var, haremin namuslu;
Yaşın altmış beşi bulmuş, otur artık uslu.
Neren eksik, be adam, böyle ne var çıldıracak?
Karı derdiyle yıkılmaz bu kadar yıllık ocak?  (35, 329)

Bu vəziyyəti görən İmam uşaqların ruzisini əyləncə pəncəsindən qurtarmaq üçün ondan böyük miqdarda təzminat alır.

İlk dəfə bu mənzumədə Mehmed Akif qadın hüquqlarının qorunmasının qanuni yollarını göstərmiş və milləti yatdığı qəflət yuxusundan oyatmağa çalışmışdır:

Bu cehalet yürümez; asra bakın; asr-ı ulum!

Başlasın terbiyeniz, ailelerden oğlum.
Sade hürriyyeti i'lan ile bir şey çıkmaz;
Fikr-i hürriyeti hazm ettiriniz halka biraz. (36, 116)

1908-ci il II Məşrutiyyətdən sonra Türkiyəyə gətirilən hürriyyət ancaq sözdə qalmışdır. Ölkədə anarxiya baş alıb gedirdi. Bu anarxiya hüquq sahəsində, qanunlarda da özünü göstərirdi. Elə bu zamandan etibarən türk ailə hüququ süquta uğramışdı. Xalqı bu vəziyyətdən çıxarmaq üçün Mehmed Akif və Ziya Göyalp kimi alimlər əllərindən gələni edirdilər. Fəqət Ziya Göyalpdan fərqli olaraq, Mehmed Akif iman şairidir. Lakin bütün dinləri bir tərəfə atıb, Darvinizmin təkamül nəzəriyyəsinə uyan insanlar ailədə inqilab etmək fikrini irəli sürürdülər. Yəni ailənin, eləcə də, "qadının xoşbəxtliyinə yeganə əngəl dindir, onu aradan qaldırmaq lazımdır" düşüncəsi ilə çıxış edirdilər. Mehmed Akif isə ciddi şəkildə buna qarşı çıxmışdır. Şair bu fikirlərin İslamdan xəbərsiz və bilmədiyi şeyə düşmən olan bir insan əqidəsinə uyğun olduğunu çox yaxşı başa düşürdü. Elə buna görə də, insanları bilgiləndirməyə çalışırdı. Şüurlu şəkildə, türk ailəsinin və mənəviyyatının dağılmasını istəyənlərə qarşı cəbhə almışdı. Çünki Mehmed Akif müqəddəs bir müəssisə olan ailənin dağıldığı təqdirdə təkrar bərpa olunub əvvəlki halına gətirilməsinin qeyri-mümkün olduğunu yaxşı bilirdi. Ailədə bu cür inqilab yaratmaq fikrini heç nəyə baxmadan qətiyyətlə müdafiə edənləri sərt dillə tənqid edirdi:

Biz ki her mevcudu yıktık, gayesiz bir fikr ile;
Yıkmadık bir şey bıraktık... Sade bir şey: Aile.
Hangi bir dünyanı mahvettik de ıslah eyledik?
İşte viran memleket! Her yer delik, her yer deşik!
Bunların tamiri kabil... Olsa ciddiyet, sebat;
Lakin, Allah etmesin, bir düşse şayet, ailat,
Er kavi kollarla hatta kalkamaz imkanı yok.
Kim ki, kalkar der, onun hayvan kadar iz'anı yok!
"Aili bir inkılab olsun!" diyen me'yus olur; (36, 198)

Şair bu şeirin başına əlavə etdiyi "Bəqərə" surəsinin 11-12-ci ayələrini gətirməklə fikrini isbat etməyə çalışmışdır. "Bəqərə" surəsinə (11-12) əzər salsaq: "Onlara: "Yer üzündə fəsad çıxarmayın" deyildiyi zaman, "Biz islahatdan başqa bir şey etmirik" deyərlər. Gözünü aç, yaxşı bax və bil ki; onlar var ha, elə əsl fəsad çıxaranlar onlardır, lakin fərqində deyillər."

Sənəti ilə xalqının xidmətində duran şair şeirdə mövzu ilə yanaşı, sənətə də üstünlük vermişdir. Şairin "Asım" adlı mənzuməsi 2292 misradan ibarətdir. Əruzun fAilAtün / fAilAtün / fAilAtün / fAilün, məfAİlün / fAilAtün / məfAİlün / fAilün bəhrlərində yazmışdır. Bu şeirindən cəmiyyətdə yaşanan mənfi dəyişikliklərə, çıxarılan fəsadlara düşmən olduğunu və mühitdəki çatışmazlığın haradan və kimdən qaynaqlanmasına baxmayaraq, qarşı çıxdığını görürük. Türk xalqının oyanmasını, pisi yaxşıdan ayırd edə bilməsi üçün çalışan ədib, tərbiyənin ailədən başlaması lazım olduğu fikrini müdafiə edirdi. Mənəvi dəyərlər içərisində yaşayan

ailələrin açıq-saçıq yaşam tərzinə keçməsini müdafiə edənləri qətiyyətlə qınayır, belə bir inqilabın yanlış olduğunu və türk mentalitetinə uymadığını söyləyirdi.

Mehmed Akif cəmiyyətdə qadınların, uşaqların və yaşlıların müdafiə edilməsini, onlara qayğı göstərilməsini əsas vəzifə olaraq görmüşdür. Onlara qarşı edilən yanlış davranışların cəmiyyətə ciddi təsir edəcəyini yaxşı başa düşür və ürəyindən keçənləri bu misralarla izah edir:

Üç sınıf halka içim parçalanır, hem ne kadar!
İhtiyarlar, karılar, bir de küçükler; bunlar
Merhamet görmeli, yüz görmeli insanlardan;
Yoksa insanlığı bilmem nasıl anlar insan? (36, 116)

Mehmed Akifin bu sahədəki xidmətləri, dövrün qabaqcıl adamları içərisində də aydın seçilir, tədqiqatlarda da şairin bu sahədəki fəaliyyəti yüksək qiymətləndirilirdi. Prof. F.K.Timurtaş yazırdı: "Qadına ailə içərisində və cəmiyyətdə xüsusi yer verilməsini istəyən, boşanmanın və bir neçə qadınla evlənmənin əleyhinə olan, tərbiyənin yaşanılan əsrə uyğun şəkildə ailədən başlamasını irəli sürən Mehmed Akif qadın, ailə, izdivac məsələlərində zamanından xeyli irəli düşüncə və görüşlərə malik bir sənətkar və mütəfəkkirdir." (91, 5)

Mehmed Akif "Safahat" külliyatının beşinci kitabı olan "Berlin xatirələri" adlı əsərində də layiq olmadığı halda, təzyiqlərə məruz qalan, hər zaman məzlum sinif kimi dəyərləndirilən qadınlardan ürək ağrısı ilə bəhs edir:

Ne hisli vâlidelerdir bizim kadınlarımız!
Yazık ki anlatacak yok da yanlış anladınız.
Yazık ki onlar tasvîr eder birer umacı,
Beş on romancı, sıkılmaz beş on da maksadcı.

Nedir bu anlaşamazlık? Gelin de anlaşınız;
Lisân-ı müşterek olmaz mı kendi göz yaşınız? (35, 296)

Bu misraları oxuduğumuz zaman Mehmed Akifin yaşadığı zamana getmək lazım deyil. Yuxarıdakı misraları oxuduğumuz zaman sanki bu günkü Türkiyənin bir çox bölgələrində yaşayan qadınların vəziyyətinin təsvirini görmüş oluruq. Mehmed Akif cəmiyyətdəki problemləri peşəkarcasına təsvir edərək, bir sosioloq kimi həll yollarını göstərir. Şair böyük ustalıqla bu problemləri lirik, didaktik, fəlsəfi, ironik ədalarla oxucuya çatdırmağa çalışmışdır.

## 2.3. Avropa və Avropa “mədəniyyəti”nə münasibəti

XIX əsrdən etibarən Türkiyə dövlət adamlarını və ziyalılarını ən çox düşündürən məsələlərdən biri də Avropa və “Avropa mədəniyyəti” olmuşdur. Tənzimatdan bəri nəsillərin, qrup və cərəyanların, əsasən də gənclərin maraq göstərdikləri, can atdıqları, dəb halına gəlmiş avropalılaşma cərəyanı hökm sürürdü ki, bu da təqlid etməkdən, yamsılamaqdan başqa bir şey deyildi.

Mehmed Akif Avropanın maddi və mənəvi üzünü yaxşı görürdü. Buna görə də o, müasirlərindən fərqli olaraq, bu məsələdə ifrata varmamış, obyektiv fikir irəli sürmüşdür. Məqalələrinin birində qeyd etmişdir ki, o dövrün ziyalıları iki qrupa ayrılırdı; bir qrup “Nə varsa Şərqdə var. Qərbə doğru açılan pəncərələri bağlayaq”, digər qrup ziyalılar isə “Nə varsa Qərbdə vardır. Ailə məsələlərimizi belə onlarla məsləhətləşə bilərik”,–deyərək iki fərqli düşüncəyə əsaslanan fikirlər irəli sürülürdü.

Elə o zamanlar bu insanlara nəyin yaxşı, nəyin pis olduğunu göstərmək istəyən Mehmed Akif kimi ziyalılara qarşı çıxaraq onları “irticaçı”, “Avropa düşməni” adlandırırdılar. Hətta Mehmed Akifin bütün əsərlərini oxumadan, onun fikirləri ilə tanış olmadan, “İstiqlal marşı”na paxıllıq və düşmənçilik edərək, marşın mətnindəki: “Medeniyyet” dediyin tek dişi kalmış canavar!”–misrasını əldə bayraq edərək, “Baxın! Akif Avropa mədəniyyətini xor görür, ona “canavar” deyir”,–kimi sərsəm fikirlərlə milləti yanıltmağa çalışırdılar.

Ümumiyyətlə, Mehmed Akifin Avropa və Avropa mədəniyyəti

haqqındakı fikirlərini iki qrupa ayırmaq olar:

Avropanın Şərqə (Türkiyəyə) münasibəti
Şərqin (Türkiyənin) Avropaya münasibəti

Mehmed Akif türk tarixinin ən böhranlı zamanında yaşamışdır. Bütün hadisələri yaxından izləyən və elmi şəkildə dəyərləndirən şair "Avropa mədəniyyəti" ifadəsini dırnaq içərisində göstərməkdə yanılmamışdır. Çünki o, Avropanın "mədəniyyət" maskası ilə əslində vəhşi bir siyasət yürütdüyünü də yaxşı bilirdi. O dövrün avropalısı üçün irqçilik, istilaçı milliyyətçilik anlayışı mövcud idi. O, "mədəniyyət" təmsilçisi olan Qərb aləminin əsl məqsədini, məramını "Haqqın səsləri" şeirində də əks etdirmişdir:

"Medeniyet!" size çoktan beridir diş biliyor;
Evvela parçalamak, sonra yutmak diliyor. (36, 188)

Mehmed Akifin müasiri olan alman generalı Von Bernardi müharibənin labüdlüyünü, mədəniyyətin ayrılmaz parçası olaraq mədəni millətlərin gücünün və canlılığının ifadəsi olduğunu irəli sürmüşdür. Bu fikrə əsasən, "üstün"olduğunu iddia edən Avropa, nəyin bahasına olursa-olsun, öz xeyrini güdməyi qarşısına məqsəd qoymuşdur.

Heyf ki, o zaman din adamları da bu epoxanın təsirindən qurtula bilməmişdilər. Belə ki, 1891-ci ildə XIII Papa Leo "Sosial

xristian siyasəti” adı altında bu istiqamətdə Səlib yürüşləri elan etmişdi.

Kilsə tərəfindən müdafiə olunan “üstünlük” anlayışı müstəmləkəçi imperiyalarının dünyadakı hegemonluğu “modernləşmə” adı ilə haqlı sayılırdı.

Qərb imperializmi İslam dünyasına da öz təsirini göstərmişdi. Müstəmləkəçi Avropa dövlətləri əsrlərdən bəri İslama bayraqdarlıq edən Osmanlı İmperiyasını sıxışdıraraq “üstünlük” psixologiyası ilə qələbə çalacağına əmin idi. O dönəmdə məşhur fransız şərqşünası Luis Massiqnon İslam mədəniyyətinin düşdüyü vəziyyəti belə təsvir edirdi: “Onların hər şeyini xarab etdik. Fəlsəfələri, dinləri məhv oldu. Onlar artıq heç bir şeyə inanmırlar. Dərin bir boşluğa düşdülər. Anarxiya və intihar üçün hazır vəziyyətdədirlər.” (41, 5)

Bütün bunları müşahidə edən Mehmed Akif Qərb qüvvələrinin yürütdükləri imperialist düşüncəsinə qarşı çıxaraq, Şərq mədəniyyətini, əxlaqını, adət və ənənələrini müdafiə etmiş və xalqı bu mənfur qüvvələrə qarşı mübarizəyə çağırmışdır. O, ”İstiqlal marşı”nın bir bəndində kəskin misralarla zəlil vəziyyətinə salınan və çox böyük bir keçmişi olan millətə səslənmişdir:

Ulusun, korkma! Nasıl böyle bir imanı boğar
“Medeniyet!” dediğin tek dişi kalmış canavar? (35, 477)

Məhz Avropanın “mədəniyyət” maskası altında yürütdüyü siyasətin nəticəsində xalq, doğrudan da, özünü geridə galmış,

Qərb "mədəniyyəti" qarşısında olduqca kiçilmiş vəziyyətdə görürdü. Lakin bunlara məhəl qoymayan şair, ürəyində ağlayıbsızlasa da, doğma millətini qəflət yuxusundan oyatmaq üçün əlindən gələni edirdi.

Osmanlı İmperiyasının zəifləməsi Avropanı çox sevindirirdi. Çünki bir zamanlar Osmanlı padşahını gəzdirən atın üzəngisini öpməyi özünə şərəf bilən bu gün onun qarşısına güclü bir qüvvə kimi çıxmışdır. Bir zamanlar Osmanlı Sultanının bir işarətindən qorxuya düşən Avropa kralları bu gün dövlətin zəiflədiyini görüb, onun daxili işlərinə belə müdaxilə edirdilər. Artıq Avropanın qarşısında dayanacaq bir güc qalmamışdı. "Mədəniyyət" maskası altında "Müharibə labüddür", "Güclü zəifi əzər", "Mədəni millətlər belə olmalıdır!" və s. bu kimi siyasi fikirlər asanlıqla həyata keçirilirdi. "İnsan haqları", "Humanizm" şüarları altında fransızlar Əlcəzairdə, ingilislər Misirdə, yunanlar Kritdə faciələr törədirdilər. Son yüz ildə Avropa "mədəniyyət" adı ilə Şərqə –İslam ölkələrinə qarşı hücuma keçmişdi.

Mehmed Akif Avropanın İslam ölkələrindəki bu zülmünə qarşı "Haqqın səsləri" adlı kitabında öz haqq səsini ucaltmışdır:

İlahi, altı yüz bin müslüman birdən boğazlandı...
Yanan can, yırtılan ismet, akan seller bütün kandı.
Ne masum ihtiyarlar süngüler altında kıvrandı!

Ne bikes hanümanlar işte, yangın verdiler, yandı!
Şu kullenmiş yığınlar hep birer insan, birer candı! (35, 176)

Avropanın günahsız Şərq ölkələrinə qarşı etdiyi hücum əslində müsəlmanlara, daha doğrusu, İslam dininə qarşı yönəldilmişdir:

İşte bunlar o felaketzedelerdir ki, düşün,
Kurumuş ot gibi doğrandı bıçaklarla bütün!
Müslümanlıkları o biçarelerin öyle büyük
Bir cinayet ki: Cezalar ona nisbetle küçük! (35, 180)

Bütün bunları görən, anlayan və nifrət bəsləyən şair çirkin Avropa mənəviyyatına qarşı barışmaz mövqe tutmuş, Qərbin İslam ölkələrinə münasibətini açıq şəkildə xalqa çatdırmışdır.

Bu dönəmdə isə Osmanlı İmperiyası ordu, hüquq, təhsil, iqtisadiyyat və başqa sahələrdə Avropadan nümunə götürməyə başlamışdı. Buna səbəb isə İmperiyanı düşdüyü vəziyyətdən çıxarmaq, onu yenidən gücləndirmək idi. Lakin bu məqsədlə görülən işlər heç də ürəkaçan deyildi. Yeniləşmə, inkişaf yolunda atılan hər addım yanlış istiqamətə yönəldilirdi ki, bu da dövləti tənəzzülə uğradaraq uçuruma yaxınlaşdırırdı. Avropaya bəslənilən bu inam nəticəsində, xalqın çəkdiyi iztirabları şair əsərlərində əks etdirmiş və həqiqəti göstərməyə çalışmışdır.

Digər tərəfdən də xalq və bəzi ziyalılar avropalılaşmağı yanlış anlayır və bunu səthi şəkildə başa düşürdülər. Yəni avropalılaşma təqliddən başqa bir şey deyildi. Lakin Mehmed Akif buna qarşı çıxaraq nə şəkildə olursa-olsun, təqlidin çirkin bir şey olduğunu və onun xalqa heç bir xeyir verməyəcəyini söyləyirdi:

Ne yapsa Avrupa, bizlerce asl olan hareket:
"O halde biz dahi yaptık!" deyip hemen taklid,
Bu türlü bir yenilikten ne hayredersin ümid? (36, 213)

Tənzimat fərmanının qəbulundan sonrakı dönəmlərdə hökumət hər hansı bir Avropa dövlətinə arxalanmaq məcburiyyətində qalmışdı. Mehmed Akif bu siyasəti tənqid etməklə yanaşı, çıxış yolunu da göstərirdi. O, avropalılaşmanın yolunu yalnız çalışmaqda görürdü. Şairə görə, türklər daha qədim bir tarixi keçmişə malik xalq kimi, mənəviyyatına arxalanaraq yeni-yeni zirvələr fəth etməklə Avropa ölkələrindən daha artıq üstünlük əldə edə bilərlər.

Dindar bir ailədə tərbiyə almış Mehmed Akif yiyələndiyi ərəb, fars, fransız dillərinin köməyi ilə həm Şərq, həm də Avropa klassiklərinin əsərlərini oxuyub, təhlil etmişdir. Şair Almaniya səyahətindən öncə, Avropa həyatı ilə, yalnız kitablar vasitəsilə tanış olmuşdu. Amma Berlin səyahəti nəticəsində Avropanı görmüş, xoş təəssüratlarla geri qayıtmışdı. Bu haqda, "Berlin xatirələri" şeirində geniş, əhatəli şəkildə anlatmış, bununla da qalmayıb, onlardan nələrin necə alınması mövzusunu da şeirində işıqlandırmışdır.

"Berlin xatirələri" ndən aydın olur ki, şairin ən çox diqqətini çəkən insanların sıx olduqları yerlər: kafe, otel, küçə, prospekt və stansiyalardır. Şair həmin yerləri ölkəsi ilə müqayisəli şəkildə təhlil etmişdir:

Biraz da kahveye çıksak... demişti arkadaşım.
O doğru söylemiş amma ben eğri anlamışım:
Mahalle kahvesi nerden de geçti zihnimden?
Bakılsa geçmemeliymiş... Bilir miyim onu ben?
Mahalle kahvesi... Berlin... Münasebet mi dedin? (35, 283)

Bu şeirin əsasını müqayisə təşkil edir. Belə ki, ucaldılan otellər, salınan küçələr, hərəkət edən tramvay və qatarlar, digər ictimai yerlərin inkişafı bir qədər həyəcan, bir qədər də məyusluqla təsvir olunmuşdur.

Fransızlara qarşı vuruşda qalib gələn, uzun illərdən bəri müharibə bilməyən Almaniya dövləti məhz çalışmaqla tərəqqiyə nail olmuşdur. Xalqla ziyalı arasındakı sağlam münasibət nəticəsində əldə edilən müvəffəqiyyət Mehmed Akifi daim düşündürmüşdür. Məhz mənəvi dəyərlərə əsaslanaraq nailiyyət əldə edilməsinin mümkünlüyünü "Süleymaniyyə kürsüsündə" adlı şeirində də təfərrüatı ilə göstərmişdir:

Alınız ilmini Qarbın, alınız san'atini;
Veriniz hem de mesainize son sür'atini;
Çünkü kabil değil artık yaşamak bunlarsız;
Çünkü milliyeti yok san'atın, ilmin; yalnız
İyi hatırda tutun ettiğim ihtarı demin;
Bütün edvar-ı terakkiyi yarıp geçmek için
Kendi "mahiyyet-i ruhiyye"niz olsun kılavuz,
Çünkü beyhudedir ümmd-i selamet onsuz. (35, 170-171)

Elm və texnologiya mövzusuna gəlincə şair ilkin olaraq "milli ruh"a üstünlük verir. Bu anlamda nümunə olaraq yaponları misal gətirir. Şair vaizin dili ilə yaponların düzgünlük, doğruluq, şəfqət, qənaətcillik kimi gözəl xüsusiyyətlərindən bəhs edir. Yaponlar türklərdən çox sonra Avropaya meyl etmələrinə baxmayaraq, onlar Avropanın, Qərb mədəniyyətinin nə olduğunu dərindən öyrənmiş, nəyin lazım olub-olmadığını daha gözəl dərk etmişlər. Onlar Qərbin elm və texnikasından bəhrələnmiş, fəqət əsla təqlid etməmişlər. Eyni zamanda, bu yenilikləri əldə etdikləri zaman öz mənəvi dəyərlərindən qətiyyən ayrı düşməmişlər. Yaponlara görə, hər millət yeniliyi öz mənəvi dəyərlərinə əsaslanaraq, ona uyğun şəkildə həyata keçirməlidir. Mehmed Akif bu fikirləri öz şeirində belə ifadə etmişdir:

Medeniyet girebilmiş yalnız fenniyle...
O da sahiplerinin lahik olan izniyle.
Dikilip sahile binlerce basiret, im'an
Ne kadar maskaralık varsa kovulmuş kapıdan!
Garbın eşyası, eğer kıymetli haizse yürür;
Moda şeklinde gelen seyyie gümrükte çürür! (36, 156)

Yaponların Avropa mədəniyyətini mənimsəmə şəkillərinə bu gün belə heyran olmamaq mümkün deyil. Mehmed Akif "Süleymaniyyə kürsüsündə" adlı əsərində yaponların müvəffəqiyyət qazanmaları ilə yanaşı, türklərin geri qalmalarının səbəbini də izah etmişdir. Onun qənaətinə görə, yaponlar mədəniyyəti sadəcə şüurlu bir şəkildə saf-çürük etdikdən sonra qəbul etmişlər.

Qərbə məxsus dəb və masqaralıqlara qarşı çıxmışlar. Onlar bu gün də adət-ənənələrinə sadiqdirlər. Yaponlar təqlid, modabazlıq, masqaralıqdan uzaq, adət - ənənələrinə bağlı, milli ruha malik bir xalqdır. Mehmed Akif də məhz belə avropalılaşmanın, Avropa mədəniyyətinin bu cür mənimsənilməsinin tərəfdarı idi. Əfsuslar olsun ki, bu gün də gərəksiz və zərərli şeylərə qucaq açmaları, adət-ənənəni unudub, milli qiyafətlərə xor baxmaları azmış kimi, mənəvi dəyərlərə sahib çıxanları "mədəniyyətdən uzaq", "geri fikirli" adlandıranlar da var. Elm, mədəniyyət, texnika sahəsində biliklər əldə etmək əvəzinə, milli adət-ənənələrdən uzaqlaşaraq, "avropalılaşmağı" xarici görünüşdə görənlər hətta ana dilində danışmaqdan utanaraq, əcnəbi dildə danışmağa üstünlük verirdilər. Bu azmış kimi, daha da irəli gedərək, bütün geriliklərin səbəbini İslam dinində axtarırdılar. Milli və mənəvi köklərindən ayrı düşmüş hoqqabazları tənqid edən Mehmed Akif bir şeirində belə deyirdi:

Bir selamet yolu varmış... O da neymiş: Mutlak,
Dini kökten kazımak, sonra, evet, Ruslaşmak!
O zaman iş bitecekmiş... O zaman kızlarımız
Şu tutundukları gayet kaba, pek ma'nasız!
Örtüden sıyrılacak... Sonra da erkeklerden
Analık ilmini tahsil edecekmiş... Zaten,
Müslümanlar o sebepten bu sefalette imiş:
Ki kadın "sosyete" bilmezmiş, esarette imiş. (36, 151-152)

Bütün bunları sadaladıqdan sonra Mehmed Akif inki-

şaf, irəliləyiş, avropalılaşma yolunda təqlid və masqaralıqların Türkiyəyə ziyandan başqa heç şey verməyəcəyini söyləmişdir. Üstəlik, türkün tamamən məhvinə səbəb olacağını böyük narahatçılıq və üzüntü ilə ifadə etməyi də unutmamışdır.

Şair söyləmək istədiyi şeyləri xalqına xitabən bir vaizin dili ilə söyləmişdir. O, milli mənliyi unudaraq Qərbə istiqamətlənməkdən heç bir faydanın hasil olmayacağını məqalələrində də vurğulamışdır. O, "Sebilür-rəşad" məcmuəsində dərc olunan "Nəsrullah kürsüsündə" başlıqlı məqaləsində yazmışdır: "Avropalıların elmi, irfanı, mədəniyyətdəki, sənayedəki tərəqqiləri inkar olunmazdır. Ancaq insaniyyətliklərini, insanlara qarşı münasibətlərini maddiyyatdakı bu tərəqqiləri ilə ölçmək qətiyyən doğru deyil. Onların elmlərini, texnalogiyalarını öyrənmək lazımdır, fəqət özlərinə əsla inanılmamalı, əsla uyulmamalıdır." (49, 250) Bu fikirlə Mehmed Akif Avropa və Avropa mədəniyyəti haqqında düşüncələrini aydın şəkildə izah etmişdir. Lakin bu, heç də onun Avropaya qarşı düşmən mövqe tutması deyil, sadəcə Qərbdən "gətirilənlərin" saf-çürük edilməsini istəməsi ilə bağlı idi. O, əsərlərində mənəvi dəyərlərə xor baxanları kəskin tənqid etmişdir:

Heriflerin hani dünya kadar bedayi'i var
Ulumu var, edebiyatı var, sanayi'i var.
Giden birer avuç olsun getirse memlekete;
Döner muhitimiz elbet muhit-i ma'rifete
Kucak kucak taşıyor olmadık mesaviyi.
Beyenmesek, "medeniyyet!" diyor; inandık, iyi!

"Ne var, biraz da ma'rifet getirmiş olsa..." desek;
Emin olun size "hamallık etmedim?" diyecek. (36, 255)

Göründüyü kimi, Mehmed Akif mədəniyyət adı altında təlqin edilən hər cür ədabazlığa və milli kökü gəmirən, yox edən zərərli şeylərə qarşı çıxmışdır.

Mehmed Akifin obraz kimi canlandırdığı Asım gənclərdə görmək istədiyi xüsusiyyətləri özündə cəmləşdirən ideal bir qəhrəmandır. Asım yaşadığı ölkəsinin düşdüyü vəziyyətindən çox narahatdır. O, bir çox yanlışların doğru adı ilə qəbul edildiyinin şahidi olmuşdur. Mehmed Akif bütün bu yanlışlıqları qol gücünə düzəltməyə çalışan gəncə öyüd verərək, cəmiyyəti düşdüyü vəziyyətdən çıxarmanın tək yolunun elm olduğunu göstərir:

Sade Garb'ın, yalnız ilmine dönsün yüzünüz.
O çocuklarla beraber, gece gündüz didinin;
Giden üç yüz senelik ilmi sık elden edinin.
Fen diyarında sızan na- mütenahi pınarı,
Hem için, hem getirin yurda o nafi suları. (36, 407)

Bununla yanaşı, Mehmed Akif yaşadığı dövrdə kor-koranə, ağız dolusu Avropa ədalətindən danışan, onu tərifləyən nadanlara müsəlmanlara qarşı edilən zülmlərdən bəhs edir və bunun müqabilində Avropanın susmasını xatırladırdı.

"Süleymaniyyə kürsüsündə" adlı əsərində vaizin dilindən Rusiya təsvir olunmuşdur. ( Burada vaiz Əbdürrəşid İbrahim Bəydir.) Rusiyanın hakimiyyəti altında olan müsəlmanlara zülm edilir, onlara qarşı böyük təzyiq var. Düşünən başlar kəsilir, "mədəni" Av-

ropa isə özünü görməməzliyə vurur. Bütün bunları Mehmed Akif mənzum şeirində belə ifadə edir:

O zaman Rusya'da hakimdi yaman bir tazyik...
Zulmü sevdirmek için var mı ya bir başka tarik?
Düşünen her kafanın mutlak ezilmekti sonu!
Medeni Avrupa, bilmem, niye görmezdi bunu? (35, 147)

Fəlakəti görməyən Qərb imperializmi çirkin əməllərini həyata keçirmək üçün "mədəniyyət" məfhumunu təbliğat alətinə çevirmişdir. Buna görə də, Mehmed Akif "mədəniyyət" adı altında baş verən vəhşiliklərə lənət oxuyurdu. Avropa "mədəniyyəti" insanlara vəhşilikdən başqa bir şey verməmişdi. Mehmed Akif əsərlərində "mədəni Avropanın" müsəlmanlara qarşı etdiyi qəddarlıqdan bəhs edir. Hətta şeirlərindən birində bütün bunlara imkan yaradanlara lənətlər yağdırır, hökm sürən haqsızlıqlara göz yuman Şərq aləminin də laqeydliyinə qarşı etiraz səsini ucaldır:

Tükürün: Belki bir az duygu gelir arımıza!
Tükürün cephe-i lakaydına Şarkın, tükürün!
Kuşkulansın, görelim, gayreti halkın, tükürün!
Tükürün, milleti alçakça vuran darbelere!
Tükürün onlara alkış dağıtan kahbelere!
Tükürün Ehl-i Salibin o hayasız yüzüne!
Tükürün, onların asla güvenilmez sözüne!

Medeniyyet denilen maskara mahluku görün:
Tükürün maskeli vicdanına asrın, tükürün!     (35, 180)

Qeyd etdiyimiz kimi, I Dünya müharibəsi zamanı Berlinə göndərilən Mehmed Akif Avropanı daha yaxından tanımaq imkanı əldə etmiş, çox şeyin şahidi olmuş, əyani olaraq gördüklərindən nəticə çıxarmağa çalışmışdır. "Berlin xatirələri" mənzuməsində yazdığına görə, I Dünya Müharibəsində Türkiyənin müttəfiqi olan alman hökumətinin Berlinə gələn nümayəndə heyətini qarşıladığı zaman Almaniyalı millət vəkilləri, xüsusilə katoliklər etirazlarını bildirərək: "Necə olur ki, mədəni və elmli bir millət olan almanlar türklər kimi vəhşi və barbar bir millətlə müttəfiq olur?",- deyə qarşı çıxmışdılar. Bütün bunların şahidi olan Mehmed Akif almanlarla müttəfiqliyin əleyhinə çıxmamış, fəqət onların iç üzlərini gördükdən sonra, daha ehtiyatlı olmağı tövsiyə etmişdir. Eyni zamanda da, əli-qolu bağlı qalmamağı, məqalə və kitablar yazıb, alman dilinə tərcümə etməklə İslamın gözəllik dini, türklərin isə böyük və mədəni bir millət olduğunu isbat və nümayiş etdirməyin vacibliyini qeyd etmişdir.

Nəticə olaraq, Mehmed Akifin Tənzimat fərmanının elanından sonra ölkədə baş alıb gedən "avropalılaşma"nın qəti əleyhinə çıxdığını söyləyə bilərik. O, Qərbin elm, texnika və mədəniyyətini yalnız milli varlığı qoruyaraq əldə etməyin gərəkliyini söyləmişdir. Qərbin imperialist siyasətçiləri Mehmed Akifi mədəniyyət düşməni kimi tanıdaraq, onu "irticaçı" adlandırmışlar. Öz mənfur siyasətlərini yürütmək üçün, sössüz ki, xalqını

sevən, onu qəflət yuxusundan oyanmağa çağıran bir mütəfəkkiri bu cür qiymətləndirmənin nəticəsidir ki, qəlbən yaxın olduğu Azərbaycanda belə, Mehmed Akifin əsərləri çap olunmamış və haqqında tədqiqat işi aparılmamışdır.

Mehmed Akifin böyük mədəniyyət tərəfdarı olduğunu "Sebilür-rəşad"da dərc etdirdiyi: "Mənim bu kürsüdən söyləyəcək bir sözüm varsa, o da Qərb mədəniyyəti adlandırılan o ədalətsiz aləmin bir an əvvəl darmadağın olmasını təmənni etməkdir. Ey müsəlman xalqı! Nəbadə bu sözlərimdən mənim elm düşmanı, tərəqqi düşməni olduğumu düşünəsiniz. Mənim bütün insanlar adına, xüsusi ilə də dindaşlarım naminə istədiyim bir mədəniyyət varsa, o da tam mənası ilə pak, yüksək, namuslu, ciddi bir mədəniyyətdir, yəni üstün bir mədəniyyətdir", (49, 257) məqaləsindən götürülmüş bir parça ilə təkrar isbatlamaq istəyirik.

## 2.4. Müharibə və milli mübarizənin bədii əksi

"Tarixin tarix olması üçün, onu yazanlara ehtiyac vardır. Türklər tarix yaratmış, fəqət onu istənilən şəkildə yaza bilməmişlər". (46, 2) Yəhya Kamal bu məsələ haqqında düşüncələrini açıqlayaraq, türk millətinin dastan yaratmaqdan yazmağa vaxt tapmadığını, eyni zamanda qazandıqları zəfərlərlə öyünüb, onları qələmə almağı qürurlarına sığışdırmadığını söyləmişdir. Amma milli mübarizə və Çanaqqala adı çəkilən zaman, təbii ki, türk tarixçiləri də, ədəbiyyatçıları da böyük şair Mehmed Akifin adını ehtiramla yad edirlər.

XIX yüzilliyin sonlarından etibarən Avropanın təzyiqi ilə nəhəng Osmanlı İmperiyası dağıdılmaqda idi. İyirminci yüzilliyin əvvəllərində isə türk məmləkəti bir-birinin ardınca baş verən döyüşlər nəticəsində, qıtlıq, yoxsulluq və səfalət içində boğulurdu.

M.Akifə görə, Osmanlı toplumunu sosial çöküşə uğradan əsas faktorlardan biri də yoxsulluq və dövləti zəiflədən müharibələrdir. O, "Tovhid, yaxud fəryad" adlı şeirində yanan, uçub-dağılan yuvaların, oğlunu qara torpağa tapşıran ələmli anaların, bir parça çörək üçün küçələrə düşən qadınların, boynu bükük yetimlərin, evsiz-eşiksiz ailələrin vəziyyətindən bəhs edərək o günkü yoxsulluq və sıxıntılardan bizi xəbərdar edir. Şair "Seyfi baba" şeirində də eyni tablonu gözümüz önündə canlandırır.

Birinci Dünya Müharibəsi, Balkan Müharibəsi və bu kimi digər savaş və inqilabları görən şair onların səbəb olduğu fəlakətləri şeirlərində əks etdirmişdir. M.Akif "Haqqın səsləri" adlı

şeirində müharibələrdən sonra vətənin bir məzarlığa döndüyünü, milyonlarca vətən övladının işgəncələrlə öldürül-düyünü, körpələrin beşikdən alınıb parçalandığını və bir çox vəhşilikləri ürək ağrısı ilə fəryad edərək dilə gətirir. (46,197-198)

1908-ci ilin 24 iyulunda II Məşrutiyyətin gətirdiyi sevinc uzun sürmədi. 1911-ci ildə Trablusqarb (Liviya), 1912-ci ildə Balkan müharibələri başlandı. 1914-cü ildə isə I Dünya müharibəsinin alovu aləmi bürüdü. Osmanlı dövləti məcburi olaraq bu alovun içərisinə sürüklənmişdi. Bu fürsətdən istifadə edən ruslar göz dikdikləri Şərqi Anadoluya hücum edərək, Ərzurum, Muş, Bitlis, Trabzon və Ərzincanı işğal etdilər. I Dünya Müharibəsində fürsəti əldən verməyən Qərb dövlətləri, o cümlədən ingilis və fransız donanmaları Çanaqqala boğazına girməyə çalışırdılar.

1917-ci ildə Rusiyada II Nikolayın devrilməsi, Çar rejiminin süqutu və kommunist (bolşevik) partıyasının hakimiyyəti ələ alması ilə nəticələnən siyasi hadisələr nəticəsində ruslar Anadoludan çəkilməyə başlamışdı. 1918-ci ildə Mondoros sazişinə əsasən, Osmanlı imperiyası süqut etdi.

Bütün bu haqsız müharibə və işğallar türk xalqını sarsıtmış, ölkəni sosial, iqtisadi, elmi və mədəni baxımdan böhrana sürükləmişdi. Xalqın dərdi ilə yanan vətən oğulları milləti düşdüyü vəziyyətdən çıxarmağa çalışırdılar. Elə o günlərdə professor Məhərrəm Ərginin bir məqaləsində qeyd etdiyi kimi, "qılıncın simvolu şanlı türk ordusu adına Anafartalar (Çanaqqalada yer adı) qəhrəmanı Mustafa Kamal Atatürk; qələmin simvolu isə şəhidlər dastanı, "Canaqqala dastanı" ilə Mehmed Akif idi." (46, 2-3) Türk

millətinin o günlərdə hərbi güc qədər təskinliyə, ümidə, imana da çox ehtiyacı vardı. Yaşanan dəhşətləri qələmi ilə təsvir edən şair hadisələri təhlil etməyə çalışır, bir psixoloq kimi tövsiyələr verirdi. "Qurani-Kərim"dən ayələr gətirərək şeirlərində insanları ümidli olmağa və gələcək xoş günlərə səsləyirdi. İsamyıl Haqqı Şəngülər şairi belə qiymətləndirmişdir: "O, yaşadığı dövrün böhranları qarşısında millətlə birlikdə qurtuluş üçün mübarizə edərkən, özünü unutmuş; din qarşısında metafizik ürpərti hiss etmək yerinə, onun yol göstərici xüsusiyyətlərini xalqa çatdırmağı bir borc bilmişdir." (85, 484)

Mehmed Akif ölkənin ən çətin günlərində belə "Sebilürrəşad" məcmuəsinin nəşrini davam etdirirdi. Çünkü məcmuədə çıxan məqalələri ilə xalqa dəstək olur, ona ümid verirdi. Yazdığı məqalə, şeir və vəəzləri ilə Anadolunu qarış-qarış gəzib, millətin ürəyində sönməyə başlayan ümid ocağını alovlandırırdı. Bu baxımdan türk millətinin və İslam dünyasının düşdüyü fəlakəti əks etdirdiyi "Hüsran" (1919) şeirini xüsusi qeyd etmək lazımdır. Vətən torpaqlarının düşmən tapdağı altında qalmasına, bütün ölkənin matəmə, ümidsizliyə qapılmasına baxmayaraq, milli mübarizənin bütün ölkəyə yayılacağına inanan şair, "Hüsran" şeirində:

Ben böyle bakıp durmayacaktım, dili bağlı,
İslamı uyandırmak için haykıracaktım. (36, 411)

– deyərək səsini ucaltmışdır. O, türk millətinin əsarət altına alınmasının imkansızlığını qətiyyətlə vurğulamış, tarixən müstəqil

olan bir dövlətin öz hürriyyətini qoruyacağını məqalələrinin birində: "...Türklərin əsrlərdən bəri müstəqilliklərini mühafizə etmiş bir millət olduqları tarixən təqdirə layiq bir həqiqətdir. Halbuki, Avropada belə müstəqilliyi uzun müddət saxlamış bir millət yoxdur. Türk üçün istiqlalsız həyat ölümdür. Tarix də göstərir ki, türk istiqlalsız yaşaya bilməmişdir", (56, 175) - deyə qeyd etmişdir.

Xarici qüvvələrə qarşı gedən mübarizələr azmış kimi ölkə daxilində baş verən üsyan və qarşıdurmalar vəziyyəti bir az daha ağırlaşdırırdı. Cəhalətin və biganəliyinin nəticəsi idi ki, Qərbi Anadoluya düşmən qüvvələr hücum etdiyi halda, Şərqi Anadoluda xalq düşman ordusunu: "Xilafət ordusu gəlir",– deyə qarşılamağa çıxırdılar. Bütün bu neqativ halları ortadan qaldırmaq və xalqı oyatmaq üçün ədib məqalə və şeirlərlə kifayətlənməyib, cami kürsülərindən sadə xalqın başa düşə biləcəyi bir dildə vəəzlər verirdi.

Konyada baş verən üsyanın yatırılmasında böyük rolu olan şair daha sonra Kastamonu vilayətinə getmişdir. Kastamonuda verdiyi vaazlarda (bunlar daha sonra "Sebilür-rəşad" məcmuəsində çap olunmuşdur) Mehmed Akif ayə və hədislərin təsiri ilə milləti birliyə çağırmış, işıqlı gələcəyin irəlidə olduğuna inanmış və xalqı da inandırmağa çalışmışdır. O, nifaq içində keçən həyatla xoşbəxt gələcəyə nail olmağın mümkünsüzlüyünü dəfələrlə vurğulamışdır: "Müsəlmanların ən böyük düşməni fitnə, fəsad və nifaqdır. Bu səbəbdən, Əməvilərdən başlayaraq, Abbasilər, Əndəluslar, Qəznəvilər və Səlcuqlular səltənətlərini,

Osmanlılar da böyüklüklərini itirdi. Avropa mədəniyyətinə çatmaq üçün ilk öncə aramıza girən fitnə və nifaqı ortadan qaldırmalı, daha sonra əl-ələ verib çalışmalıyıq." (57, 264)

Eyni zamanda millətinin gələcəyə ümidlə baxması üçün onları bədbinlikdən uzaqlaşmağa, mənəvi təmizliyə və ən əsası isə Allahın inayət və mərhəmətinə inanmağa çağırırdı. Nəsrullah camisində verdiyi digər bir vəəzdə Mehmed Akif söyləmişdir: "Kədər və ümidsizlik, hələ Allahdan ümid kəsmək dinimizdə çox pis qiymətləndirilir. Dünyada güvəniləcək və inanılacaq yeganə şey Allahın inayət və mərhəmətidir. Müsəlmanlar əvvəlcə əzm, sonra da təvəkküllə vəzifələndirilmişlər. Kədərə, bədbinliyə qapılmadan çalışan bir müsəlman üçün aşılmayacaq maneə, əlyetməz bir qayə yoxdur." (57, 264)

Ölkənin ağır günlərində millət birləşməli, müvəqqəti belə olsa, fikir ayrılıqları aradan qaldırılmalı idi. Mehmed Akif qərbçiləri, islamçıları, türkçüləri və bütün ziyalıları milli birlik uğrunda birləşməyə çağırırdı.

Bildiyimiz kimi, Balkan müharibəsində Türkiyə faciəli bir tarix yaşamışdır. Böyük Osmanlı İmperiyası yeni ayrılmış Balkan dövlətlərinə məğlub olaraq, Rumelidəki torpaqlarını itirmişdi. Bu, əslində, torpaq itkisi deyil, eyni zamanda minlərlə türkün şəhidliyi ilə nəticələnən bir soyqırım idi.

"Vardar çayında boğulan məsum qadın, yaşlı və uşaqların say-hesabı yoxdur. O günlərdə çayın suları qana qarışmışdı. Sular qırmızı axırdı. Dağlar, daşlar, "qırmızı üfüqlərin altındakı hər yer qıpqırmızıdır". Balkanlarda altı yüz min məsum insanı şəhid

etməklə kifayətlənməyib, müsəlman türkünün imzasını daşıyan minlərlə şah əsər də yox edilmişdi. "Ənbiya yurdu", "Şühəda bürcü" və Akifin "məşhəd" dediyi bu diyar bir yanğın yerinə çevrilmiş, Məşhədin beyninə xaç saplanmış, məscidlər heyvan axırına çevrilmiş, xorvat, serb yaraqlıları camilərdə qırğınlar törədirdilər. Bu acı mənzərə qarşısında şəhid türbələri sanki yer yarılmış, yerə girmişdi." (94, 136-139)

Balkanlarda törədilən dəhşətə dözə bilməyən Mehmed Akif bu "insanlıq dramını" ürək ağrısı ilə qələmə almışdır. Bu şeir 1913-cü ilin may ayında Bağdadda nəşr olunan "Əz-zuhur" qəzetində türk dilində çap olunmuşdur. Balkan məğlubiyyətini, türk-müsəlmanlarına edilən zülmləri Mehmed Akif bütün dünyaya yaymağa çalışırdı:

Azıcık kurcala toprakları, seyret ne çıkar:
Dipçik altında ezilmiş, parçalanmış kafalar!
Bereden reng-i hüviyetleri uçmuş yüzler!
Kimbilir hangi şenaetle oyulmuş gözler!
"Medeniyyet" denilen vahşete la'netler,
Nice yekpare kesilmiş de sırıtmış dişler!
Nice başlar, nice kollar ki cüda cisminden!
Beşiğinden alınıp parçalanan mahlukat!
Sonra namusuna kurban edilen bunca hayat!
Bembeyaz saçları katranlara batmış dedeler!
Göğsü baltayla vurulmuş memesiz valideler!
Bakalım yavrusu uğrar mı, deyip, karnından,

Canavarlar gibi şişlerde kızarmış nice can!     (36, 182)

M. Akifin bu şeirini oxuduqda Qarabağ, 1992-ci ildə baş verən Xocalı faciələri təkrar göz önündə canlanır. Bir an şeirin Xocalı faciəsinə həsr olunduğunu düşünürsən. Amma Balkan faciəsi Xocalı faciəsindən çox əvvəl, yəni 1912-ci ildə baş vermişdir. Tarix boyu türk-müsəlman xalqına qarşı edilən təcavüz Balkanlarda, Qarabağda, Bosniyada davam etmişdir. Şair bu savaşların torpaq qazanmaq üçün deyil, mənəviyyatımıza, dinimizə, dövlətimizə və imanımıza qarşı aparıldığını dəfələrlə qeyd etmişdir. Əfsuslar olsun ki, biz tarixdən dərs ala bilmirik və nəticədə qarı düşmən fürsət tapan kimi öz mənfur planlarını həyata keçirir.

1914-cü ildə "Teşkilat-ı Mahsusa" (Xüsusi təşkilat) tərəfindən təsis edilən heyətin tərkibində Almaniyada işləyən Mehmed Akifi Berlində olduğu günlərdə yaxın dostu Ömər Lütfi Bəydən aldığı hərbi məlumatlar çox narahat edirdi. Ö.Lütfi Bəy sonralar bu barədə yazırdı: "Çanaqqala üçün ağlamadığı gün yox idi. Mən hərbi vəziyyətdən bəhs etdikcə ürəyi sıxılırdı. Onun bu cür hərbi mühakimələrə səbri çatmırdı. O hər zaman qəti söz istəyirdi. Bütün dünya hücum etsə, Çanaqqala süqut etməz; onun böyük imanı başqa bir ehtimal verə bilməzdi." (42, 44) Odur ki, şeirlərinin birində deyirdi:

Ben ezelden beridir hür yaşadım, hür yaşarım.
Hangi çılgın bana zincir vuracakmış? Şaşarım!
Kükremiş sel gibiyim: Bendimi çiğner, aşarım;
Yırtarım dağları, enginlere sığmam taşarım.     (36, 485)

Çanaqqala müjdəsini alan M. Akif uşaq kimi sevinərək göz yaşlarını saxlaya bilmir. Çünkü şair bu savaşın çox az silahla, fəqət böyük imanla qazanıldığını yaxşı bilir. Çanaqqalada savaşan şanlı türk əsgərinə həsr etdiyi misilsiz əsər "Çanaqqala dastanı" müharibədə şəhid və qazi olan əsgərlərin xatirəsinə ucaldılmış ən böyük abidə idi. Şair bu əsərində türk əsgərini Bədr döyüşündəki səhabə qarşılaşdırır.

Bedr'in arslanları ancak bu kadar şanlı idi…

M. Akif şəhid olan türk əsgərinə tavanı buludlar, çilçırağı ulduzlar, başdaşı isə Kəbəyi-müəzzəmə olan bir məzar təsvir edir. Daha sonra, şeirə davam edərək onu yerə göyə sığdıra bilmir.

-Ey şehid oğlu şehid, isteme benden makber!
Sana ağuşunu açmış duruyor Peygamber!

Şair bu misraları ilə vətən yolunda şəhid olanların necə yüksək mərtəbə ilə müjdələndiklərini son dərəcə mükəmməl misralarla ifadə edir. Çəkinmədən M. Akifin milli mübarizə illərində milləti ruhlandıran əsərlərinin zəfər qazanılmasında böyük rolu olduğunu söyləyə bilərik.

Həsən Bəsri Çantayın (Mehmed Akifin yaxın dostu, məsləkdaşı) söylədiyinə görə, Mehmed Akif bütün şeirlərini yazmazdan əvvəl, kiçik kağız parçaları üzərində qaralamalar edərdi. İki şeiri var ki, bunları qaralamasız bədahətən bir anda yazmış-

dır. Bunlardan biri "Gecə" (1918) mənzuməsi, digəri isə "Bülbül" (1921) şeiridir. Türklərin mənəvi Kəbəsi olan Bursada yerləşən Osman Qazinin məzar daşı üstünə yunan zabitinin ayağını qoyaraq çəkdirdiyi rəsmi görən şair çox qəzəblənmişdir. Dərdli şair bir axşam çəmənlikdə gəzərkən eşitdiyi bülbül səsindən təsirlənərək : "Benim hakkım sus, ey bülbül, senin hakkın deyil matem!", – deyə, ahu-zarla bülbülə müraciət etmişdir:

Ne zilletdir ki: Nakus inlesin beyninde Osman'ın;
Ezan sussun, fezalardan silinsin yadı Mevla'nın!
Ne hicrandır ki: En şevketli bir mazi serab olsun;
O kudretler, satvetler harab olsun, türab olsun!
Çökük bir kubbe kalsın mabedinden Yıldırım Han'ın;
Şena'atlerle çiğnensin muazzam kabri Orhan'ın: (35, 430)

Bir anlıq ümidsizliyə qapılan şair yenə də fəlakətli günlərin acılı-ağrılı, faciəli tablosunu şeirlərində ustalıqla əks etdirməklə yanaşı, təkrar ümid saçan məqalələri, vəazləri və şeirləri ilə çıxış etməyə, mənəvi cəhətdən xalqına dayaq olmağa çalışmışdır. Hər an tətikdə olan, başı dik, gözləri nəmli Mehmed Akif öz şah əsəri ilə türk millətinə güc verən qaynağı açıq-aşkar göstərmişdir. Bütün keçmişi və gələcəyi tam bir uyğunluq içində ifadə edən Mehmed Akifin məhz bu şeiri yüzlərlə şeir arasında "Milli marş" adına layiq görülmüşdür. Şair ifadə etdiyi fikir, göstərdiyi hədəf və daşıdığı dəyərlərlə yüksələn sənət abidəsi yaratmışdır.

Böyük sənətkarlar peyğəmbərlərə, ənbiyalara bənzərlər; onlar həqiqəti müjdələyən və gələcəyə ümid verən insanlardır.

Mehmed Akif də bu qəbildən olan böyük sənətkar, milli şairdir. İstiqlal savaşının ən çətin günlərində xalqını bu misralar ilə müjdələmiş, ona ümid və mənəvi güc vermişdir:

Doğacaktır sana va'dettiği günler Hakk'ın,
Kim bilir, belki yarın, belki yarından da yakın... (35, 477)

Yavuz Bahadıroğlu "İstiqlal marşı"nın yekdilliklə, ayaq üstə alqışlanaraq qəbul edilməsinin, millət və ordu tərəfindən sevilərək bu günə qədər oxunmasının səbəbini izah etmək üçün bizi tarixin çox maraqlı bir dönəminə, 1400 il əvvələ baxmağa dəvət edir. Belə ki, o zamanlar Hz. Məhəmməd müşriklərin ona və ümmətinə qarşı etdiyi düşmənçilikdən qurtulmaq üçün Məkkədən Mədinəyə hicrət etmək məcburiyyətində qalır. Hz. Əbubəkirlə bərabər müşriklərdən qaçıb, bir mağaraya sığınırlar. Müşriklər mağaranın ağzına gəlirlər. Hz. Əbubəkir çox narahat olur ki, əyilib baxsalar, onları görəcəklər. Peyğəmbərimiz onu sakitləşdirərək: "Qorxma Allah bizimlədir!",- sözlərini söyləyir. M. Akif də 1400 il sonra, millətinin o sıxıntılı və acı günlərində;

Korkma, sönmez bu şafaklarda yüzen al sancak;

-misrası ilə başlayan "İstiqlal marşı"nı yazır. Yazıçı Yavuz Bahadıroğlu əsərin yekdilliklə Türkiyə Böyük Millət Məclisində qəbulunun bir səbəbini də şeirə hopan Peyğəmbər ruhuna, məclisdəki insanların da qəlbindəki peyğəmbər sevgisinə bağlayır.

"İstiqlal marşımız bizim tariximizdir. Gələcəyimizin bir aynası və bütün millətimizin iman və əxlaqda son qayəsi olan təməl

əsaslarının köküdür. Mehmed Akif millətin ruhunu oxşamış və onu sanki daşa həkk edərcəsinə yazaraq, bir abidə kimi ucaltmışdır.” (40, 231)

Mehmed Akif “İstiqlal marşı”nda kökə bağlılıq, birlik, həmrəylik hissini, türk- islam mənəviyyatını, vətən, millət, bayraq sevgsini aşılamışdır.

Korkma, sönmez bu şafaklarda yüzen al sancak;
Sönmədən yurdumun üstündə tütən ən son ocak.
O benim milletimin yıldızıdır, parlayacak;
O benimdir, o benim milletimindir ancak. (35, 477)

Bir gün Mehmed Akif xəstə ikən Haqqı Tarık Us və dostları onu ziyarət etdikləri zaman qonaqlardan biri:“İstiqlal marşı” nı təkrar yazardınızmı?”,– deyə soruşmuşdur. M. Akifin üzü kəskin bir ifadə almış və qəzəbli bir şəkildə yatdığı yerdən dikələrək; “Allah bu millətə bir daha “İstiqlal marşı” yazdırmasın” cavabını vermişdir.

## 2.5. Dövlətçilik və Dövlət idarəsi

Əsrlərdən bəri hər cəmiyyətdə bir idarə edən, bir də idarə edilənlər olmuşdur. İdarə edənlər toplumun siyasi yöndən ən yüksək təbəqəsidir. Dövləti idarə edən insanlar hər yöndən nümunəvi insanlar olmalıdır ki, idarə etdikləri cəmiyyət yüksək səviyyədə, haq, ədalət içində yaşasın və inkişaf etsin.

M.Akif Hz. Ömərin idarə etdiyi dövlət sistemini yüksək qiymətləndirir. Hz. Öməri ideal idarəçi, ideal tip, dövləti isə ideal dövlət hesab edir. Akif, "Qoca qarı ilə Ömər" adlı şeirində Hz. Ömərin başına gələn bir hadisəni təsvir edərək dövlətlə əlaqədar fikirlərini açıqlamağa çalışmışdır. Şair bu şeirdə Hz. Ömərin xəlifə olduğu zamanlarda gecələr belə xalqın keşiyini çəkdiyini söyləyir. M.Akif Hz. Ömərin yenə bir gecə qiyafət dəyişdirib Hz. Abbasla Mədinə küçələrində gəzərkən, şəhərin kənarında çadırda yaşayan və acından ağlayan uşaqlarını qaynadığı bir qazan su ilə aldadaraq ovundurmağa və yatırmağa çalışan bir qadına rastlaşdıqlarını yazır. Akif bunu görən xəlifənin üzülərək Hz. Abbasla birlikdə gedib, dövlətin anbarından bir çuval un, bir küp də yağ çıxardığını, unu Xəlifənin, yağı da Hz. Abbasın götürüb qadının evinə gətirdiklərini söyləyir. Ərzaqları çadıra gətirərək xəlifənin öz əli ilə yemək bişirib, ağlayan uşaqları yedirərək göz yaşlarını silib yatırdığını və ertəsi gündən etibarən xəlifənin qadını maddi yardımla təmin etdiyini obrazlı şəkildə anladır.

Şair, bu şeirdə ədalətin timsalı olan Hz. Ömərin şəxsində bir dövlət başçısının yaxud bir idarəçinin, özünə yaraşan şəkildə

vəzifəsini icra etməsini, daşıdığı məsuliyyət hissini vurğulayır, Akif yaşlı qadının dili ilə xalqın dövlət başçılarından umduqlarını dilə gətirir. Yaşlı qadının dili ilə şair xalqın dövlət başçısına Allahın bir əmanəti olduğunu, bu məsuliyyəti dərindən anlayaraq, vəzifələrini layiqincə yerinə yetirmələrini söyləyir.

-Ya ben yetim avuturken, Emir uyur mu gerek?
Raiyyetiz, ona bizler vediatu'llahız;
Gelip de bir aramak yok mu?
- Haklısın, yalnız,
Zavallının işi pek çok, zaman bulup gelemez;
Gidip de söylememişsen ne haldesin bilmez.
-Niçin hilafeti vaktiyle eylemişti kabul? (35, 96)

Akif dövlət adamlarının o biri dünyada Allahın hüzurunda hesab verəcəyini və günahına heç kimin şərik olmadığını, elə bunun üçün də davranışlarında diqqətli olmalarına diqqəti cəlb edərək, Hz. Ömərlə Hz. Abbası qarşılıqlı danışdıraraq düşüncələrini onların dili ilə anladır.

-Ben götüreyim... verir misin çuvalı?
-Hayır, yorulsa değil, ölse yardım etme sakın:
Vebali kendine aiddir İbn-i Hattab'ın.
Kadın ne söyledi, Abbas, işitmedin mi demin?
Yarın, huzur-ı İlahi'de, kimseler, Ömer'in

Şerik-i haybeti olmaz, bugünlük olsa bile;
Evet hilafeti yüklenmeyeydi vaktiyle. (35, 97)

Burada çuval bir simvoldur. Akif bu misralarla bir idarəçinin, millətin hüzur və rahatlığı üçün hər cür fədakarlığa qatlanması, ona verilən əmanəti layiqincə qorumasının vacibliyini vurğulayır.

M.Akif eyni şeirində bir dövlət başçısının məsuliyyətinin bütün bir ölkəyə yayıldığını, ölkəsində bir çay kənarında bir qurd bir qoyunu yesə, dövlət adamının Allah hüzurunda məsuliyyət daşıyacağını açıqlayır.

Kenar-ı Dicle'de bir kurt aşırsa bir koyunu.
Gelir de adl-i İlahi sorar Ömer'den onu!
Bir ihtiyar karı bi-kes kalır, Ömer mes'ul!
Yetimi girye-i hüsran alır, Ömer mes'ul!
Bir aşiyan-ı sefalet bakılmayıp göçse:
Ömer kalır yine altında, hiç değil kimse!.. (35, 98)

M.Akif "Asım" poemasında da dövlətin idarə olunması məsələsinə toxunaraq ən yaxşı dövlət adamı, "ideal tip" olaraq göstərdiyi Hz. Öməri belə anladır:

-"Eyyühe'n-nas, ederim taptığım Allah'a kasem,
Yoktu asla şu cema'atte ki hiçbir aciz,
Benim indim sizin olmaya en kaadiriniz,
Bir kavinizde olan hakkını kurtarmam için.

Bir kavi kimse de yoktur ki bu ümmette, bilin! (35, 420)

Şair burada bir dövlət başçısının ən önəmli vəzifələrindən birinin də ədaləti bərqərar etməsini Hz. Ömərin şəxsində vurğulayır. "Asım" poemasında dövlətin idarəsi məsələsində, idarəçilikdə ilk olaraq cəmiyyəti meydana gətirən fərdlərin təhsilinin və tərbiyəsinin əsas olduğunu bildirir. Əgər fərdlər yaxşı təlim-tərbiyə görməmişsə, idarəsinin və ya idarə sisteminin dəyişməsinin heç bir faydasının olmayacağını söyləyən Akif qədimdə türk insanının dövlətinə qarşı üsyan etmədiyini dövlət adamlarına və başçısını böyük hörmətlə yanaşdığını, əgər idarəçi və ya dövlət adamı hərəkətlərində xətalı və yanlış isə xalq onu üsyanla deyil, gözəlliklə doğru yolu göstərərək demokratik yolla düzəltdiyini açıqlayır.

-Evet, oğlum, Hoca sevmezdi, bilirdim, sarayı;
Ama sövmezdi de hoşlanmadığından dolayı.
Vardı bir duygusu besbelli ki...
- Bilmem, varmış...
Padişah dendi mi, çokluk dil uzatmazlarmış! (35, 402)

M.Akif türk toplumunun idarəsinin asan olduğunu söyləyərək doğuşdan İslama meylli olan bir millətin doğru yolu göstərən adil bir dövlət başçısını böyük həvəslə izlədiyini bildirir.

Müslümanlık gibi mahiyyəti cidden yüksek,

Sonra, vicdanları bir nefhada tehyic edecek,
Din-i fıtrideki bir milleti irşada ne var?
Daha yüksek mi aceb Şarkı ezen fıtratlar,
Kaabliyyetçe? Hayır, ben buna asla kanmam.
Adam ister, yalnız etmeye bir kavmi adam! (35, 173)

M.Akif "Asım" poemasında sadəcə idarənin başında duran adamın dürüstlüyünün kafi olmadığını, ətrafındakı insanlardan da bunun tələb olunduğunu söyləyərək idarəçiliyin ətrafındakılarla bir vəhdət halında həyata keçirildiyini nəzərə çarpdırır. Akif bu mənadakı görüşlərini:

Senin etrafını alsın ki yığınlarca sefil,
Kimi idmanlı edebsiz, kimi talimli rezil.
Kiminin fıtratı azade haya kaydından;
Kiminin iffeti ikbaline etten kalkan.
Bu mühitin bakalım şimdi içinden çıkabil (35, 420- 421)

- şəklində əks etdirir.

M.Akif Hz. Məhəmməd (s.a.s) və onun dörd xəlifəsindən sonra idarə sistemində əyintilərin olduğunu, "Dirivas" adlı şeirində Əməvi xəlifəsi Hişamın vəzifəsinin şirinliyinə və şöhrətə qapılaraq xalqın dərd və iztirablarını unutduğunu, zövq və səfaya daldığını bu şəkildə ifadə edir:

Görmekteyiz ey Emir-i adil.
-İnkarı bunun değil ya kaabil-

Yok sendeki ihtişama payan
Bizlerse alay alay sefilan
Bir yanda demek ki, fazla var çok;
Hayfa ki, öbür tarafta hiç yok.
Nerden buldun bu ihtişamı?
Halkın mı, senin mı, Halik'ın mı? (35, 116)

M.Akif burada xəlifə Hişamı şerinin qəhrəmanı Dirivas vasitəsilə xəbərdar edərək, dövlət başçısının vəzifə və prinsiplərini xatırladır. Şair burada mülkün əsas sahibinin Allah olduğuna, bu mülkü müəyyən şərtlər altında qullarına əmanət etdiyinə, qulların da bu əmanətə layiqincə sahib çıxmasının önəminə işarət edir. M.Akif dövlət adamlarının və başçılarının vəzifənin prestijinə qapılaraq xalqa xidmət etməyi unutmamalarını xüsusilə vurğulayır.

M.Akifə görə, dövlətin təməl vəzifələrindən biri də vətəndaşlarının qanuna uyğun davranmaları üçün şərait yaratması, cəmiyyətə zərər verən şəxslər haqqında gərəkli hüquqi tədbirlər görməsidir. Şair insanların müharibələrin od-alovu içində başını itirdiyi bir zamanda pis niyyətli, topluma zərər verən şəxslərin fəaliyyətlərini artırdıqlarını, Birinci Dünya Müharibəsi illərində baş verən hadisələri misal gətirərək göstərir.

O, demin "Harbi Ümumi" dediğin maskaralık,
Şöyle bir bak, ne harap ortalığın manzarası

Bir traftan bu fecayi kemirirken yurdu,

Bir taraftan da elin bir sürü doymaz kurdu,
Dişliyor na'şını sırtlan gibi biçarelerin. (35, 432- 433)

M.Akif toplumun dəyərlərini heçə sayan, onun dar və ağır günlərində zövq, səfa sürən tüfeyliləri "ideal gənc tipi" olan Asımın dili ilə tənqid edir.

Gelelim cümbüşe insaf ediniz vakti midir?
Aç, sefil inleyerek can veredursun dünya
Yine siz dinlemeyin, anlamayın matemini.
Ağlamak çok kişinin zevki değilmiş, lakin,
Gülmemek herkes için, zannederim, pek mümkin. (35, 435)

M.Akif hər nə olursa olsun, haqlı da olsa, ayrı-ayrı şəxslərə qarşı güc istifadə etmək, qanunsuz davranışlara yol açmağın cəmiyyət üçün zərərli olduğunu söyləyir.

Bir cemaat ki erenler işi yumrukla görür,
Kafa bitmiş demek artık, çekiver kuyruğunu!
Kuvvetin hakkı mıdır enselemek bulduğunu?
Bize, Asım, ne şunun yumruğu lazım ne bunun
Birinin pençesi ister yalnız: Kaanunun. (35, 434- 436)

Bütün bunlardan M.Akifin qanun və məşrutiyyət əsasında qurulmuş, hüquqi bir dövlətin funksiyasını yerinə yetirəcəyinə inandığını görürük.



# III FƏSİL.
# MEHMED AKİFİN İCTİMAİ-SOSİAL MÖVZULU ŞEİRLƏRİNİN SƏNƏTKARLIQ XÜSUSİYYƏTLƏRİ

## 3.1. Məzmun, forma və janr məsələləri

Mehmed Akif Türkiyə ədəbiyyatında Namiq Kamal novatorluğu ilə başlanan ictimai şeirin ən qüdrətli davamçısıdır. O, ədəbiyyat tarixində həyatı sənətini, sənəti isə həyatını tamamlayan böyük şəxsiyyətlərdəndir. Ən incə və ən xırda təfərrüat və təsvir qabiliyyətinə malik olan şairin əsərlərində ictimai mühitdə baş verən hər cür dəyişiklik əks olunur. Şair bütün əsərlərini daxilindəki ağrı və acı ilə yoğuraraq cəmiyyətin problemlərini həll etmək niyyəti ilə yazmışdır. Dövrünün "Sənət sənət üçündür" nəzəriyyəsinin estetik prinsiplərinə tamamilə zidd olaraq, Mehmed Akif "Sənət həyat üçündür" düşüncəsi ilə gözəllik naminə deyil, xalq üçün yazıb- yaradırdı. "Sənət sənət üçündür", "Ədəbiyyat bir bəzəkdir, əyləncədir", – fikrini irəli sürənlərə Mehmed Akif belə cavab vermişdir: "Şeir üçün, ədəbiyat üçün, "bəzək" "əyləncə" deyənlər var. Kefi kök, damağı çağ olan millətlərə görə bu söz, bəlkə, doğru ola bilər. Lakin bizim kimi "ac-yalavac", "ayağıyalın, başı açıq" millətə əyləncədən əvvəl çörək lazımdır. Ona görə nə qədər bəzəkli, nə qədər gözəl olursa- olsun, çörək, libas vəzifəsini görməyən ədəbiyyat bizim işimizə yaramaz." (51, 9-10) Mehmed Akif hər zaman ədəbiyyatın əyləncədən uzaq daha

gözəl qayələrə sahib olduğunu söyləmiş, əsərlərində də bunu aydın şəkildə göstərmişdi. Mehmed Akifə görə, şeir yazmaq oyunbazlıq deyil, millətin, cəmiyətin dərdini anlamaq, onu dilə gətirmək, düşdüyü çətin vəziyyətdən çıxış yolu göstərməkdir. Dövrünün bəzi şairlərindən fərqli olaraq, M.Akif şairi dövrün pedaqoqu hesab etmişdir. Bu səbəbdən də o, eşq və təbiət mövzularına deyil, realist və didaktik mövzulara müraciət etmişdir.

"Mehmed Akif sənət dedikdə "Sənət üçün sənət" deyil, "Cəmiyyət üçün sənət" şüarını əldə rəhbər tutmuşdur. M.Akifin nəzərində "Sənət sənət üçündür" düsturu ölmüşdür. Cəmiyyətə, insanlara xeyir verməyən sənət yerin dibinə batsın!" (36, 39) düşüncəsi ilə yazıb-yaratmışdır.

Mehmed Akif ədəbiyyatın cəmiyyətdəki rolunu yüksək qiymətləndirir və onun təsir gücünə inanırdı. Şair ədəbiyyatı cəmiyyətin aparıcı qüvvəsi adlandırmışdır: "Sırat-ı Müstəqim" məcmuəsində M.Akif "Cəmiyyəti tərbiyə edən, yaxşını pisdən ayırmağı öyrədən, yol göstərən, milli duyğularını coşduran, əxlaqını tənzimləyən, bir sözlə, bizə hər mənada ibrət dərsi verən bir ədəbiyyata ehtiyacımız var" (52, 56),- deyə fikrini açıqlayırdı.

Bu baxımdan Mehmed Akif Türkiyə ədəbiyyatında şeirə yeni bir ruh və məna qazandırmışdır. Hətta Namiq Kamalın açdığı yolu davam etdirməyə çalışan, lakin cəmiyyətdən uzaqlaşan "Sərvət-i fünun"un yaratdığı ağır ab-havanın təsirindən sonra Mehmed Akif sənəti – bədii sözün ictimai funksyasını ön plana çəkmiş, ictimai əxlaqla ədəbiyyatın vəhdətini yaradaraq bu boşluğu doldurmuşdur.

Realist sənətkar nəinki yaşadığı dövrdə baş verən böyük siyasi, ictimai və kütləvi hərəkata, hətta ən kiçik hadisələrə də biganə qalmamışdır. Müasirlik prinsipi onu geniş oxucu kütləsinə sevdirmişdir. Müasirlik, aktuallıq və həyatilik Mehmed Akif yaradıcılığında o qədər qüvvətlidir ki, yaşadığı dövrün ən mühüm hadisələri onun əsərlərində öz əksini tapmışdır. Dərin müşahidə və mühakimə qabiliyyətinə malik şair kimi şeirləri, məqalələri daim xalq tərəfindən izlənilmişdir.

Mehmed Akifə görə, sənətkarın yaradıcılığı dəqiq plan əsasında yazılmalı, şair nəyi necə yazacağını əvvəlcədən bilməlidir. Mehmed Akifə görə, plan tərtib etməyən sənətkar üçün əsərinin süqutu mütləqdir. Yalnız planlı bir əsəri ərsəyə gətirərək müvəffəqiyyət qazanmaq olar.

Bir sənətkar kimi Mehmed Akif şeirlərində səmimilik və təbiilik tam şəkildə hiss olunur. Ümumiyyətlə, ədibin yaradıcılq yolunda mürəkkəblikdən sadəliyə doğru təkamül müşahidə olunur. Onun müxtəlif illərdə nəşr olunan kitablarını müqayisə etdikdə, son illərdə yazdığı şeirlərin gənc yaşlarında qələmə aldığı şeirlərdən daha sadə dildə yazıldığının şahidi oluruq. Mehmed Akifin bədii dilə münasibəti onun ədəbi-estetik görüşlərinin mahiyyətindən irəli gəlir. Əgər şair xalq üçün, millət üçün yazırsa, deməli, əsərlərinin xalq kütləsi tərəfindən necə anlaşılacağı barədə də fikirləşməli və elə dildə yazmalıdır ki, ifadə etdiyi fikirlər milyonlarla insanın beyninə yol tapa bilsin. O, xalqın cəhalət və avamlığının səbəbini bir çox şair və yazıçının əsərlərini yalnız həvəs xatirinə, söz demək naminə yazmalarında görürdü.

Beləliklə, Mehmed Akif bədii əsərdə xəlqiliyi, onun dilinin, obrazlar sisteminin milli ruha yaxınlığı konsepsiyasını irəli sürmüşdü. Şairin fikrincə, yazılan əsərlərin geniş oxucu kütləsi arasında yayılmasının başlıca səbəbi müəllifin ifadə etdiyi ideyanın asanlıqla qəbul olunmasından asılıdır. Məqalələrinin birində Mehmed Akif belə bir fikir irəli sürmüşdür: "Biz ədəbiyyatçılar, istər mövzu, istərsə də üslub baxımından olsun, hər şeydən əvvəl bütün osmanlıları düşünməli; yəni mümkün olduğu qədər xalqa xitab edəcək əsərlər meydana gətirməliyik. Yoxsa həvəs üçün yazı yazmağa girişəcək qədər sərsəm deyilik! Onsuz da altı yüz ildən bəri yalnız həvəs və zövqü düşünə-düşünə avam olub qalmışıq!" (36, XXXVII)

O başka... Borsalar üslûb için "şudur" denemez.
Asalet olmalı san'atta evvelâ... Bu: melez!
Hayır, melez de değil... Belki birçok üslûbun
Halita hali ki, tahlile kalkışılsa: uzun!
Necîb eser arıyorsan : Sebile bak, işte...
Taşıp taşıp dökülürken o şi'r-i berceste,
Safâ-yı fıtratı şahit ki, tertemiz aslı;
Damarlarında yüzen kan da, can da Osmanlı! (37, 243)

Əminönündə Avropa sayağı tikilmiş bir bank binası üçün yazılmış bu misralarda onun sənət ideyası öz əksini tapır.

Mehmed Akif hər zaman həcv və tənqiddən istifadə etmişdir. Ədəbiyyatdan çox şeylər gözləyən şair M. Ə. Sabir kimi

millətin əskikliklərini əks etdirməklə yanaşı, həmin çatışmazlıqların çarəsini də göstərmişdi. Buna görə onu tənqid edənlər də olmuşdu: "Yetər canım, bu qədər də tənqid olmaz ki, bu millətin ayıblarını niyə bu qədər açıb göstərirsiniz?"– tənqidi bir sualı o, belə cavablandırmışdır: "Mən bu milləti sizdən az istəmirəm, bu dərdlər mənim dərdlərimdir. Bunları açıb göstərməsəm, dərman tapa bilmərəm. Elə buna görə də əskik gördüyüm hər şeydən yazacağam." Mehmed Akif başqa bir məqaləsində yazırdı: "Əlverişli gördüyümüz hər mövzuda yazacağıq. Hələ ictimai dərdlərimizi söyləməkdən, yaralarımızı açıp göstərməkdən heç çəkinməyəcəyik. Burada məqsədimiz zavallıların zənn etdiyi kimi milləti yada, düşmənə güldürmək deyildir."(19,143) "Səbilür-rəşad"dakı "Ədəbiyyat" başlıqlı yazısında isə Mehmed Akif öz fikrini belə izah etmişdir: "Məramımız özümüzü deyil, masqaralıqlarımızı masqara etməkdir. Ta ki, adət etdiyimiz hər gün təkrarlamaqdan heç yorulmadığımız, usanmadığımız bir çox pis əməlləri yavaş-yavaş buraxıb, əlbirliyi ilə insanlığa doğru bir addım ataq." (50, 34)

Mehmed Akifə görə, mövzunun seçilməsi və düzgün istifadə edilməsi ilə yanaşı, fikrin təsirli təsviri bədii yaradıcılığın mühüm şərtlərindən biridir. "Şeirdəki təsvir "dağınıq" və "ətraflı" olmalıdır", – fikrini Mehmed Akif belə izah etmişdir: "Çünki bu cür təsvirlərdə əsas məqsəd bir çox hadisəni əşyalar vasitəsi ilə verməkdir. Məsələn, bir dilənçinin səfalətini izah edərək acınacaqlı vəziyyətini göstərmək üçün – "Ah... çox kasıb idi, yazıq yeməyə çörək tapmırdı...", – deməkdənsə, o zavallının evində

bütün çılpaqlığı ilə mərhəmət oyandıracaq nə qədər əşya var-sa, onları göstərmək daha təsirli olar. Belə ki, söyləyərək deyil, rəssam məharəti göstərərək dilənçinin vəziyyətini oxucuya çatdırmış olarsınız. Əlbəttə ki, görmək dinləməkdən üstündür."

Şairə görə, təsvirdə məqsəd, təsvir etdiyi mənzərələri göstərməklə yanaşı, həqiqətləri əşyaların dili ilə verməkdir. Belə ki, əşya təsvirlərinə diqqət edən şair insan təsvirlərində də həssaslıq göstərmiş, sentimentalizm nümayiş etdirmədən, heç bir zaman ruh təsvirlərinə və xırdalıqlara yer verməmişdir.

"Safahat" şairi Mehmed Akif formadan çox məzmuna üstünlük verirdi. Buna görə də o, əsasən klassik nəzm şəkillərindən istifadə etmişdir. Onun novatorluğu klassik şeir janrlarına münasibətində də özünü bariz şəkildə göstərmişdir. Şair klassik şeir janrlarından məsnəvi, qitə, müxəmməs, mürəbbə və tərkibbəndə müraciət etmişdir. Mehmed Akifin "Safahat"da nəşr olunan yüz səkkiz şeirindən altmış üçü məsnəvi, otuz ikisi qitədir. Tərkibbənd və müxəmməs növünü mənzumənin mövzusuna əsasən ya məsnəvi, yaxud qəzəl janırı ilə birlikdə qələmə almışdır. Mehmed Akif müraciət etdiyi nəzm janrlarına görə müasirlərindən fərqlənir. Belə ki, o, ənənəvi şeir növlərinə müəyyən əlavələr etmişdir. Buna misal olaraq "Haqqın səsləri" şeirini göstərmək olar.

Belə ki, bu janr, (aa aaa bbbba .....) kimi qafiyələnməsinə baxmayaraq, "Haqqın səsləri" şeirində fərqli şəkildə qafiyələnmişdir. Mehmed Akif burada bəndlərin sayını da artırmışdır. Göstərilən mənzumə on bəndlikdir. İlk doqquz bəndin hər birində beş mis-

ra var və misralar öz aralarında qafiyələnir: (aaaaa, bbbbb.....)

Mehmed Akif bəzi şeirlərində müsəbbə (yeddilik) janrından da istifadə etmişdir. Burada da Mehmed Akifin nəzm şəklinin ənənəvi qurluşuna müdaxilə etdiyi görünür. Hər bəndi yeddi misradan ibarət olan bu nəzm şəklini şair yenə öz zövqünə uyğun qurmağa çalışmış və son bənddəki misra sayını dörddə endirmişdir. Bəndlərin 1-ci və 3-cü, 2-ci və 4-cü misraları çarpaz; 5, 6, 7-ci misralar öz aralarında qafiyələnmişdir. Bu cür qafiyələnmə axırıncı bəndə qədər davam edir.(ababbccc....) Son bənd isə 4 misradan ibarətdir. Bu bənddə beytlər öz aralarında qafiyələnir. (aabb) Son iki bəndi aşağıya alaraq şairin yaradıcılığına xas xüsusiyyəti görə bilərik:

Fakat o zemzemeler uçtu hep dudaklardan...
Sürûd-i neşve bu âlemde pek süreksizdir!
Ağır ağır geçiyorken alay sokaklardan,
Gelir de caddenin ağzında mıhlanır, dikilir,
Mehîb-manzara bir anlı şanlı gerdûne;
İçinde pudralı üç kanlı çehre! Neyse yine,
Yol açtı bir iri ses mevkibin geçip önüne: (36, 132)

-Siz ey heyakil-i bi-ruhu devr-i mazinin,
Dikilmeyin yoluna karban-ı atinin;
Nedir tarikim kesmekte böyle isti' cal?
Durun, ilerlesin Allah için, şu istikbal (36, 129)

Mehmed Akif qəsidə janrına bir o qədər də maraq

göstərməmişdir. Çünki qəsidə janrının qayda-qanunu onun təhkiyəli, nəql edici üslub sərbəstliyinə uyğun deyildi. Tənzimat ədəbiyyatında şairlər tərəfindən qəsidə fərqli şəkildə istifadə olunmuşdur. Mehmed Akifin birinci "Safahat"ında qələmə aldığı "Mərhum İbrahim bəy" mənzuməsi fərqli qafiyələrlə, bir birinin davamı olan üç qəsidə və bir müsəddəsdən ibarətdir. Mehmed Akif qafiyələri dəyişdirərək oxucunu monotonluqdan qurtarmış, qəsidələrin sonuna əlavə etdiyi qısa misralarla forma yeniliyi yaratmışdır.

Mehmed Akifə görə, poetik fikrin dolğun, əhatəli ifadə edilə biləcəyi ən rahat şeir növü məsnəvidir. O, mənzumələrini məsnəvi janrında yazmaqla fikrini əhatəli şəkildə, təfərrüatı ilə oxuculara çatdırmaq imkanı əldə etmişdir. Deməli, Mehmed Akif fikrin ifadə formasından çox, ideyanın daha dolğun və əhatəli olmasına üstünlük vermişdir.

Mehmed Akif iri həcmli şeirlərində oxucunu yormamaq üçün tez-tez hadisələri əsas mövzusu ətrafında cərəyan etdirməklə yanaşı, bəzən lətifə janrına da (oxucunun fikrini cəlb etmək üçün) müraciət etmişdir. Nəzm şəkillərində sərbəstliyini paylaşdığına görə o, müxtəlif şeir şəkillərini sintez etməkdən çəkinməmişdir. Belə ki, şairin müxəmməslə başladığı bir şeirini məsnəvi ilə davam etdirdiyinin şahidi oluruq. Buna misal olaraq "Məzarlıq" adlı mənzuməsini göstərə bilərik. Bu mənzumədə yeddi bəndlik bir müxəmməsdən sonra şeirin ölçüsü dəyişdirilərək, məsnəvi şəklində davam etdirilir:

Ey şebistân, ey adem, ey perde perde kibriyâ,

Sendedir ümmîdler: Senden doğar fecr-i beka
Her hacer-pâren okur bin şi’r-i lâhûtî-edâ;
Her neşîden ruhu eyler sermediyyet-âşinâ.
Ey semavî hâk, benden bir selâm olsun sana.

Sıkınca ruhumu ba’zen metalibiyle hayat,
Olur yegane mesirem mahalle-i emvat.
Muhit-i velvele-darında zindeganinin,
Feraq-ı daimi yoktur hayat-ı saninin. (36, 37)

Şair “İstibdad” adlı şeirini də eyni janrda yazmışdır.

Mənzumələrdəki təsvir və təhkiyə bölümlərinin bəzən qəzəl və məsnəvi janrında yazılması diqqəti cəlb edir. Birinci bölümü qəzəllə başlayan bir şeirin, ikinci bölümü yenə məsnəvi ilə davam etdirilmişdir. “Mərhum İbrahim bəy” adlı mənzumənin qafiyə quruluşu baxımından giriş hissəsi qəzəl, ikinci hissə isə məsnəvi formasındadır. Şəkil dəyişikliyinə ilk və son altı hissələrdə rast gəlinir:

Çemende cilveler eyler bahâr-ı dîdârın,
Sabâ nüvîd-i ümîd-âver- visalindir.
Şitâ, peyinde hurûşan kıyâmet-i kübrâ,
Rebî’, hâtıra-i şi’r-i lâ-yezâlindir.
Hülâsa, nazra-i im’ânımın önünde cihan
Senin sahîfe-i zâtın, senin mealindir.
Senin hayal-i sabihin- ki bir zaman ey yar,

Edince leyle-i ruhumda bir emel bidar;
Kıyas ederdim açılmış sabah-ı istikbal-
Bu gün bulutların altında eylemekte karar!
Garib, şam-ı gariban kadar hazin oluyor,
Nigah-ı rikkatimin karşısında fecr-i bahar. (36, 353)

Nəticədə son bölümün qəzəl formasında; (aa,ba,ca...) olmasına baxmayaraq, altı bəndlik müxəmməslə birlikdə forma baxımından rəngarəng bir nəzm şəkli ortaya çıxmışdır.

“Safahat”da məsnəvidən sonra ən çox işlənən janr qitədir. Mehmed Akif şeirin bu növündən daha çox subyektiv duyğularını ifadə etmək üçün istifadə etmişdir.

Mehmed Akif yaradıcılığında başqa formalarda olduğu kimi, qitədə də bəzi dəyişikliklər tətbiq etməklə sənətinə gözəllik qatmışdır. Əsərlərinin əksəriyyətində qitənin müəyyən dəyişikliklərə uğradığını aydın görmək olur. Yəni, (xa xa xa...) və ya (aa xa) qafiyə forması Mehmed Akif tərəfindən dəyişdirilərək, yeni bir qafiyələnmə forması alınmışdır. “Safahat”ın yeddinci hissəsindəki “Hüsran” adlı şeirinə fərqli qafiyələnmə ilə bir beyt də əlavə edilmişdir. Eyni qafiyələnmə formasına “Safahat”ın birinci hissəsində yer alan “Müqəddimə”də də təsadüf olunur:

Ben böyle bakıp durmayacaktım, dili bağlı,
İslâm’ı uyandırmak için haykıracaktım.
Gür hisli, gür imanlı beyinler, coşar ancak,
Ben zâten uzunboylu düşünmekten uzaktım!
Haykır! Kime, lâkin? Hani sahipleri yurdun?
Ellerdi yatanlar, sağa baktım, sola baktım;

Feryadımı artık boğarak, na'şını, tuttum,
Bin parça edip şi'rime gömdüm de bıraktım
Seller gibi vadiyi enînim saracakken,
Hiç çağlamadan, gizli inen yaş gibi aktım.
Yoktur elemimden şu sağır kubbede bir iz;
İnler "Safahâtımdaki hüsran bile sessiz! (36, 437)

qafiyə qurluşu ilə yazılan bu şeirin son iki misrasına Mehmed Akif fərqli şəkildə; qafiyələnən bir beyt (bb) də əlavə etmişdir.

M. Akifin "Safahat"ında tərkibbənd şəklində yazılmış bir şeiri də vardır. Şair bu cür bədii ifadə formasına yaradıcılığının ilk illərində müraciət etmişdir. Bu, "Safahat"ın birinci hissəsində dərc olunan "Səlma" adlı şeirdir.

Qəzəl janrından istifadə edən Mehmed Akif bu barədə fikrini belə ifadə etmişdir: "Qəzəliyyat vadisi yetişdirmə gücü qalmamış bir torpaqdır. O vadidən bir məhsul almaq üçün torpağa gübrə vermək və çalışmaq lazımdır." (41, 156) Lakin bu fikri söyləmək heç də bu janra müraciət etməmək anlamında deyil. "Safahat"ın yeddinci hissəsində yer alan "Nə əsər, nə səmər" başlıqlı mənzuməsi janr xüsusiyyətləri baxımından bir qəzəldir. Lakin bu şeirin beytlərə ayrılmaması bir daha şairin məsnəvi formasına üstünlük verdiyini göstərir.

Mehmed Akif oxucunu yormamaq üçün digər şeir növlərini də uyğun bir şəkildə dəyişdirməyə müvəffəq olmuş və istifadə etdiyi şeir formasına gətirdiyi yenilikdən məharətlə istifadə etmişdir.

## 3.2. İstifadə etdiyi əruz formaları

Mehmed Akif əsərlərini çox sevdiyi əruz vəznində yazmışdır. Doğrudur, ona qədər türk ədəbiyyatının çox görkəmli söz ustaları əruz vəznində gözəl əsərlər qələmə almışlar. “M. Akifin Türkiyə ədəbiyyat tarixində yer qazanmasına səbəb olan xüsusiyyətlərdən biri də onun əruzdan istifadə etmək məharətidir. Bununla bərabər, haqqındakı araşdırmalarda, şeirlərinin bu baxımdan nə kimi xüsusiyyətlərə malik olduğu geniş şəkildə tədqiq edilməmişdir.” (89, 160) O, şeirlərini, demək olar ki, tamamən əruz vəznində yazmış, heca vəzninə çox az müraciət etmişdir. Yalnız “Bayram” adlı mənzuməsində heca vəznində yazılmış bir xalq mahnısına yer vermişdir:

“Onar parayla biraz sallanırdılar... Derken,
Dururdu “Yandı!” sedasıyle türküler birden.
– Ayol, demin daha yanmıştı a! Herif sen de...
– Peki kızım, azıcık fazla sallarım ben de.

“Deniz dalgasız olmaz,
Gönül sevdasız olmaz
Yari güzel olanın
Başı belasız olmaz

Haydi’ndi mini mini maşallah
Kavuşuruz inşallah (36, 42)

Heca vəznində fikrin ifadəsi çərçivə daxilində (ölçü) olduğundan şair düşüncənin ölçüyə salınması məcburiyyəti ilə üz-üzə qalmamaq üçün əruz vəzninə üstünlük vermişdir. Buna səbəb də əruz vəzninin yüz illər boyu işlənə-işlənə mükəmməl bir ölçü halına gəlməsidir.

Mehmed Akif özünün poetik ruhuna uyğun gələn əruz formasını seçmişdir.

Şeirdə monotonluğu aradan qaldırmaq üçün şair əruz vəzninin təfilələrini (bəhrlərini) mövzunun xarakterinə uyğun olaraq dəyişmişdir. Bir mövzudan başqa mövzuya keçdikdə şairin istifadə etdiyi qəliblər oxucuda fərqli təəssürat hissi yaratmaqla yanaşı, şeirinə bir dinamiklik də vermişdir. Bu cür şeirlərdə təsvir bölümünün sonu ilə təhkiyə hissəsi arasındakı canlılıq özünü qabarıq şəkildə biruzə verir. Mehmed Akif əruzun "rəməl" və "həzəc" bəhrlərinə daha çox müraciət etmişdir.

FaiLATün / feiLATün / feiLATün / feilün ( Rəməl bəhri )
Vurulup tertemiz alnından, uzanmış yatıyor,
Bir hilal uğruna ya-Rab ne güneşler batıyor. (36, 389 )

Lakin hekayə tərzindəki mənzumələrində vəzn dəyişikliklərinə də rast gəlinir. O, hekayələrin giriş hissəsində və təsvirlərdə bəsit qəliblərdən, izahın əsas hissəsində və dialoqlarda isə mürəkkəb ölçülərdən istifadə etmişdir.

məfAİlün / məfAİlün/ məfAİlün / məfAİlün ( Həzəc bəhri )
Bu bir ma'bed değil ma'buda yükselmiş ibadettir.
Bu bir manzar değil dîdâra vasıl mevkib-i enzâr

Semâdan inmemiştir, şüphesiz lâkin semavîdir:
Zemîni olmayan bir cilve-i feyyâz-ı hâvidir. (36, 7-8)

məfAİlün / fAilAtün / məfAİlün / fAilün ( Muzari bəhri )
Bir infilak-ı safadır ki yâr-ı cânımdır
Sabahı pek severim en güzel zamânımdır
Ridâ-yı leyli henüz açmamıştı dest-i semâ
Sabâ da hâb-ı sükûndan ayrılmamıştı daha . (36, 4)

Nəzmi nəsrə yaxınlaşdırmaq, təhkiyəni təbiiləşdirmək meyli Mehmed Akifin şeirlərində daha çoxdur. Əruzu tətbiq etmə məharəti onun qələmə aldığı dialoq, mübahisə, hətta bu ölçü ilə yazılan ərizələrdə də özünü göstərir. Şair bu üsulla mərhəmətini, sevgisini, hisslərini şeir dili ilə ifadə etmişdir:

məfAİlün / fAilAtün / məfAİlün / fAilün (Muzari bəhri)
"Açıktı pencereler; Sağlı sollu her evden
Gelirdi türlü sadalar, acıklı ba'zen şen,
-Bak anne, aydede bak bak!
-Aman da maşallah
Değirmi tabla kadar var.
-Susundu Ayşe, günah.

-İlahi teyze tuhafsın, neden günah olacak?

-Günah dedim ya, bırak şimdi...

-Haydi sen de bunak!

-Bunak, munak deme billahi çarparım elimi....

Aşüteler sizi...Ahir zaman tevekkeli mi !          (36, 76)

Şair əruz ahəngini pozmadan məfAİlün / fAilAtün / məfAİlün / fAilün muzari bəhrini tətbiq edərkən, danışıq dilində olan təbiiliyi qoruyub saxlaya bilmişdir. Bu vəzn ustalığı ilə yanaşı, şeirin anlaşıqlı olmasına imkan verən müstəsna bir xüsusiyyətdir. "Safahat şairi" əruz vəznindən istifadə edən şairlər sırasında önəmli yer tutan sənətkar olmuşdur. Tofiq Fikrət yaradıcılığına məxsus dil-üslub xüsusiyyətlərini Mehmed Akifin əsərlərində daha dolğun, zəngin və yaradıcı şəkildə görmək mümkündür. "Safahat"ın altıncı kitabındakı mənzum hekayələr və lətifələr şairin sənətkarlığını bir daha sübut edən nümunələrdir. Məhz bu cəhətdən Mehmed Akifi türk əruzunun Memar Sinanı adlandırmışlar.

Onun "Fatih Camisi" adlı mənzuməsi əruzun iki ayrı ölçüsü ilə yazılmışdır. İlk 13 beytdə qafiyə düzülüşü (aa ba ca da....) şəklidədir:

Yatarken yerde ilhadıyle haşr olmuş sefil efkar,
Yatıp edvarı yükselmiş bu müdhiş heykel-i ikrar.
Siyeh-rengi-i dalalet bir bulut şeklinde maziler,
Civarından kaçar, bulmaksızın bir lahza istikrar;
Ziya-riz-i hakikat bir seher tavrında müstakbel,

Gelir fevkınden eyler semedi binlerce nur isar. (36, 7)

Mənzumənin sonrakı bölmələrində qafiyə düzülüşü vəznin dəyişməsi ilə əldaqədardır. İkinci bölmədə isə qafiyənin məsnəvi şəklinə görə (aa bb cc...) olaraq tərtib edildiyini görürük.

Bir infilak-ı safadır ki yar-ı canımdır,
Sabahı pek severim, en güzel zamanımdır.
Rida-yı leyli henüz açmamıştı dest-i sema;
Saba da hab-ı sükundan ayılmamıştı daha,
Feza-yı ruhda aksetti, es-sela-perdaz
Müezzinin dem-i mahmuru, bir hazin avaz. (36, 8)

İkinci bölmənin son dörd misrasında məsnəvi tərzli qafiyə sırası (ab ba) "sarma qafiyə" adlanan qafiyə forması ilə əvəz olunmuşdur.

O çuş içindeki iman?
Evet, huruş ederek işte rahmet-i Subbuh,
Bütün yüreklere serpildi kubbeden bir ruh:
Ruh-i itminan. (36, 10)

Bu qanunauyğunluq mənzuməyə hiss ediləcək dinamizm gətirmişdir.

Mehmed Akifin şeirlərində çox vaxt təsvir, təhkiyə, muhavirə kimi ifadə vasitələrinə rast gəlirik. Müxtəlif ifadə vasitələrindən istifadə etməsinə baxmayaraq, qafiyələnən səslər misradaki ye-

rini dəyişsə də, dəyərini qorumaqla yanaşı, misralardakı məna tamlığını saxlamışdır.

Beləliklə, mənzumələrində qafiyə ölçülərini məharətlə improvizə edən Mehmed Akif şeirə dinamiklik, axıcılıq gətirmişdir.



## 3.3. Dil və üslub xüsusiyyətləri

Türk dilinin imkanlarına dərindən bələd olan şair ali fikirlərini, incə duyğularını sadə və aydın şəkildə ifadə etmişdir. Məhz bu baxımdan İsmayıl Həbib onun qatı bir türk milliyyətçisi olduğunu söyləmişdir. İ. Həbibə görə, Mehmed Akif əruz vəzninə türk şivəsini qatmağa, türk səslərini o misralara yerləşdirməyə müvəffəq olan böyük sənətkardır.

Bu barədə İbrahim Ələddinin də söylədiyi fikir maraqlıdır: "Türk xalq dilindən onun qədər saf və təbii şəkildə istifadə edən, türk xalqının könlünü onun qədər dürüstlük və səmimiyyəti ilə fəth edən bir şairimizin yetişmədiyinə inanırıq." (78, 34)

Mehmed Akifin yaradıcılığında türk dili bütün gözəlliyi və səciyyəvi xüsusiyyətləri ilə öz əksini tapmışdır. Min misralıq şeirlərində Türkiyənin bütün bölgələrinə məxsus danışıq dilinə rast gəlmək mümkündür. Mehmed Akif türk dilini əruza ən mükəmməl şəkildə uyğunlaşdıran sənətkardır.

Qeyd edildiyi kimi, Mehmed Akif dildə sadəlik tərafdarı idi. İlk şeirlərində bir çox ərəb və fars kəlmələrindən istifadə etməsinə baxmayaraq, müasirlərindən fərqli olaraq şeirlərini xalq arasında istifadə olunan danışıq dilində qələmə aldığını görürük. Belə bir seçim ilə Mehmed Akif çatdırmaq istədiyi fikirlərin sadə insanlar tərəfindən başa düşülməsinə müvəffəq olmuşdur. Bu hal Mehmed Akifin yazdığı məqalələrdə də öz izahını tapmışdır: "Bu gün nəzmimlə hərəkət etməkdə qayəm cəmiyyətimizdə olan problemləri ortaya qoyub xalqı bunlardan xəbərdar etməkdir."

(85, 306) Yəni əsərlərini xalq üçün qələmə aldığına görə sadə və təmiz ana dilində yazmaq onun əsas qayəsi olmuşdur. Tənzimat dönəmindən etibarən dilçilik sahəsində aparılan sadələşmə prosesi Mehmed Akifin şeirdə mühavirə tərzindən istifadə etməsinə zəmin yaratmışdır. "Xüsusilə 1908-ci ildən bəri dildə sadələşmənin sürətlənməsində Mehmed Akif mənzumələrinin təsiri hiss olunacaq qədər qüvvətlidir. İlk şeir kitabı olan birinci "Safahat"ı altıncı və yeddinci "Safahat" la qarşılaşdırdığımız zaman son şeirlərinin əvvəlkilərə görə nə qədər sadə olduğunu görürük." (88, 181)

Müasirlərinə nisbətən sadə dildə yazdığını qeyd etdiyimiz Mehmed Akif ərəb və fars sözlərindən bacardıqca az istifadə etməyə çalışmışdır. Jarqonlar, məhəllə ifadələrini şeirlərinə ustalıqla yerləşdirmişdir. "Bəzən açıq-saçıq kəlmələrdən, xalq dilində işlənən, fəqət ədəbi dildə olmayan və vəznə sağmayan sözlərə belə rast gəlirik, bəzən də oxucunun xalqdan biri olduğunu unudaraq, Tənzimat dövrünün dili ilə təsvirlər verir, hiss və xəyallarını sırf ərəb və fars dilində olan tərkiblərlə ifadə edir." (78, 34)

Sena Ongunun yuxarıdakı ifadələrini şairin "Meyxana" adlı şeirinin ilk iyirmi iki misrasına baxaraq, daha aydın görə bilərik. Bu şeirdə Mehmed Akif duyğularını yüksək səviyyədə ifadə etmişdir. Ərəb və fars söz və söz birləşmələrinin sayı bu hissədə daha çoxdur. Misraların ahəngi digər hissələrə nisbətən güclüdür:

Hurûşân bâd-ı süfliyyet derunundan, kenarından;

Girizân rûh-ı ulviyyet harîminden, civarından.

Çıkar bin nâle-i nevmîd hâk-ı ra’şe dârından,
İner bin zulmet-i makber fezâ-yı şeb-nisârından
(36, 30)

Mehmed Akif “Şeir kəlmələrdən mürəkkəbdir”, – fikrini hələ Müəllim Nacinin təsiri ilə klassik tərzdə ilk şeirlərini qələmə aldığı andan etibarən başa düşmüşdür. Belə ki, şairliyi ilə bərabər türk dilinin inkişafında son dərəcə əməyi olan Süleyman Nazif “İstibdad” mənzuməsi ilə onun şeir dilini axar çaya (selaset kevseri) bənzətmiş, şeir dilini yüksək qiymətləndirərək; “Utandım ağlayarak, ağladım utanmayarak!..” – misrasının “tək başına parlaq bir şeir tablosu” olduğunu söyləmişdir. Ayrıca, Mehmed Akifin dilinin ifadə qüdrətini qeyd edərək:“Əgər Allah Quranı türk dilində endirsəydi, Akifin dili ilə nazil edərdi” (33, 123), – deyə İhsan Doğramacı onun dilinə, üslubuna yüksək qiymət vermişdir.

Bu günə qədər Mehmed Akifin yaradıcılığından bəhs edən bütün tədqiqatçılar şairin üslubunun son dərəcə sadə və təbii olduğunu qeyd etmişlər. O, nitq hissələri kimi, isim, feil və ədatlardan istifadə etmişdir. Əsasən mücərrəd isimlərə üstünlük vermiş, rəng, yaxud əlamət bildirən sifətlərdən az istifadə edilmişdir. Bu da şairin üslub seçimindən irəli gələn haldır. Məhz hər şeyi olduğu kimi anlatmağa çalışan şair sadə və bəzək-düzəksiz, dil normalarına uyğun, cümlənin struktur quruluşuna xələl gətirmədən özünəməxsus bir üslubda yazıb-yaratmışdır.

Qeyd edək ki, söylənilənlərlə yanaşı, Mehmed Akif dini mövzulara müraciət etdiyi zaman fars dilindən alınma söz və söz birləşmələrindən daha çox istifadə edərək dilin tərkibini ağırlaşdırmışdır.

Fikirləri ilə əməlləri bir-birini tamamlayan şair müşahidə və reallığa verdiyi qiyməti belə ifadə etmişdir: "Mənim şeirlərimdə elə yüksək xəyallara rast gəlməzsiniz. Mən şeirdə xəyala dalmaram. Mən adi şeylərdən bəhs edirəm; məsələn, bu daşdır. Ona daş deyərəm. Göydən enmiş Həcəri-səmavi (göydən düşən və Kəbədə olan qara daş) deməərəm. Bu taxtadırsa, ona taxta deyərəm, taxt demərəm. Əşyanı real formasından çıxarıb, xəyal qüvvəti ilə dəyişdirib, ona fövqəladə bir şəkil verməərəm. Hər şeyi olduğu kimi görür, göründüyü kimi təsvir edərəm. Ən kasıb məhəllələrə gedib, onları bir rəssam kimi eyni ilə təsvir edərəm. Mənim şeirim də elə buna görə bəyənilir." (41, 168)

- Hayır, hayal ile yoktur benim alış verişim...
İnan ki: Her ne demişsem görüp de söylemişim. (36, 208)

Mehmed Akif klassik şeir ənənələrinə bağlı bir şairdir. Onun yaradıcılığının ilk dövrü qafiyə ilə bağlı mübahisələrin getdiyi illərə təsadüf etmişdir. "Qafiyə qulaq, yoxsa göz üçündür?" fikri onu da düşündürmüşdür. Çünki Mehmed Akif yüksək musiqi duyumuna və ifaçılıq qabiliyyətinə malik insan idi. Musiqişünas Neyzen Tofiq onun ən yaxın dostlarından olmuşdur. Yeməkdən sonra musiqi dinləmək onun üçün ayrı bir zövq idi. Əşrəf Ədib,

Mehmed Akiflə bağlı xatirələrində onun qürbətdə (Misirdə) olduğu zaman hər axşam Şeyx Əli Mahmudun valını dinlədiyini qeyd etmişdir: "Bu şərqi çox həzindir. Ustad ona hər gecə təkrar-təkrar qulaq asdıqca mütəəssir olurdu." (41, 119) Dinlədiyi o mahnının sözləri belə idi: "Ey səhər yeli! Vətən ceyranlarına, o sakit vadiyə salamımı apar. Bəlkə, ömür vəfa edər də bir gün onların özlərini, ya da xəyalını yuxuda da olsa, gözlərimlə görərəm."

Mehmed Akif "Sənətkar" adlı şeirində məhz musiqini tərənnüm etmişdir. Belə ki, musiqi aləmi ilə maraqlanan şair dostu, musiqişünas Şərif Muhiddinin Amerikada olduğu zaman dövlət başçısı Ruzveldin oğlu A.Bullak Ruzveldin bir şərqlini belə heyran edəcək qonaqpərvərliklə qarşılaması, ona hörmət göstərməsi Mehmed Akifi çox təsirləndirmiş, qiyabi olaraq təşəkkürünü bildirmək üçün bu şeiri yazmışdır.

Ruhu ilə bir şair, dili və nəfəsi ilə bir musiqişünas olan Mehmed Akifin şeirlərində musiqi ahəngi elə ilk misralardan hiss olunur.

"Safahat" şairi ahəngin şeir üçün gərəkli olduğuna xüsusi önəm versə də, təvazökarlığından bunu şeirlərində gerçəkləşdirmədiyini söyləmişdir. "Mehmed Əli'yə" adlı şeirindən bəzi misralarını yada salaraq:

Yüksekliğin idrakimi yorgun bırakınca,
Kalbimle yetişsem diye şairliğe vurdum
Şi'rin başı hilkatteki âheng-i ezelmiş...
Lâkin, ben o ahengi ne duydum ne duyurdum! (36, 446)

və yaxud "Gecə"adlı şeirindən də iki misraya baxmaq yerinə düşər:

O lâhûtî şarâbın vahyi her zerremden inlerken
Bütün aheng-i hilkat bir zaman dinsin enînimden (75, 468)

Bu şeirlərdə ahəng çatışmazlığından bəhs etməsinə baxmayaraq, mükəmməl harmoniya (aheng-i ezel) və təbii ahəng (aheng-i hilkat) güclü şəkildə hiss olunur. Mehmed Akif belə bir ahəngə heyran idi. O, bundan ilham alaraq səslər və sözlər vasitəsilə şeirdə ahəngdarlıq yaratmağa cəhd etmiş, eyni zamanda şeirində təkrarlarla müsiqi harmonyasına nail olmuşdur.

Türk ədəbiyyatında "İstiqlal marşı"nın müəllifi, milli şair, əxlaq və fəzilət nümunəsi kimi tanınan Mehmed Akif Namiq Kamal kimi "həyatı sənətinin və sənəti həyatının əsəri olan" bir insandır. Ona görə, sənət məqsəd deyil, yüksək amal və ya məqsədlərə çatmaq üçün istifadə edilən vasitədir. (27, 3)

Mehmed Akif şeirlərindəki ahəng fərqlidir. Mehmed Akifə görə sənətkar ahəng ünsürlərini, ruhundakı ritmini və qulağındakı səsi itirməməlidir. Mehmed Akifin bu mövzuda söylədiyi fikri Əşrəf Ədib belə qeyd etmişdir: "Şeir çox nankordur, insan beş il çalışır, şeirlər yazır, sonra beş ay tərk edərsə, beş illik əziyyəti hədər olur. Yəni daima şeirin üzərində işləmək lazımdır." (88, 185)

Bu mənada şeirin yaranması ilə günəş şüalarının parlaması arasında analogiya aparmaq olar. Şeiri günəşə bənzətsək, günəş

dağınıq işıqlar saçmaz, amma bu şüalar, mərkəz nöqtəyə gəlir və orada toplandıqdan sonra yanmağa başlayar. Əsas iş də elə o nöqtəni tapa bilməkdir. Bütün bu şüalar bir nöqtədə birləşərsə, şeir o zaman şeir olar.

Hər bir əsərin özünəməxsus yaranma tarixi, mövzusu, ideyası, qayəsi vardır. Bu baxımdan ədəbi əsərləri bir-birindən fərqləndirən xüsusiyyətlər mövcuddur ki, bu da bir sənətkarın üslubu ilə təyin edilir.

Fransız alimi Alainin qeyd etdiyi kimi, Mehmed Akifin üslubu hadisədən, fikirdən və duyğudan daha öncə gözə çarpır. Bu, bayağılığa və süniliyə qaçmayan, ifrata varmayan, həqiqəti tərənnüm edən sözlərdən qurulmuş cəlbedici bir üslubdur.

Mehmed Akifə görə, sözün həqiqət olması, doğruluğu əsasdır. "Sözüm odun kimi olsun; həqiqət olsun tək!" sözləri ilə o, həm öz təvazökarlığını, həm də sənət fəlsəfəsini yaratmışdır.

Bunun nəticəsidir ki, Mehmed Akif bütün yaradıcılığı boyu öz sənət fəlsəfəsinə sadiq qalmış, şeirlərində işlədiyi bədii ifadə vasitələrinin təbii və reallığa uyğun olmasına çalışmışdır. O, əsərlərinin daha təsirli və gözəl olması üçün bədii ifadə vasitələrindən məharətlə istifadə etmişdir.

"Safahat"da şair bədii təsvir vasitələrindən istiarəyə müraciət etmişdir. Bu xüsusiyyət sənət əsərinin qiymətini artırır. İstiarə vasitəsilə yazıçı əşya və hadisələr arasındakı oxşarlıq və ya fərqi, təsvir etdiyi əşya və hadisənin əsas cəhətini qabarıq şəkildə əks etdirməyə müvəffəq olmuşdur:

Niçin gurûb ediverdin sen ey sitârei-şark,
Henüz kemâlini derk etmeden zavallı vatan? (36, 54)

Bu misralardakı istiarə şeiri daha mənalı etməklə yanaşı, oxucunun xəyal dünyasını dərinləşdirir. Yenə eyni notlar üzərində köklənmiş misraları Füzulinin də bir qəzəlində görə bilərik:

Tökdükcə qanımı oxun, ol asitan içər,
Bir yerdəyəm əsir ki, torpağı qan içər.

Öz dövründəki zülm və əziyyətləri göstərmək üçün Füzuli belə bir istiarəyə müraciət etmişdir.

Mehmed Akif bədii təsvir vasitələrindən təşbih barədə belə bir fikir irəli sürmüşdür: "Şeirdə bənzəyənlə bənzədilən arasında uyğunluq olmalıdır. Əks təqdirdə uyğunsuzluq olar, birlik olmaz. Çünki iki ünsür arasında uyğunluğun olması daha düzgün və gözəldir. Amma bənzəyənlə bənzədilən bir-birindən ayrı olarsa, yaxud aralarındakı uyğunluğun hər kəs tərəfindən dərk edilməsi asan olmazsa, fikri ifadə qarışıqlığından və müəmmalıqdan qurtarmaq üçün bənzəyənlə bənzədilən arasında uyğunluq qurmaq lazımdır." (86, 213) Burada şair şeirdə təşbihin vacibliyindən bəhs edərkən, şeirdə bənzəyənlə bənzədilən arasında mütləq bir uyğunluğun olmasını qeyd etməklə çox incə bir mətləbə toxunmuşdur.

Kükremiş sel gibiyim, bendimi çiğner aşarım.

Düşüncə və duyğularını gözəl şəkildə təqdim edə bilmək üçün təşbehlərdən istifadə edən Mehmed Akif özünü heç bir əngəl tanımayan kükrəmiş selə bənzədir. Mehmed Akif şeirlərində əsasən təsvir və bənzətmələrdən tez-tez istifadə etmişdir. "Əl Uksur" məcmuəsində nəşr edilən şeirdən bir parçaya nəzər salaq:

Önümde, zümrüde benzer, yığın yığın mevecât,
Saçıp saçıp uzuyor: Sanki bir serâb-ı hayât! (36, 292)

Şu korkuluk gibi dimdik duran herif mi? Paşa!
Tasavvur et: İki arşın kazık kadar bir boy! (36, 78)

Birinci iki misrada dalğalar zümrüdə bənzədilmişdir. "Dalğalar"- bənzədilən, "zümrüd"- ona bənzənən, "bənzər" isə ədatdır. İkinci iki misrada dalğaların kənarda yaratdığı mənzərə, sərabı-həyata (həyat ilğımı) bənzədilməkdədir. "Dalğa"– bənzədilən, "sərabı- həyat"– bənzənən, "sanki"– bənzətmə ədatıdır.

Mehmed Akifin "Çanaqqala şəhidləri" şeirindəki bu misra da təşbehdir.

Bedrin aslanları ancak bu kadar şanlı idi. (35, 386)

Burada şair müraciət etdiyi mövzuya mübaliğəli bir şəkildə yanaşmışdır. Türk əsgərinin nə qədər qüdrətli, nə qədər şanlı olduğunu göstərmək üçün onları Bədr dçyüşündə din və iman yolunda gözünü qırpmadan canından keçən və zəfər qazanan

İslam əsgərlərinə bənzətmişdir. Müxtəlif bənzətmə ədatları ilə, təşbehlərlə ifadələrini zənginləşdirən Mehmed Akifin üslubu özünəməxsusluğu ilə seçilir.

Mehmed Akif əsərlərində kinayədən də çox istifadə etmişdir. Belə ki, o dövrün çatışmazlıqlarını kinayə vasitəsilə ifşa etmiş, eybəcərlikləri açıb göstərmişdir. Cəmiyyətin mənfiliklərini bədii məcazla ifadə etmişdir. Şair yaşadığı dövrə, baş verən hadisələrə münasibətini kinayə ilə bildirmişdir:

Ey yolcu uyan ! Yoksa çıkarsın ki sabaha:
Bir kupkuru çöl var; ne ışık var ne de vaha!    (36, 431)

M.Akif əsərlərində məcazi-mürsəldən çox istifadə etmişdir:

Çatma kurban olayım çehreni ey nazlı hilâl. (36, 485)

– misrasındakı "hilâl" sözü ilə Türkiyə bayrağına işarə etmişdir. Şair bayraq haqqında aydın, parlaq təsəvvür yaratmaq üçün onu hilalın (ayın) əlamətləri ilə səciyyələndirir.

Mehmed Akifin məcazi ifadələri düşündürücüdür. O, oxucu ilə əsər arasındakı bağlılığı məcazlar vasitəsilə daha da artırmağa nail olmuşdur. Məcazlardan istifadə etməklə şair əsərlərinin dilini zənginləşdirmişdir:

Sen ey dilber ki, serpildikçe handen, fışkırır, yer yer,
Semâlardan, zeminlerden şafaklar, lâleler, güller;

Şu öksüz yurda bir gülmez misin? Hâlâ yetimindir;
Bütün yangındı indirdiklerin bir gün de nur indir. (36, 454)

Misralardakı "serpilmək" sözünün həqiqi mənasi böyümək, inkişaf etmək, boy atmaqdır. "Hande" gülüş mənasındadır, üzün gülməsi, gülümsəməyə bir işarətdir. Baharda təbiətin oyanması ilə uşağın böyüyüb boya-başa çatması eyni məna daşıdığı kimi, üzün gülməsi də həmin anlamdadır. "Öksüz" sözünün həqiqi mənası anasını itirmiş, anasız uşaq deməkdir. Qəriblik, yurd həsrəti və kimsəsizlik yetim uşaq kimi qəbul edilmişdir. "Öksüz yurd"– kimsəsiz, sahibsiz vətən deməkdir. Eyni misrada işlədilən "gülmək" sözünün də həqiqi mənası xoşa gələn və ya həyəcanlandıran hadisələr zamanı hissləri biruzə vermək, təbəssüm göstərmək mənasındadır. "Gülümsəmək" ifadəsi isə burada yetimi maddi və mənəvi gərginlikdən qurtarmaqla onu sevindirmək deməkdir. Yurda gülümsəmək isə ölkənin qarşılaşdığı problemlərdən qurtarmaq mənasinda işlədilmişdir. "Yanğın" sözünün həqiqi mənası alov tutma, yanma hadisəsi deməkdir. Yanğın fəlakətlərin həqiqi görünüşüdür. Yetim qalmış yurd yanğının baş verdiyi yeri, gərginliyi və təlaşı bildirməkdədir. Yanğının tərsi olaraq "nur" ifadəsi işlədilmişdir. Nur işıq, aydınlıq deməkdir. Problemlər ölkəni qaranlığa qərq etmişsə, həll olunması üçün nur, işıq lazımdır. Şair bu sözlərlə nurun Türkiyə üzərinə enməsini arzulamışdır.

Şair sevgisini, heyrətini, təqdir və təzyiqini cazibəli bir şəkildə ifadə etmək üçün ritorik sualdan (tecahüli arifanədən) istifadə

etmişdir. Süleyman Nazif aşağıdakı on misranın ritorik suala aid ən gözəl misal olduğunu qeyd etmişdir:

Ne gulguleydi o yâdın peyinde dalgalanan!
Nasıl uyanmadı bilmem ki uykudan Canan?
Muhîti bunca zamandır ki inliyor, az mı?
Kıyâm-ı Haşr'e kadar yoksa hiç uyanmaz mı?
Nasıl sığar ki, ilâhî, hayâle, idrâke,
Şu hâb-gâhı derâgûş eden demir şebeke,
—Yerinden oynamayan dağ kadar vücûdunda-
Bütün bu cuşişi ürpermelerle duysun da;
O Mihriban-ı Ezel, rûh-ı nâzenîniyle,
Uyanmasın koca bir mahşerin enîniyle? (36, 329)

Bu şeir parçasında Mehmed Akif tərəddüdsüz bir şəkildə ölümdən sonra diriləcəyinə inanmışdır. "Bununla bərabər Tanrının şəfqətinin oyanacağı günün çox uzaqda olduğunu da bilirdi. Görüb-eşitdikləri şairin qəlb və ruhunu coşub daşdırır, dərin və səmimi bir valehedici bir hisslə doldurur. Buna bilməməzlik deyil, heyrətlənmək demək daha münasibdir. Bu mübaliğələr aləmində şair bunun da az çox fərqini görmüşdür, o Tanrı şəfqətinin oyanaraq ruhu oxşamasını istəyirdi." (74, 40)

Mehmed Akif fikir və hisslərini oxucuya daha qabarıq, canlı və təsirli bir şəkildə çatdırmaq məqsədilə mənaca bir-birinə əks olan həyat lövhələrini yanaşı işlətmişdir. Çünki Mehmed Akifin üslubunda hər hansı bir şeyi əks mənası ilə ifadə etmək arzusu güclüdür. Bu səbəbdən də "Safahat"da təzada çox yer veril-

mişdir. Sənətkar əks mənalı sözləri yanaşı işlədərək əsərin məna zənginliyini daha da artırmışdır:

Garîb, şâm-ı gariban kadar hazîn oluyor
Nigâh-ı rikkatimin karşısında fecr-i bahâr.     (36, 52)

-misralarında ayrılıq zamanında, baharın xoş gəlişi axşamın qəribliyi qədər hüzünlü görülməkdədir. Şair baharın gəlişini axşamın qəribliyi kimi hiss etdirməklə, çəkilən acının dərəcəsini ən gözəl şəkildə göstərməyə müvəffəq olmuşdur:

Uzakta aksede dursun o hay ü hûy-i mehîb...
Sükun içinde biz ey dost, yek-revân, yek-ten, (36, 54)

– misralarında gurultu, səs-küy ilə sükunət qarşı-qarşıya qoyulmuş, təzadlı şəkildə oxucuya təqdim edilmişdir.

Mehmed Akif "Mərsiyyə" adlı şeirində bədii təsiri qüvvətləndirmək məqsədilə mübaliğədən istifadə etmişdir. "Çanaqqala şəhidlərinə" adlı mənzuməsində mübaliğənin gözəl nümunəsini yaratmışdır:

Gömelim gel seni tarihe desem, sığmazsın.

Bu misradakı məzar təsvirinə baxdığımız zaman mübaliğə nümunəsilə qarşılaşırıq. Şairin təsirləndiyi Füzulinin qəzəllərindən birində aşiq öz ahının külüngü ilə guya fələyin binasını viran et-

diyini belə bir mübaliğəli dil ilə ifadə edir:

Deyil bihudə gər yağsa fələkdən başimə daşlar,
Binasın tuşeyi-ahimlə viran etdiyimdəndir.

Mehmed Akif ifadəyə lətafət vermək, mənanı dərinləşdirmək məqsədilə hüsni-təlildən istifadə etmişdir. “Mərhum İbrahim bəy” adlı şeirdə ətraf aləmin qaranlığa qərq olması bürünməsi fərqli bir səbəblə izah olunur:

Muhît şimdi şebistân-ı iğtirâbındır;
Bugün uyanmıyor artık o nazenin eshârl
Sen ey semâları işrâk eden ziyâ-yı ezel,
Bu hâkdânı bıraktın peyinde zulmet-zâr. (36, 53)

Günəş batandan sonra qaranlığın düşməsi təbii hadisədir. Gündüz ilə gecənin təbii bir hadisə olaraq, bir-birini izləməsini sənətkar İbrahim bəyin ölümü ilə əlaqələndirmişdir.

Mehmed Akif yaradıcılığında bədii təsvir vasitələrindən təcəssümə müraciət etmişdir: “Hayır, hayal ile yoktur benim alış verişim...” (36, 112) anlayışındakı bir sənətçinin mücərrəd təsəvvürləri, müşəxxəsə çevirmə arzusu təşxis sənəti vasitəsilə həyata keçirilmişdir. Yenə onun;

Çatma kurban olayım çehreni ey nazlı hilâl

-misrasında bayrağın insan çöhrəsi kimi düşünülməsi təcəssümə nümunə ola bilər.

Sənətkar oxucuya çatdırmaq üçün, əsəri mənaca dərinləşdirmək, onun dilini və üslubunu daha da qüvvətləndirmək üçün təkrirlərdən istifadə etmişdir. Şair fikrini təkrarlamaqla istədiyi fikri, hissini, düşüncəsini oxucuya çatdırmağa müvəffəq olmuşdur.

Bakmayın, hem tükürün çehre-i murdarımıza!
Tükürün: Belki biraz duygu gelir arımıza!
Tükürün cebhe-i lâkaydına Şark'ın, tükürün!
Kuşkulansın, görelim, gayreti halkın, tükürün!
Tükürün milleti alçakça vuran darbelere!
Tükürün onlara alkış dağıtan kahbelere!
Tükürün Ehl-i Salîb'in o hayâsız yüzüne
Tükürün onların asla güvenilmez sözüne!
Medeniyyet denilen maskara mahlûku görün:
Tükürün maskeli vicdanına asrın tükürün! (36, 186)

Şair Şərq dünyasının laqeyidliyini, tənbəlliyini, Qərbin isə mədəniyyət maskası altında mədəniyyət əvəzinə törətdikləri çirkinlikləri qüvvətli şəkildə vurğulamaq üçün hər misrada "tükürün" (tüpürün) ifadəsindən istifadə etmişdir.

Mehmed Akif nidadan istifadə etməklə arzu və istəklərini, ümidsizliyini, heyrətini, nifrətini, inamsızlığını təsirli bir şəkildə ifadə etmişdir. "Mövlud gecəsi" adlı şeirinə diqqət yetirdikdə bu-

rada da şairin nidadan məharətlə istifadə etdiyinin şahidi oluruq:

Yıllar geçiyor ki, yâ Muhammed,
Aylar bize hep muharrem oldu!
Akşam ne güneşli bir geceydi...
Eyvah, o da leyl-i matem oldu!
Alem bugün üç yüz elli milyon
Mazluma yaman bir âlem oldu:
Çiğnendi harîm-i pâki Ser’in
Namusa yabancı mahrem oldu! (36, 205)

Mehmed Akif kin, qısqanclıq, ümidsizlik, kədər, acizlik, heyrət, sevgi, nifrət, təəssüf və bu kimi qəlb titrədən sarsıntının şiddətini daha qüvvətli şəkildə ifadə etmək üçün istifhama müraciət etmişdir.

Şair dərin hisslərlə özünü itirmiş bir ruhun peşmançılığını, düşdüyü vəziyyətdən asılı olaraq yaratdığı ifadə çətinliyinin həyəcanlı hallarının daha təsirli olması üçün rücuya müraciət etmişdir. Bu cür ifadə vasitəsi əsərə canlılıq verir, monotonluğu aradan qaldırır və oxucuya da eyni hissi keçirmək imkanı yaratmışdır:

İslâm’ı elinden tutacak kaldıracak yok...
Nâ-hak yere feryâd ediyor Acize hak yok!
Yetmez mi musâb olduğumuz bunca devâhî?
Ağzım kurusun... Yok musun ey adl-i İlâhî! (35, 192)

Sənətkar bədii ifadə vasitələrindən tənasübə də yer vermişdir:

İlâhî sînemin çınlar durur yâdınla eb'âdı,
Ne yapsın âbidin sensiz bu viran vahşet- abadı?
Nedir ma'nâsı, Mabûd olmadıktan sonra, mihrabın?
Rükû'un, haşyetin, vecdin, bütün bîçâre esbabın
Harâb enkâaz-ı îmandır, yatar haybetle yerlerde,
Ne bekler, sen geçerken pây-mâlin olmıyan secde? (36, 477)

"Safahat"da tez-tez rast gəlinən başqa bir ifadə vasitəsi də iqtibasdır. Yaradıcılığına diqqət yetirdikdə onun əsərlərində ayə və ya hədislərə yer verdiyinin şahidi oluruq. Bununla o, ilham aldığı hədislər vasitəsilə əsərlərinin dəyərini daha da artırmışdır. Şair şeirdəə ifadə etmək istədiyi fikiri ayə və hədislərlə tamamlayaraq, əsərin təsirini daha da artırmışdır:

Yanında yaş da yanar, çaresiz yanan kurunun...
Diyor Kitâb-ı İlâhî: "O fitneden korunun,
Ki sâde sizdeki erbâb-ı zulmü istîlâ
Eder de suçsuz olan kurtulur değil aslâ! (36, 256)

Mehmed Akif əsərlərində bir sənətkar kimi idioma və atalar sözlərindən də məharətlə istifadə etmişdir. Onun işlətdiyi "Ağzım qurusun..." ifadəsi müstəqim mənada işlənməmişdir. Yaxud "diş biləyir" ifadəsi isə düşmənin hər istiqamətdə hücuma hazırlaşması mənasındadır. Mehmed Akifin idiomatik ifadələrdən istifadəsi onun xalq yaradıcılığına münasibətilə üzvi surətdə

bağlıdır. Çünki bu ifadələr mənbəyini folklordan götürür. "Qalarsa el bəyənər, ölərsə yer bəyənər", "Qurunun yanında yaş da yanar", "Pardon" çıxalı eşşəklik mübah oldu", "Ortada fal yox, yumurta yox", "İt damarı tutmaq", "Bal deməklə ağız şirin olmaz", "Eşşək ölər səməri qalar, insan ölər əsəri" (63, 55-70) kimi atalar sözlərinə Mehmed Akif yaradıcılığında çox rast gəlinir. Əsl məsələ bunlardan necə istifadə olunmasıdır. Sınaqdan çıxmış və öz-özlüyündə gözəl bədii yaradıcılıq nümunəsi olan atalar sözü, məsəl və ya zərbi-məsəllər yerində işləndikdə təsir qüvvəsi daha da artır. İdiomalardan istifadə Mehmed Akif yaradıcılığına məxsus xüsusiyyətlərdən biridir.



# NƏTİCƏ

Türk ədəbiyyatı tarixi saysız-hesabsız böyük şəxsiyyətlərin adları ilə zəngindir. Xalqı milli birlik və istiqbal ideyası ətrafında birləşdirməyə çalışan belə şəxsiyyətlərdən biri də "İstiqlal marşı"nın müəllifi Mehmed Akif Ərsoy olmuşdur. Əsərlərində dini və milli dəyərləri ardıcıl müdafiə edən, cəmiyyətdəki neqativ halları, yadlaşmanı, kənar təsirlərə məruz qalmanı ürək ağrısı ilə tənqid edən M. Akif öz xalqını, eləcə də bütün müsəlman aləmini düşdüyü səfalətdən qurtarmağa çalışmış və bu yolda hər cür fədakarlıq etməklə ömrünü başa vurmuşdur. Millətini, xalqını ən yüksək zirvələrdə görmək, dövlətinin və xalqının keçmiş ehtişamını geri gətirmək şairin əsas qayəsini təşkil edirdi.

Mehmed Akifə görə cəmiyyətin ayağa qalxması üçün xalqı əsrlərlə yatdığı qəflət yuxusundan oyatmaq, daha sonra cəhaləti ortadan qaldırmaq, itirilənləri geri qaytarmaq, yeni elmi və texniki nailiyyətləri mənimsəməklə inkişafa nail olmaq hər bir ziyalının vətəndaşlıq borcu olmalıdır.

Dissertasiyanın birinci fəslində Mehmed Akifin yaşadığı mühit, keçdiyi həyat yolu və zəngin dünyagörüşünün tədqiqi də bir daha göstərir ki, Mehmed Akifin uşaqlıq və gənclik illəri Osmanlı imperiyasının çökdüyü bir dövrə təsadüf etsə də, o, ruhdan düşməmiş, öz dövlətini qorumaq və xalqın gələcəyini düşünərək iş görməyi, xalqın gücünü səfərbər etməklə mübarizə aparmağı üstün tutmuşdur. Dövrünün siyasi vəziyyətini və dəyişikliklərini dərk etmək və hadisələrə ayıq münasibət bəsləmək şairin əsas

məqsədi olmuşdur. Mehmed Akif görürdü ki, onun zamanında dövlətin qoyduğu sərt qanunlar, senzuralar ilə təzyiq altında əzilən insanlar arasında yaranan ziddiyyət, "İttihad və tərəqqi" cəmiyyətinin hakimiyyəti ələ alması ölkədəki vəziyyəti daha da ağırlaşdırmışdır. Hürriyyət xaosla əvəz olunmuş, əhalidə bir çaşqınlıq yaranmışdır.

1908-ci ildən sonra hadisələr sürətlə inkişaf etməyə başlamışdır. Başqa sahələrdə olduğu kimi, ədəbi mühitdə də zəiflik və monotonluq hökm sürürdü. Ədəbiyyat əsl mənasını itirib, bir növ əyləncə və əxlaqsızlıq xarakteri daşıyırdı. Xalqın mənəviyyatının sarsıldığını görən vətən övladları artıq sözdən hərəkətə keçmək zamanının yetişdiyini anlayaraq fəaliyyət imkanlarını daha da genişləndirməyə çalışırdılar. Belə şəxsiyyətlər sırasında Mehmed Akifin ictimai xadim kimi fəaliyyəti əvəzsiz, həm də bəhrəli olmuşdur.

Mehmed Akif əsərlərində yaşadığı cəmiyyətin səfalətini təhlil etmiş, xalqı ilə həmdərd, həməhval olmuş, bütün düşüncələrini və fikirlərini bölüşmək üçün "Sırat-ı Müstəqim" məcmuəsini dərc etdirmişdir. Xalqın həsrət qaldığı, ehtiyac duyduğu mövzuları, mənəvi dəyərləri gündəmə gətirməyin türk milləti üçün nə qədər vacib olduğunu dərk edən şair yaxşı bilirdi ki, bu ağır günlərdə xalqa mənəvi ruh vermək və ona dəstək olmaq vacibdir.

"Azmiyle, ümidiyle yaşar hep yaşayanlar",-deyərək yorğun və ümidsiz gəncliyə həyatın sirrini anlatmağa və onu düz yola doğru yönəltməyə çalışmışdır. Məcmuədən camilərə, camilərdən cəbhə xəttinə, oradan Türkiyə Böyük Millət Məclisinə qədər

yüksələn mütəfəkkir şair xalqının, daha doğrusu İslam dünyasının birliyi və gələcəyi üçün çalışırdı.

Milli mübarizənin ən ağır zamanlarında Avropaya diplomatik səfərlər edən, dünyagörüşünü zənginləşdirən, siyasi prosesləri izləyərək mühüm qənaətlərə gələn şair daha sonra Misir, Şam, Riyad və Mədinə şəhərlərinə getmişdir. 1915-ci ildə "Xüsusi təşkilat"ın xətti ilə Ərəbistanda diplomatik səfərdə olmuş, geri döndükdə Şam və Beyrut şəhərlərini də gəzmişdir.

Şamda olduğu zaman Suriya qəzetlərindən biri onun haqqında çox gözəl şeylər yazmış, Suriyanın hörmətli insanları Mehmed Akifin görüşünə gələrək, onu sadəcə Türk millətinin deyil, İslam aləminin də böyük oğlu deyə adlandırmışlar.

İttihad və Tərəqqi hökumətinin düşüncə və idarə şəklinə müxalif olmasına baxmayaraq, Mehmed Akif rəsmi vəzifədə işləməyi qəbul edərək, Berlinə və daha sonra Necidə gedir. Çünki vətənin böyük təhlükələr qarşısında olduğu bir zamanda Mehmed Akif fikir ayrılığını qabartmağı özünə sığışdırmamış və bununla da başqalarına örnək olmuşdur.

1920-21-ci illərdə Ankarada olduğu zaman dəfələrlə Anadolunun müxtəlif bölgələrinə getməsi, xalqın düşdüyü çətin vəziyyətdən çıxış yolları göstərməsi də faydalı və səmərəli olmuşdur. Şair bədii və elmi fəaliyyətini ictimai işlə birləşdirərək vətənə xidmət göstərmiş, ən gərgin zamanlarda aydın mövqe tutmağa, xalqı düzgün istiqamətləndirməyə çalışmışdır. Türkiyə tarixində ilk dəfə Mehmed Akif iki bölgədən–Burdur və Boludan millət vəkili seçilmiş və bu sahədə də səmərəli xidmət göstərmişdir.

Beləliklə, Mehmed Akif bütün varlığı ilə istiqlal savaşına qatılan türk millətini, eləcə də bütün islam dünyasını əsarət və gerilikdən qurtarmaq üçün xalqına öndərlik etmiş, sadəliyi, bilik və savadı ilə hörmət qazanmışdır. Onun həyat yolu bir daha göstərir ki, şair heç bir zaman şöhrət və ad üçün çalışmamışdır.

Türkiyə İstiqlal müharibəsində qalib gəldikdən sonra Mehmed Akif Ankaradan İstanbula geri dönmüş, 1923-24-cü illərdə isə yaxın dostu Abbas Halim Paşanın dəvəti ilə bir müddət Qahirədə yaşamışdır. Vətənə döndüyü zaman ölkədə baş verən siyasi dəyişikliklər, ona qarşı edilən iftira və ittihamlar Mehmed Akifi olduqca məyus etmişdir. 1925-ci ilin sonlarında Misirə getmək məcburiyyətində qalmış, ömrünün son günlərinədək (17 iyun 1936-cı il) orada yaşamışdır.

Həyatının mürəkkəb dövrlərinin təhlili, şəxsi həyatı, ictimai-siyasi mövqeyini əks etdirən bədii və mətbu yazıları da şairin ağır və zəngin həyatının xalq üçün örnək olan cəhətlərini üzə çıxarır, vətəndaş şair kimi onun böyük şəxsiyyətinin parlaq obrazını canlandırır.

Monoqrafiyanın ikinci fəslində Mehmed Akifin ədəbi yaradıcılığının mövzu dairəsi; mühiti, daxili qarşıdurma, müharibələr, vətənpərvərlik, elm və təhsil, qadına verilən qiymət, Qərb və Şərq məsələləri və dinə münasibət məsələləri xüsusi yer tutur.

Aparılmış təhlillər göstərir ki, Mehmed Akif dinin sağlam təməllər üzərində inkişafına, cəmiyyətdə ictimai bərabərliyə, hallığa və dini-əxlaqi dəyərlərə sadiq olmaqla müasir inkişafa nail olunmasına üstünlük vermiş, cəhalətə, dini xülafata qarşı olmuş-

dur. O, dini bilgilərin əhali arasında yayılmadığına təəssüf etmiş, fırıldaqçı mollaların din adından istifadə edərək xalqı aldatmağına kəskin, ifşa edici münasibət bildirmiş, əhalinin dini cəhətdən maariflənməsinə nail olmağın vacibliyini doğru saymışdır.

On dokkuzuncu əsrin sonu iyirminci əsrin əvvəllərində Osmanlı imperiyasının zəifləməsini fürsət bilən düşmən qüvvələr həm daxildən, həm də xaricdən təsir göstərməklə, ölkənin çökməsini sürətləndirməyə çalışırdılar. Bir tərəfdən işğal edilən torpaqlar, digər tərəfdən ortaya atılan milliyyətçilik, irqi ayrı-seçkilik düşüncəsi faciələrlə nəticələnirdi. Ədib bütün bunları əsərlərində tənqid edir, xalqı yanlış addımlar atmamağa, Qərb misyonerlərinin fitnəsinə uymamağa çağırırdı. Mehmed Akif öz əlləri ilə vətənin müxtəlif guşələrində çıxan yanğınları söndürməyə çalışırdı. Konyada, Qastamonuda, Balıkəsirdə etdiyi dini çıxışları ilə milləti birliyə çağırırdı.

Cəbhə xətlərində düşmənin güclü texnikası qarşısında əzilən əsgərlərə həsr etdiyi "Haqqın səsləri", "Cenk şərqisi", "Asım", "İstiqlal marşı", "Çanaqqala şəhidlərinə" və s. şeirləri ilə onları döyüşə ruhlandırmış, imana səsləmişdir. Bu məsələlərin təhlili göstərir ki, bu işdə şair sistemli və ardıcıl iş aparmışdır.

Elm və təhsil ədibin yaradıcılığında xüsusilə vurğulanan mövzulardandır. Monoqrafiyada aparılan təhlillərdən də aydın görünür ki, şair əsərlərində əsasən ölkədəki təhsilin geriliyindən, insanların cahilliyindən, ziyalı ilə xalq arasında yaranmış uçurumdan, əsl müəllimin hansı xüsusiyyətlərə malik olmasından və s. ətraflı bəhs etmişdir. O, təqlidçiliyin nadanlıqla nəticələndiyini,

ölkədə məktəblərin mütəxəssis yetişdirmək iqtidarında olmamasını ürək ağrısı ilə qələmə almışdır. Dövrün bu və digər xoşagəlməzlikləri barədə şair gördüklərini və düşündüklərini "Süleymaniyyə kürsüsündə", "Vaiz kürsüdə", "Fateh kürsüsündə", "Asım" və "Safahat"ın digər bölümlərində özünəməxsus şəkildə şərh etmişdir.

Kitabın fəsil və bölmələrində şərh olunanları ümumiləşdirərək demək olar ki, Mehmed Akif elmi əlaqələrə, yeni texnikaya münasibətdə sağlam mövqe tutmuş, başqa ölkələrin elmi nailiyyətlərindən faydalanmağı vacib saymışdır. Mehmed Akif haqlı olaraq göstərirdi ki, Avropanı təqlid etməkdənsə, elm və texnikanın qaynağının araşdırılıb öyrənilməsi vacibdir. Hədislərin birinə istinadən "Elm möminin itmiş malıdır, harada görsə götürsün", – deyərək şair millətə müraciət etmişdir.

O dövr Türkiyə ədəbiyyatında qadın hüquqları məsələsi Əbdülhəq Hamid Tarhandan sonra Mehmed Akif tərəfindən təsirli və daha dolğun bir şəkildə əks olunmuşdur. Ədib Türkiyədəki qadınların hüquqsuzluğundan, ailə və cəmiyyətdə təhqirlərə məruz qalmasından danışmaqla yanaşı, Quran və İslam məntiqinə, Məhəmməd (s.a.v) peyğəmbərin fikirlərinə əsaslanaraq əsl müsəlman dünyasında qadının mövqeyindən danışmış, ailələrin dağılmasına səbəb olan, insanları bədbəxtliyə aparan kafelərin, meyxanaların və həmin məkanların sakinlərinin real təsvirini yaratmağa müvəffəq olmuşdur.

Şərq və Qərb arasındakı münasibətlər və münasibətdən doğan cəmiyyətdəki çatışmazlıqlar Mehmed Akifin diqqətini çəkən,

eyni zamanda onu ən çox narahat edən əsas mövzulardan biri olmuşdur. O, kor-koranə şəkildə Qərb aləminə bəslənən heyranlığı tənqid etmiş, Avropanın Şərqə və Şərqin Avropaya qarşı münasibətlərini təhlil edərək xalqın gözünü açmağa çalışmışdır.

Mehmed Akifin yaradıcılığının əsas mövzularından biri də İslami dəyərlər və dinin cəmiyyətdəki yeri olmuşdur. Ədib "Sırat-ı Müstəqim" və "Sebilür-rəşad" məcmuələrində islama dair silsilə tərcümələr və məqalələr yazmışdır. "Safahat" adlı əsərində də dini-ictimai məsələlərə toxunmuşdur. O, cəmiyyət sarsıntıları ilə nəticələnən dini təhrifləri, xürafatları ən əsası isə islam dünyasının yaşadığı tənəzzülü aradan qaldırmağa çalışmışdır.

Mövcud ədəbiyyatların təhlili əsasında o da aydın görünür ki, şairin bəzi müasirləri dini lazımınca qavramayaraq tələsik nəticələr çıxarır və lazımsız ideyaları ortaya atmaqla xalqı çaşdırırdılar. Bu məsələyə aludə olan bəzi "ziyalılar" İslamı cəmiyyətə əngəl olaraq qiymətləndirir, yalnız dindən uzaqlaşmaqla inkişafa nail olmanın mümkünlüyünü qeyd edirdilər. Mehmed Akif isə bunun əksinə olaraq, geriliyə səbəb dinin deyil, cahillik və tənbəlliyin olduğunu mükəmməl şəkildə əsərlərində göstərmişdir.

Monoqrafiyanın üçüncü fəslində ədibin sənətkarlıq xüsusiyyətlərinin tədqiqi belə bir qənaətə gəlməyə imkan verir ki, Mehmed Akif sənətini bütövlükdə cəmiyyət məsələlərinə həsr etmişdir. Şair duyğu və düşüncələrini mənzumələr şəklində dilə gətirmişdir. Onun əsas xüsusiyyətlərindən biri də ən önəmli məsələləri hiss edərək, inanaraq və səmimiyyətlə yazmasıdır. Ədib divan şeirinin nəzm şəkilləri ilə yanaşı, danışıq dilindən us-

talıqla istifadə etmiş, burada da ənənələri qorumaqla birlikdə, yeniliyə nail olmağın mümkünlüyünü göstərmişdir. Şeirdə istifadə etdiyi qafiyə, rədif, təkrirlər, səslərin ahəngi onun əsərlərini daha da gözəlləşdirmişdir. Yazdığı uzun mənzumələrdə monotonluğu ortadan qaldırmaq üçün müxtəlif yollara baş vurmuşdur. Bunlardan biri də şeirdəki hiss və həyəcandan asılı olaraq əruzun müxtəlif bəhrlərdən istifadə etməsidir.

Dil və mövzu baxımından ilk və son şeirləri arasındakı fərq nəzərə çarpacaq dərəcədədir. Belə ki, ilk zamanlar divan şeirinin təsiri ilə fərdi mövzulara baş vursa da, daha sonra sosial vəziyyət onun mövzu dairəsini xeyli dəyişmişdir. Onun əsərlərinin dilində sadələşmə aydın görünməkdədir.

Yaradıcılığında tez-tez həcvlərə müraciət etmişdir. Bu da cəmiyyətin düşdüyü ağır vəziyyət qarşısında onu güldürərək düşündürmək məqsədi daşımışdır.

Yeddi kitabdan ibarət, on iki min misralıq “Safahat” əsəri onun müdrik bir sənətkar olduğunu göstərir. Mehmed Akifin həyat və yaradıcılığının təhlili onu da göstərir ki, şair yalnız Türkiyədə deyil, xaricdə (İran, Azərbaycan, Suriya, Misir ) yaşayıb-yaradan insanlara da təsir göstərmiş, onların həyat və fəaliyyəti üçün nümunəvi şəxsiyyət olmuşdur.

Tədqiqat işinin yekunu olaraq qeyd etmək olar ki, Mehmed Akifin zəngin yaradıcılığı Türkiyə ədəbiyyatının mühüm bir dövrünün parlaq nümunəsi olmaqla yanaşı zəmanəsinin bədii-estetik düşüncəsini genişliyi ilə özündə əks etdirir, milli mənəvi inkişafda bədii ədəbiyyatın mühüm təsiredici nüfuzu-

nun nümayiş etdirir, ədəbi şəxsiyyətlərin milli inkişafa təsirini və bu sahədəki rolunun böyüklüyünü bir daha nəzərə çarpdırır. Araşdırma nəticəsində məlum oldu ki, Mehmed Akif yaşadığı dövrdə sosial məsələlərin həlli üçün irəli sürdüyü düşüncələrini və duyğularını estetik çərçivə içərisində təsirli bir şəkildə ifadə etməyə müvəffəq olan usta bir şairdir. Eyni zamanda dissertasiya Məhmət Akifi tanıtmaq və ona obyektiv qiymət vermək baxımından da mühüm mühüm əhəmiyyətə malikdir. Çünkü Mehmed Akifin şəxsiyyəti, həyatı və yaradıcılığı nəsillərə nümunədir.

## SON SÖZ ƏVƏZİ

XX əsrin ilk illəri Türkiyə tarixinin ictimai-siyasi hadisələrin gərginliyi və daxili vəziyyətin mürəkkəbliyi baxımından ən ağır çağları hesab edilir. Belə bir dövrün yetirdiyi şəxsiyyətlərin arasında Mehmed Akif Ərsoyun xüsusi yeri vardır. Bu da onun ictimai-siyasi həyatdakı fəaliyyətindən, əsərlərinin yüksək sənətkarlıq və insani keyfiyyətlərindən irəli gəlir. Digər bir səbəbi isə sənətkarın öz əsərlərində mühitinin qabaqcıl vətəndaşı kimi, ictimai-siyasi hadisələri doğru-düzgün mövqedən işıqlandırmasıdır.

Mehmed Akif Ərsoyun yaradıcılığı dövrünün ədəbi-mədəni mühiti ilə sıx bağlıdır. Bu o deməkdir ki, görkəmli sənətkar qələmindən çıxan hər bir əsərində yaşadığı mühitin ədəbi, mədəni, siyasi və iqtisadi mənzərəsini məharətlə yarada bilmişdir. İctimai fəaliyyətindəki fəallığı onun qarşısında hərtərəfli imkanlar açmışdır. Mehmed Akif Ərsoy, ilk növbədə, ictimai xadimdir. O, atası Tahir Əfəndidən ərəb, fars dillərini öyrənmiş, İslam fəlsəfəsinin əsaslarına yiyələnmişdir. Eyni zamanda fransız dilini də mükəmməl bilirdi. Baytarlıq məktəbində təhsil almış, bu ixtisas üzrə bir sıra vəzifələrdə çalışmışdır. Bu da ona öz xalqının ümumi yaşayış səviyyəsi, siyasi-iqtisadi vəziyyəti və sosial problemləri ilə dərindən tanış olmağa imkan vermiş, sonradan bunları poetik əsərlərində əks etdirməsinə yol açmışdır.

Mehmed Akif Ərsoy 1908-ci ildən sonra Türkiyənin ədəbi mühiti ilə daha yaxından tanış olmuş, İstanbul Darülfünunda ədəbiyyat dərsləri vermiş, Əşrəf Ədibin "Sırati-müstəqim" jur-

nalında müxtəlif səpgili yazılar yazmışdır. Mehmed Akif bu yazılaında ölkədə baş verən dəyişiklikləri əks etdirməklə yanaşı, cəmiyyətdə baş verən neqativ halları da ifşa etmişdir.

Şairin poetik yaradıcılığının əsas ideya məzmun xüsusiyyəti cəmiyyətin ictimai problemlərinin bədii əksi təşkil edir. Bunlara maarifçilik, mənəvi dəyərlər, Avropa "mədəniyyəti"nə nünasibət, milli mübarizə və dövlətçilik kimi problemlər aiddir. Bu problemlərin monoqrafiya şəklində işlənməsi isə həmin ictimai məzmunlu mövzuların müasir çağlarda da aktuallığından xəbər verir. Başqa sözlə desək, Mehmed Akif Ərsoyun ayrı-ayrı əsərlərində poetik ifadəsini tapan sosial və ictimai problemlər, yalnız Türkiyə ictimai həyatında deyil, bütün dünyanın insanlarına aid edilə biləcək xüsusiyyətlərə malikdir.

Müəllif monoqrafiyanı nəşrə hazırlarkən bütün bunları diqqət mərkəzində saxlamış, şairin poeziyasında problemlərin qoyuluşunu və bədii həllini elmi ardıcıllıqla izləmiş, ictimai mövzulu şeirlərin sənətkarlıq xüsusiyyətlərini mümkün qədər dərindən açmağa səy göstərmişdir. Fikrimcə, müəllif buna nail olmuş, Mehmed Akif Ərsoy əsərlərində əks olunan ictimai problemlərinin elmi təhlili baxımından Azərbaycan şərqşünaslığında bu mövzuda ilkin sayılacaq əhatəli və dərin məzmunlu əsəri nəşrə hazırlamışdır.

Mehmed Akif Ərsoy Türkiyədə "İslam birliyi" fikrini müdafiə edən böyük mütəfəkkirlərdən biri idi. Ona görə də, həm bədii əsərlərində, həm də məqalə və çıxışlarında "İslam birliyi" ideyasını təbliğ etməyə çalışmışdır.

Şairin poetik irsi əsasən müxtəlif illərdə nəşr olunmuş və "Safahat" adı altında toplanmış yeddi kitabdan ibarətdir. Mehmed Akif "Safahat"da göstərdiyi ictimai problemlərinin həllinin məhz mənəvi dəyərlərə bağlanmaqla mümkün olacağını göstərir. Maraqlıdır ki, bu ideya maarifçiliklə bağlı şəkildə təcəssüm etdirilir. Onun əqidəsinə görə, maariflənmənin ilkin mərhələsi Quranın öyrənilməsindən başlamalıdır. Çünki İslamın özü xalqın mənəvi dəyərlərinin formalaşmasında mühüm rol oynayır. Bu mənəvi dəyərlərə dərindən yiyələnməklə xalq nadanlıq və cəhalətdən qurtula bilər.

Mehmed Akif Ərsoy Avropada elmin inkişafını alqışlayır, bu yöndə örnək alınmasını tövsiyə edir. Fəqət şair xalqın öz mənəvi dəyərlərindən uzaqlaşıb, "Avropa mədəniyyəti"nə tapınmasının əleyhinə idi. O, əsərlərində bu ideyaya kor-koranə bağlananları kəskin tənqid edirdi.

Mehmed Akif Ərsoyun əsərlərində diqqəti cəlb edən digər məsələlərdən biri də ölkədə baş verən müharibələrdir. Avropa güclərinin Türkiyə əleyhinə birləşərək baılatdıqları müharibələr xalqı yoxsulluq vəziyyətinə salır, dövləti hədsiz dərəcədə zəiflədirdi. Müharibənən qarşısının alınması isə qüdrətli dövlətçilik və bu dövlətin bacarıqla idarə edilməsindən asılıdır. Bu baxımdan xalqı milli azadlıq hərəkatına hazırlamaq da ən önəmli ictimai problemlərdəndir. Şairin türk xalqının milli azadlıq hərəkatı tarixinə şanlı səhifələr yazan Çanaqqala savaşına həsr etdiyi "Çanaqqala dastanı" əsəri səciyyəvidir. Şair burada öz xalqının xarici işğalçılara qarşı azadlıq savaşını yüksək sənətkarlıqla

əks etdirmişdir. Bütün bunlar isə Mehmed Akif Ərsoyun poeziyasında öz bədii ifadəsini tapan ictimai-siyasi problemlərdir.

Monoqrafiyada bu problemlərin poetik həllində sənətkarlıq məsələləri də xüsusi diqqətlə işlənmişdir.

Sonda qeyd etmək istərdim ki, Mehmed Akif Ərsoyu bu günə qədər Azərbaycan oxucusu "İstiqlal marşı" şairi kimi tanıyırdısa, türkologiyamıza qazandırılan bu əsərin sayəsində Mehmed Akifə "Safahat" işığında baxacaq və böyük sevgi və ehtiramla yad edəcək. Bu sevginin yolu isə əbədiyyətə aparır.

**Rəşid TƏHMƏZOĞLU**

filologiya elmləri namizədi

## ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində:**


1. Abıyev A. Türk ədəbiyyatında satira : XIX əsrin axırları- XX əsrin əvvəlləri. Bakı: Elm nəşriyyatı, 1991, 170s.
2. Abıyev A. Tənzimat dövrü Türkiyə ədəbiyyatı. Bakı:2001, 147s
3. Abıyev A. Türkiyə ədəbiyyatı tarixi. Bakı: Tural NPM, 2005, 456s.
4. Abıyev A. Ömər Seyfəddinini həyatı və yaradıcılığı. Bakı: Elm nəşriyyatı, 1978, 160s.
5. Araslı N. Nizami və türk ədəbiyyatı. Bakı: Elm nəşriyyatı, 1980, 208s.
6. Əkrəm C. Əruzun nəzəri əsasları və Aaərbaycan əruzu ərəb, fars, tacik, türk və özbək əruzları ilə müqayisədə. Bakı: Elm nəşriyyatı,1977, 415s.
7. Əliyeva J. Çağdaş türk şeirinin poetikası. Bakı: Elm nəşriyyatı, 2000,91s.
8. Qarayev Y. Azərbaycan realizminin mərhələləri. Bakı: Elm nəşriyyatı, 1980, 255s.
9. Hüseynov R. Namiq Kamal. Bakı: Yazıçı nəşriyyatı, 1990, 184s
10. Hüseynov R. Tevfiq Fikrət. Bakı: Yazıçı nəşriyyatı, 1981, 181s
11. Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1963,

215 s.

12. Xəlilov P. Türk xalqlarının və Şərq Slavyanların ədəbiyyatı. Bakı: Maarif, 1994, 196 s.

13. Xəndan C. Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri. Bakı: Az. Dövlət nəşriyyatı, 1962, 303s.

14. Mahmud T., Həsənov Ə. Əhməd Cavad. Bakı: Yazıçı nəşriyyatı, 1991, 112s.

15. Rəsulov Ə. Türk sənədli - bədii nəsri. Bakı: Elm nəşriyyatı, 2004, 426s.

16. Rəsulov Ə.Tərcümə nəzəriyyəsi müstəvisində Türkiyə türkçəsi ilə Azərbaycan türkçəsi. Bakı:

17. Sabir M.Ə. Hophopnamə. Bakı: Az. Dövlət nəşriyyatı, 1960, 494s.

18. Saləddin Ə. Əhməd Cavad. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1992, 138s.

**Türk dilində:**

19. Abdulkadiroğlu A., Abdulkadiroğlu N. Mehmed Akif Ersoyun Makaleleri, Ankara: Sevinç Matbası, 1987, 143 s.

20. Akıncı G. A.Hamid Tarhan- Hayatı, Eserleri ve Sanatı, Ankara: Türk Tarih Kurumu Basımevi, 1954, 126 s.

21. Akseki, A.H, İslam Dini İstanbul: Türkiye Diyanat Vakfı Yayınları,1966, 263 s.

22. Kılıç A.F. İslahatçılık ve Modernistçilik Açısından M.Akif Ersy. Mehmed Akif- Edebi ve Fikir Akımları, Ankara: Türkiye Ya-

zarlar Birliyi, 2009, 351s.

23. Akyüz K. Batı Tesirinde Türk Şiiri Antolojisi. İstanbul: İnkilap Kitabevi, 1995, 970s.

24. Aytekin Z. İdealist bir yürek. Kültür Dergisi, N 2, İstanbul: 2006, 117s.

25. Bakiler Y.B. Mehmed Akif Ersoy'da Çağdaş Türkiye İdeali. Bilim ve Aklın Aydınlığında Eğitim, N 73, Ankara: M.E.B. 2006, 232s.

26. Bilgegil M.K. M. Akif. Resmi Hal Tercüməsi. Basılmamış Bazı Mektup ve Manzumeleri. Erzurum: Atatürk Üniversitesi Yayınevi, 1971, 115s.

27. Cin H., Ölümünün 50. Yılında M.A. Ersoy'a armağan. Konya: Selçuk Üniversitesi Edebiyat Fakültesi Yayını, 1986, 113 s.

28. Cündioğlu D. Akif'e Dair. Kültür Dergisi, N 2, İstanbul: 2006, 117s.

29. Çetin M., Çiftçigüzeli M.C. Mehmed Akif Ersoy Albümü. Ankara: Mehmed Akif Ersoy Fikir ve Sanat Vakfı, 2002, 79 s.

30. Çetin N. Günümüze Işık Tutan Münevver Aydın Mehmed Akif Ersoy. Bilim ve Aklın Aydınlığında Eğitim, N 73, Ankara: M.E.B. 2006, 232s.

31. Danişmend İ. H. İzahlı Osmanlı Tarihi Kronolojisi. 6 cidde VI.c. İstanbul: 1972, 599s.

32. Doğan M. Camideki şair- M.Akif. İstanbul: İz Yayın, 1989, 302s.

33. Doğramacı İ. M.Akif'i Niçin Anıyoruz. Ankara: Vefatının 60. Yılında Akif Sempozyumu Bildirileri, 30 Aralık 1996, 123 s.

34. Düzdağ M.E. Mehmed Akif Mısır Hayatı ve Kur'an Meali, İstanbul: Şule Yayınları, 2003, 351s.

35. Düzdağ M.E. Mehmed Akif Ersoy. Safahat. İstanbul: Şule Yayınları, 1999, 570s.

36. Düzdağ M.E. Mehmed Akif Ersoy. Safahat. İstanbul: Kültür ve Turizm Bakanlığı Yayınları,1988, 493 c.

37. Düzdağ M.E. Mehmed Akif Ersoy. Safahat. İstanbul:İz Yayıncılık, 1991, 519s.

38. Düzdağ M.E. İstiklal şairi. Mehmed Akif Ersoy. İstanbul: Fide Yayınları, 2006, 168s.

39. Düzdağ M.E. Mehmed Akif- Mısır Hayatı ve Kuran tercümesi. İstanbul: Kelepir Yayın, 2003, 115s.

40. Düzdağ. E. Mehmed Akif Hakkında Araştırmalar, İstanbul: Fatih Yayın evi Matbaası, 1987, 231 s.

41. Edip E. Mehmed Akif, Hayatı, Eserleri ve 70 Muharririn Yazıları, İstanbul: Asar-ı İlmiyye Kütüphanesi, 1938,523s.

42. Edip. E. M. Akif Hayatı ve Eserleri, İstanbul: Dergah,1939, 254 s.

43. Ekiz O.N. Mehmed Akif. İstanbul: Toker Yayın. 1985, 343 s.

44. Elmas N. Hisli Yürek, Mehmed Akif`in Şiir Sanatı, İstanbul: Türkiye Diyanet Vakfı Matbası, 364 s.

45. Erdeм, H. M.Akif'in şiirlerinde eğitim değerleri. Konya: Ölümünün 50. Yılında M.A.Ersoya armağan, Selçuk Üniversitesi Edebiyat Fakültesi Yayınları, 1986, 130s.

46. Ergin M. Atatürk ve Akif, Milli Kültür Dergisi, sayı 55, An-

kara 1986, 96 s.
47. Erişingil M.E. Mehmed Akif – İslamcı Bir Şairin Romanı, Ankara: Nobel Yayınları Dağıtımı 2007, 391 s.
48. Ersoy M. A. Edebiyat Bahisleri: Plan. İstanbul: Sebilür-Reşad, VIIIc, N: 204, 19 Temmuz 1328 (1912), 430 s.
49. Ersoy M. A. Nasrullah Kürsüsünde. Ankara: Sebilür-Reşat, XVIIIc, N:464, 1920, 250 s.
50. Ersoy M. A. Edebiyat. İstanbul: Sebilür- Reşad, Dergisi, 8 Mart 1912, 380s.
51. Ersoy M. A. Edebiyat. İstanbul: Sırat-ı Müstakim (Sebilür-Reşad Dergisi) VIII c, N: 183, 24 Şubat 1327 (1911), 180 s.
52. Ersoy M. A. Hasbihal. İstanbul: Sırat-ı Müstakim, N:56, 1909, 56 s.
53. Ersoy M. A. Mevize. Sebilür-Reşad, XVIII c, N: 458, 1914, 184 s.
54. Ersoy M.A. Dokkuzuncu Mevize. İstanbul: Sebilir-Reşad, C. IX, N:232, Mayıs 1912, 407 s.
55. Ersoy M.A. Hutbe ve Mevaiz: Üçüncü Mevize. Sırat-ı Müstakim, IXc , N: 232 7 Fevral 1912, 342s.
56. Ersoy M.A. Manda Meselesi. Ankara: Sebilür-Reşat Dergisi, N: 437-438, 21 Ağustos 1919, 175 s.
57. Ersoy M.A. Manda Meselesi. Kastamonu: Sebilür-Reşat Dergisi, N:464, 1920, 264 s.
58. Ersoy M. A. Mevize. İstanbul: Sebilü'r-Reşad N:12, IX c, 1912, 393 s.
59. Ersoy M.A. Hasbihal. İstanbul: Sırat-ı Müstakim, Nr.105,

26 Ağustos1910, 20 s.

60. Ergin O. Türk Maarif Tarihi, İstanbul: Eser Kültür Yayınları, 5 cilddя, C.III-IV, 1977, 1276 s.

61. Eski M. Milli Mücadelede Mehmed Akif Kastomonu'da, Ankara: Ayyıldız Matbaası, 1983, 148 s.

62. Fildancı У.P. Meslektaşım Mehmed Akif Ersoy. Türk Veterener Hekimleri Dergisi, 1992, № 4(3), 53 c.

63. Gecan T.N. Safahatın Folklor Cebhesi, Ankara:Türkiyat Enstitüsü, 70 s.

64. Gökçek F. Mehmed Akif'in şiir dünyası. İstanbul: Dergah Yayın evi, 2005, 360s.

65. Huyugüzel Ö.F., Bağcı R., Gökcek F. Sahafat-2, İstanbul: Feza Gazetecilik A.Ş, 994, 580 s.

66. Huyugüzel Ö.F., Rıza Bağcı R., Gökçek F. M.Akif Ersoy Safahat -1, İstanbul: ZAMAN Gazetesi A.Ş. yayınları 1990, 338 s.

67. Kabaklı A. Mehmed Akif. İstanbul Yapı-Kredi,2002, 190 s.

68. Kabaklı A. Türk Edebiyatı, İstanbul: Türk Edebiyatı Vakfi Yayınları, 1997, 5cildde, IIIc., 382 s.

69. Kaplan M. Şiir Tahlilleri, İstanbul: Bilmen Basımevi, 1969, 155 s.

70. Karakoç S. M.Akif. İstanbul: Diriliş Yayınları, 1985, 36s.

71. Kukul H. Asım Yahut VI. Safahat'ta Milli Eğitim Meselesi Olarak Türk Gençliğinin Gayesi ve Hedefleri. Milli Kültür, N 55, Ankara: Kültür ve Turizm Bakanlığı, 1986, 96s.

72. Kuntay M.C. Mehmed Akif. İstanbul: Leyla ile Mecnun Yayımcılık 2007, 472 s.

73. Kurtkan A, Genel Sosyoloji. İstanbul: İ.Ü. İktisat Fakültesi, 1976, 275 c.

74. Nazıf S. M. Akif, İstanbul: İz Yayıncılık, 1991, 40s.

75. Okay M.O. Takdimatıyla Mehmed Akif Ersoy, İstanbul: Akçağ Yayınları, 1997, 468 s.

76. Okay M.O. M. Akif – Bir Hareket Heykelinin Anatomisi. İstanbul: Akçağ Yayınları, 2000, 143 s.

77. Okay M.O. Mehmed Akif Ersoy, Safahat. Ankara: Akçağ Yayınları, 1994, 700 s.

78. Ongun C. S. Mehmed Akif, Hayatı, Şahsiyeti ve İdealleri, İstanbul: Tefeyyüz Kit. 1947, 134 s.

79. Önberk N. Mehmed Akifin Topluma Bakışı. Ankara: Hacettepe Üniversitesi Edebiyat Fakültesi, Mehmed Akif Özel Sayısı Vc, N:1 Dekabr 1987, 184 s.

80. Özçelik M. Mehмet Akifin Dil və Ədədbiyyat Anlayışı. Ankara: Kültür Dünyası Dərgisi, Aralıq, N: 8, 1997, 243 s.

81. Öztürk H. M.Akif Ersoy'un "Seyfi Baba" şiirinde bir dönemin panoraması. Milli Kültür, N 79, Ankara: Kültür Bakanlığı, 1990, 92s.

82. Öztürkmen N. M. Mehмet Akif Ersoy ve Dünyası, Ankara: Kültür Bakanlığı, 1990, 230 s.

83. Şahsüveroğlu И. Щ . Mehмet Акиф кцллийаты, 10 cilddя, IX ъ., İстанбул: Никмет нешрийаты, 1992, 483 с.

84. Şahsüveroğlu L. Мещмет Акиф Ерсой, Истанбул: Алтернатиф Йайын, 2005, 246 с.

85. Şengüler İ. H. M.Akif Külliyatı, 10 cilddя, Vc, 1.baskı, İs-

tanbul: Hikmet Neşriyat, 1990, 235 s.

86. Şengüler I. H. Mehmet Akif külliyyatı, 10 cilddə, X c. İstanbul: Hikmət nəşriyyatı, 1992, 483 s.

87. Tamturk N. Açıklamalı Yahya Kamal Antolojsi. İstanbul: İnkilap ve Aka kitap evi 1972, 175 s.

88. Tansel, F.A. Mehmed Akif, Ankara: Ahmet Sait Matbaası, 1945, 181 s.

89. Tansel. F.A. Mehmed Akif Ersoy (Hayatı ve Eserleri), Ankara: M. Akif Ersoy Fikir ve Sanat Vakfı Yayınları, 1991, 231 s.

90. Tevetoğlu F. Bayrağa Sardığım Bir Şair // Mehmed Akif Ersoy Albomu, ISMAT, Ankara: 2002, N:3, 66 s.

91. Timurtaş F.K. Mehmed Akif ve Cemiyetimiz, Ankara: Kültür ve Turizm Bakanlığı Yayınları, 1987, 145 s.

92. Timurtaş F.K. Mehmed Akif ve cemiyetimiz. Ankara: Akçağ Yayınları, 2006, 143 s.

93. Topçu N. Mehmed Akif- Bütün Eserleri, İstanbul: Dergah Yayınları 1998, 96 s.

94. Uğurcan S. Mehmed Akifin Şiirlerinde Savaş // Ölümünün 50. Yılında Mehmed Akif Ersoy, İstanbul: Marmara Üniversitesi Yayınları, 1986, 250 s.

95. Uyguner M. Mehmed Akif Ersoy. Ankara: Bilgi Yayınları, 1991, 176 s.

96. Ülken H. Z. Türkiyede Çağdaş düşünce tarihi. Istanbul: Ülken Yayın evi, 2002, 515s.

97. Vakkasoğlu V. Mehmed Akif. Istanbul: Boğaziçi Yayın, 2001, 208 s.

98. Yaşar S. Mehmed Akif in hayatı, İstanbul: Nesil Yayınları 2006, 182 s.

99. Yetiş K. Bir Muzdarip Mehmed Akif Ersoy, Ankara: Akçağ Yayınları 2006, 270 s.

100. Yetiş K. Mehmed Akif`in Sanat ve Edebiyat Fikri, Ankara: Akçağ, 1992, 130s.

101. Yetiş K. Mehmed Akif'in Sanat-Edebiyat ve Fikir Dünyasından Çizgiler. Ankara: Akçağ, 1992, 175 s.

102. Yıldırım T. Milli Mücadilede Mehmed Akif. İstanbul: Selis Kitaplar 2007, 344 s.

**Rus dilində:**

103. Айзенштейн Н.А. Из истории турецкого реализма. Москва, 1963

104. Алькаева. Л.С. Очерки по истории турецкой литературе (1908-1939 гг.) –М., Изд. АН СССР. 1959, 220 стр.

105. Алькаева Л.С. Очерки по истории турецкой литературы 1908–1939. Москва, 1959 Алькаева Л.С., А. Бабаев. Турецкая литература. Москва, 1967

106. Баскевич Ж. История на новата Турска литература. – София: 1956. 220 стр.

107. Гарбузова Б.С. Поэты Турции в четверти XX века. –Л.: 1975,72 стр.

108. Гордлевски. В.А. Избранные сочинения II т.- М:"Наука" 1961, 558 стр.

109. Кямилев Х. Общественные мотивы в турецкой поэзии. Москва, 1969

110. Кермунский Б. Теория стиха. –Л: "Сов. пистатель"1975. 667 стр.

111. Меликов Т. В. Назим Хикмет и новая поэзия Турции.- Москва: "Наука" 1987. 198 стр.

**İngilis dilində:**

112. E. V.J. Gibb. A history of Ottoman poetry, vol. V. – London, 1907, 185 pages.

113. Epiphanius Wilson –Turkish Literature- Literary Criticism - Kessinger Publishing, LLC (2003)- Paperback- 488 pages.

114. Kenan Cayir –Islamik Literature in Contemporary Turkey: Erom Epic to Novel- Literary Criticism - Palgrave Macmillan (2007) – Hardback 204 pages

115. Intersectionsin Turkish Literature Essays in Honor of James- by Walter G. Andreəs, James Stewart-Robinson - Literary Criticism - University of Michigan Press (2001) - Hardback - 168 pages

116. Ottoman Propoganda and Turkish Identity: Literature in Turkey- by Erol Koroglu - History - I. B. Tauris & Company, Limited (2007) - Hardback - 272 pages

117.

## İnternet qaynaqları:


118.http://www.sevde.de/Tarihe_san_ver/MEHMED_AKiF.htm

119.http://www.Mehmedakifersoy.com/hayat_oku.asp?id=28

120. http:// www.tbmm.gov.tr/kultur_sanat/12mart/bildiriler/bostanci.htm

121. http://www.ebilge.com/62953/MAkif_Ersoy_İstiqlal_marsini_nerde_ve_ne_zaman_yazmistir.html

122. http:// www.Mehmedakifersoy.com/yorum_oku.asp?id=32



M.Akif



Kartposal



M.Akif



قورقما سونمز بو شفقلرده يوزن آل سنجاق
سونمدن يوردمك اوستنده توتن ان صوك اوجاق
او بنم ملتمك يلديزيدر پارلايه جق
او بنمدر او بنم ملتمكدر آنجاق

دالغالان سن ده شفقلر كبی ای شانلی هلال !
اولسون آرتق دوكيلن قانلريمك هپسی حلال ؛
ابديا سكا يوق ، عرقمه يوق اضمحلال
حقيدر حر ياشامش بايراغمك حريت
حقيدر حقه طاپان ملتمك استقلال

- محمد عاكف -

فياتی
۱۰ غروشدر

A.Rifat Bəyin digər bir İstiqlal Marşı



محمد عاكف

# استقلال مارشی

قورقما! سونمز بو شفقلرده یوزن آل سنجاق؛
سونمدن یوردیمك اوستنده توتن ان صوك اوجاق.
او بنم ملتمك ییلدزیدر، پارلایاجق؛
او بنمدر، او بنم ملتمكدر آنجاق.

چاتما، قربان اولايم، چهره‌كی ای نازلی هلال!
قهرمان عرقمه بر كول... نه بو شدت، بو جلال؟
سكا اولماز دوكولن قانلرمز صوكرا حلال...
حقیدر، حقه طاپان ملتمك استقلال!

بن ازلدن بریدر حر یاشادم، حر یاشارم.
هانكی چلغین بكا زنجیر اوراجقمش؟ شاشارم!
كوكره‌مش سیل كبی‌یم، بندیمی چیكنر آشارم؛
ییرتارم طاغلری، انكینلره صیغمام، طاشارم.

غربك آفاقنی صارمشسه چلیك زرهلی دیوار،
بنم ایمان طولو كوكسم كبی سرحدم وار.
اولوسون، قورقما! ناصل بویله بر ایمانی بوغار،
«مدنیت!» دیدیكك تك دیشی قالمش جاناوار؟

آرقداش! یورديمه الچاقلری اوغراتما، صاقین؛
سپر ایت كوده‌كی، دورسون بو حیاسزجه آقین.
دوغاجقدر سكا وعد ایتدیكی كونلر حقك؛
كیم بیلیر، بلكه یارین، بلكه یارندن ده یاقین.

باصدیغك یرلری «طوپراق!» دییه كچمه، طانی:
دوشون آلتنده‌كی بیكلرجه كفنسز یاتانی.
سن شهید اوغلیسك، اینجیتمه، یازیقدر، آتاكی:
ویرمه، دنیالری آلسه‌ك ده، بو جنت وطنی.

كیم بو جنت وطنك اوغرینه اولماز كه فدا؟
شهدا فیشقیراجق طوپراغی صیقسه‌ك، شهدا!
جانی، جانانی، بوتون واریمی آلسین ده خدا،
ایتمسین تك وطنمدن بنی دنیاده جدا.

روحمك سندن، الهی، شودر آنجق املی:
دكمه‌سون معبدیمك كوكسنه نامحرم الی.
بو اذانلر ـ كه شهادتلری دینك تملی ـ
ابدی یوردیمك اوستنده بنم اینكلملی.

او زمان وجد ایله بیك سجده ایدر ـ وارسه ـ طاشم،
هر جریحه‌مدن، الهی، بوشانوب قانلی یاشم،
فیشقیریر روح مجرد كبی یردن نعشم؛
او زمان یوكسله‌رك عرشه دكر، بلكه باشم.

دالغالان سن ده شفقلر كبی ای شانلی هلال!
اولسون آرتق دوكولن قانلریمك هپسی حلال.
ابدیاً سكا یوق، عرقمه یوق اضمحلال؛
حقیدر، حر یاشامش بایراغمك حریت؛
حقیدر، حقه طاپان ملتمك استقلال!

محمد عاكف

İstiq`lal Marşı Kartpostal




A.Rifat Bəyin digər bir İstiqlal Marşı




Kartposal



A.Rifat Bəyin digər bir İstiqlal Marşı


احکام امراض عموی

(مقدمه)

A.Rifat Bəyin digər bir İstiqlal Marşı



Suad Xanım



Nuri Bəyə Məktubu



Şerif Muhidin Bəyə Məktubu





Akifin əl Yazısı ilə Şeir dəftəri

Akifin əl Yazısı ilə Şeir dəftəri (60 Sh.)





Akifin əl Yazısı ilə Şeir dəftəri

Akifin əl Yazısı ilə Şeir dəftəri



Cip Saatı



Emin Və Tahir Bəylər İlə



الرسالة

شاعر الاسلام

محمد عاكف

بقلم الدكتور عبد الوهاب عزام

Ər-Risalə Məcmuası 1937-Qahirə



Ankarada



Birinci Məclis Albomunda






İmzalı Kitabları (Kızımız Cahıd Xanıma..) İsmət Xn.,Tahir Bəy Və Suad Xanım.



Əşrəf Ədib Bəyə Məktubu



Əşrəf Ədib Bəyə Məktubu



İlk Şeiri 'Qur'ana Xitab" Məktəb 1311



İlk Şeiri 'Qur'ana Xitab" Məktəb 1311




Kartviziti




Möhürü




Səbilür-Rəşad




Sıratı-müstəqim




Safahat-Xəritələr




SAFAHAT-SÜLEYMANİYƏ KÜRSÜSÜNDƏ



Hilvan'dakı Evi (Misir)



Hilvan'dakı Evi (Misir)

SƏRİYYƏ GÜLAĞA qızı GÜNDOĞDU

MEHMED AKİF ƏRSOY YARADICILIĞINDA
İCTİMAİ PROBLEMLƏRİN
BƏDİİ TƏCƏSSÜMÜ

Çapa imzalanmışdır: 15.10.2012
Format: 60x84 1/16. Həcmi 14,25 ç.v.
Sifariş №64. Tiraj: 500

Kitab "R.M.Kompani"nin mətbəəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap olunmuşdur.

Ünvan: Bakı ş., Sarayeva28.